# FİRİDUN BƏY KÖÇƏRLİ



## Ürəyi atəşli bir müəllim

### BAŞ REDAKTORDAN

Azərbaycanın ictimai-siyasi fikir tarixində, ədəbi və pedaqoji düşüncəmizdə dərin iz qoymuş, ölçüyəgəlməz xidmətlər göstərmiş görkəmli ziyalılarımızdan biri də maarifçi, pedaqoq, tənqidçi, ədəbiyyatşünas, yazıçı - publisist, ictimai xadim Firidun bəy Köçərlidir. Cəmi 57 illik ömründə xalqı qarşısında əsrə bərabər xidmətlər göstərmiş şəxsiyyətin yazdığı kitablar içərisində təkcə "Azərbaycan ədəbiyyatı" əsərinin adını çəkmək, cahanşümul əməlləri içərisində ölümünü gözaltına alaraq Qori seminariyasının Qazağa köçürməsini vurğulamaq yetər ki, Firidun bəyin adının düşüncə tariximizdə qızıl hərflərlə yazıldığını söyləyə bilək.

O, bütün maarifçilər kimi cəhalət qaranlığının, ətalət buxovlarının dağıdılmasının tək bir yolunu bilirdi - məktəb və mətbuat. Özünün ideya babası və haqqında kitab yazdığı M.F.Axundovun yarımçıq qalmış bütün arzularının həyata keçirilməsi məsuliyyətini sanki öz çiyinləri üzərinə götürürmüş kimi Firidun bəy Köçərli mübarizə meydanına atıldı. Hər şey maarifdən keçirdi, bu sadə həqiqəti vaxtında dərk edən mütəfəkkir bütün həyatını bu ülvi işə həsr etdi. O, kədərlə yazırdı ki, bizim bəzi müəllimlərimizin ürəklərində "müəllimliyə olan atəş sönübdür və hər şeyə həyat verən məhəbbət çeşməsi quruyubdur". "Müəllimlərimiz və onların halı" sərlövhəli məqaləsində bunun səbəbini o, kəndlərdə müəllimlik etməyin çətinliyi, müəllimlərin maddi ehtiyaclarının ödənilməməsi, həddən ziyadə az məvacib almaları, "elm və ədəbə rəğbəti olmayan", millətin ayılmağından "xof və əndişə edən" fanatik mollaların dünyəvi məktəblərə düşmən münasibəti və dövlət məmurlarının təhsilə qarşı laqeydliyi ilə izah edirdi. Təbii ki, bütün bunlar bir tərəfdən çarizmin milli müstəmləkə siyasəti ilə bağlı nüanslar idi, digər tərəfdən isə Azərbaycan maarifçilərinin başladıqları mübarizənin hələ bitmədiyinin göstəricisidir.

Firidun bəy necə müəllim idi sualını verməklə günah olardı. Çox yox, ikicə fakta diqqət yetirək. O, pedaqoq fəhmi ilə dahi Üzeyir Hacıbəylini hələ uşaq yaşlarından istedadını sezmiş və Qori seminariyasına qəbul etdirmişdir. Bu seminariyanın zəhmətkeş müəllimləri, parlaq məzunları olmasaydı, tarixi fürsət yetmişsə belə, paytaxtı Bakı olan Xalq Cümhuriyyətinin yaranması sual altında ola bilərdi. İkinci fakt, Xalq Cümhuriyyəti Parlamenti 25 yanvar 1919-cu il tarixli iclasında belə bir qərar qəbul edir ki, dövlət qulluğunda çalışan şəxslər parlament üzvü ola bilməzlər, yəni iki vəzifədən birini yerinə yetirməlidirlər. Firidun bəy Qazax müəllimlər seminariyasında çalışmağı, yeni müəllim kimi dövlətinə xidmət göstərməyi deputatlıqdan üstün tutur və 4 fevral 1919-cu ildə məbusluqdan (deputatlıqdan) istefa verir. Bu yerdə haşiyəyə çıxaraq vurğulamaq istərdik ki, tarix nə qədər də aktual elmdir, o, keçmiş yox, əslində gələcək haqqındadır. Firidun bəyin düşüncələrdə ucaltdığı adibəsi bütün zamanlardan görünəcək, Abbas Zamanovun təbirincə desək, "ürəyi atəşli bir müəllim" idi.

İnsan mənəviyyatının güzgüsü, intellektinin, səviyyəsinin göstəricisi olan ədəbiyyat bütün maarifçilər kimi Köçərlini də öz cazibəsinə sala bilmişdi. Millətin ana dilini tədris etməklə yanaşı, bu dildə yaranmış zəngin xəzinəni toplayıb sistemləşdirmək kimi məsul vəzifəni yerinə yetirən ilk pionerlərdən idi. "Azərbaycan ədəbiyyatı tarixi materialları" adı ilə çap edilən əsəri ədəbi tənqidimizin, ədəbiyyatşünaslığımızın ilk nümunəsi idi. Firidun bəy 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap etdirdiyi məqaləsində yazırdı: "Bir millətin ədəbiyyatı, demək olar ki, onun məişətinin aynəsidir. Hər bir millətin dolanacağını, övzai-məişətini, dərəceyi-tərəqqisini, mərtəbeyi-kəmalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar". Firidun bəy xalqın ədəbiyyat tarixini tədqiq etmiş, keçmişini öyrənməyi unutmayaraq öz yurdunun ədəbiyyatını başqa xalqlara tanıtmağa çalışmışdı. Onun bu məqsədlə rusca yazdığı və 1903-cü ildə Tiflisdə nəşr olunduğu "Literatura azerbaydjanskix tatar" əsəri ədəbiyyatımız haqqında rus oxucusuna, maraqlı məlumat verirdi. Xalqımızın digər ədəbiyyatşünas alimi Əziz Şərif "Firidun bəy Köçərli və onun arxivi" adlı məqaləsində ədibin uzun illər boyu topladığı materiallara qiymət verərək qeyd edirdi: "...Burada nələr var idi! Molla Nəsrəddin, Sabir, Şəhhət, İsmayıl bəy Qaspiralı, Ömər Faiq, Əli Mərdan bəy Topçubaşov, Salman Mumtaz və daha kimin yüzlərlə məktubu... Firidun bəyin arxivi XX əsr ictimai həyatımızın güzgüsüdür, bu dövrdə yaşayan bir nəfər də ictimai və mədəni xadim yoxdur ki, burada onun izi olmasın... Hələ XVII-XIX və daha qədim əsrlərə aid materiallar öz yerində. Burada Vaqif haqqında Mirzə Fətəli Axundovun əlyazması da var idi..."

Köçərlinin fəaliyyət göstərdiyi dövr - XIX əsrin sonu XX əsrin əvvəlləri (1885-1920) Azərbaycan xalqının tarixində intibah, milli dirçəliş və ictimai oyanış mərhələsi hesab olunur. Dövrünün digər mütərəqqi ziyalıları kimi Firidun bəyi də xalqın maariflləndirilməsi və mədəni yüksəlişi daim düşündürmüşdür. O, milli ədəbiyyat və mətbuatın tərəqqisi yolunda fəaliyyət göstərməyi özünə müqəddəs vəzifə hesab etmişdir. Görkəmli ədəbiyyatşünas xalqın qəflətdən ayılmasında, maarif, elm, mədəniyyət meydanına qədəm qoymasında qəzetlərin yeri və roluna yüksək qiymət vermişdir. Onun "Kafkaz", "Zakafkaziya", "Kaspi","İrşad", " Şərqi-Rus", "Molla Nəsrəddin", "Tərəqqi", "Həyat", " İqbal" və başqa jurnal və qəzetlərlə fəal əməkdaşlığı, xalq ədəbiyyatı nümunələrini toplayaraq müxtəlif jurnallarda çap etdirməsi bu məqsədə xidmət edirdi. F. Köçərli xalqların geridə qalması və tənəzzülə uğramasının, habelə dövrün mütərəqqi hərəkatına qoşula bilməməsinin səbəblərini onların layiqli və istedadlı müəllimlərinin olmaması ilə izah edirdi. Köçərli Rusiya imperiyası tərkibində yaşayan müsəlman xalqlarının həyatında müşahidə edilən bütün bəla və bədbəxtçiliyin səbəblərini xalqın dərdini bilən və onun müalicəsi üçün yollar axtaran müəllimlərin oxluğu ilə izah edirdi.

O, ömrünün 40 ilini millətin maariflənməsi və mədəni tərəqqisinə, savadsızlığın və geriliyin aradan qaldırılmasına, mövhumat və cəhalətə qarşı mübarizəyə həsr etmişdir. Onun qələminin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etmək olmuşdur.

Köçərli kimi şəxsiyyətlərin irsinə dönə-dönə qayıtmağımız lazım gələcək. Bu, sadəcə tarixi anmaq, millətimizin keçmişini yada salmaq, xalqımızın imkan və qabiliyyətini lazımınca qiymətləndirməyib ona yuxarıdan-aşağı baxanlara cavab vermək üçün deyil, həm də Azərbaycan maarifçilərinin arzularının yarımçıq qalmasından, ideyalarının tam həyata keçməməsindən irəli gəlir. Çar mütləqiyyətdən heç olmasa mədəni muxtariyyət qoparmağa hesablanmış dinc mübarizə sonda şərqin ilk Cümhuriyyətinin yaranmasına kimi uzun bir yol keçdi. Araya düşən sovet işğalı zorakı üsullarla millətin alovlanmaq istəyən çırağını söndürdü, maarifçilik, kütləvi savadsızlığın ləğvi kimi sosialist realizminin sələf ideyası kimi yozulmağa başladı. Etiraf etməliyik ki, sovet dövründə kütləvi savadsızlıq aradan qaldırıldı, amma bunun yerinin kütləvi şüursuzluq tutdu. Kütlə hazırlayan sovet maşınının sıradan çıxdıqdan sonra müstəqilliyin uzun yolu bizə sonu görünməz dərin və qaranlıq tuneli xatırlatmağa başlayanda, yenə köhnə maarifçilərin çırağı yolumuzda mayak oldu. Yenidən köhnə kişilərin arzularının yarımçıq yerinə qayıdıb hər şeyi təzədən başladıq. Bəs əldə etdiyimiz nəticələr necədir? Müstəqilliyin iki on illiyini arxada qoymuşuq, bəs Axundovun, Zərdabinin, Köçərlinin yarımçıq arzuları həyata keçibmi? Müstəqil Azərbaycanın müasir məktəbləri Köçərlinin arzuladığı məktəblərdirmi? Fikirləşmək lazımdır...

**Natiq Məmmədli**

# "Elm və irfan sahibi"



Qərənfil Dünyamin qızı

**"Ümmətdən millətə doğru" - deyərək bütün həyatını xalqının xoş rifahına həsr edən və sonda canını faciəli surətdə qurban verən Firidun bəy Köçərli zamanından, məkanından asılı olmayaraq "elm və irfan sahibi" kimi daim bu xalqın qəlbində yaşayacaqdır. Ədəbiyyatşünas alim, ilk milli ədəbiyyat tarixinin müəllifi, istedadlı publisist, ədəbi-tənqidçi, tələbkar pedaqoq, maarif fədaisi, millətsevər, vətənpərvər vətəndaş, xeyirxah insan olan Firidun bəy həyatı boyu hec nə yazmasaydı-yaratmasaydı belə təkcə Qori seminariyasının "Müsəlman şöbəsini" Azərbaycana köçürməklə yaddaşlara həkk edilmiş olardı.**

"...Nə daraşmısınız Qafqaz müsəlmanlarının canına. Bəsdir Azərbaycan şöbəsini addım-addım güdməyiniz!" -deyə 1902-ci ildə Qori Müəllimlər Seminariyasına təyin edilmiş direktora cəsarətlə öz etirazını bildirən Firidun bəy nəyin bahasına olursa-olsun şöbəni Azərbaycana köçürməy üçün mübarizəyə başladı. Azərbaycan şöbəsinə aid olub bütün sənədləri və dəftərxana ləvazimatlarını gizli yolla seminariyadan çıxararaq Ağdama "qaçırır".

Sonra isə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin köməyi ilə Qori Müəllimlər Seminariyası **"Müsəlman şöbəsi"**nin Qazax da fəaliyyətə başlamasına nail olmuşdur. Seminariyaya direktor təyin edilən Firidun bəy burada Azərbaycanın gələcəyi olan yüzlərlə ziyalının yetişməsinə şərait yaratdığı üçün qürur duyurmuş. Xalqının övladlarını savadlı, mədəni görmək onun ən ümdə arzusu olmuş və bu arzusu yolunda bütün həyatını fəda etmişdir. Bu yolda həm qələmi, həm sözü, həm də əməli ilə mübarizə aparan Firidun bəy ilk olaraq arzularını mətbuatda bəyan etməli olur.

## PUBLİSİST FİRİDUN BƏY

Ədəbiyyatşünas alim Əziz Mirəhmədovun yazdığına görə 1886-cı ildə ilk dəfə olaraq "Tərcüman"da çap olunan Firidun bəy Köçərli gənc bir müəllim kimi müsəlman gəncliyinin maarifdən, Şərq və Qərb mətbuatından bixəbər olduğunu ürək ağrısı ilə qeyd edirdi. Gəncliyi elmə, maarifə, mədəniyyətə bir sözlə dini elmlərlə yanaşı dünyavi elmlərə səsləyən gənc müəllifin bu məqaləsi İrəvan üləmasının qəzəbinə səbəb olur. Lakin bu Firidun bəyi heç də öz yolundan döndərə bilmir.

"Bütün türklərin tərcümanı" olan "Tərcüman"dakı ilk çıxışı onun üçün çox düşərli olur. Belə ki, 1880-ci illərin axırları artıq F.Köçərli imzası ilə həm rus, həm azərbaycan dillərində nəşr olunan bir neçə mətbu orqanlarında rastlaşırıq. Gənc olmasına baxmayaraq "Kavkaz", "Novoye obozreniye", "Kaspi", "Kavkazski vestnik", "Znaniye", "Zakavkazye", "Tiflisski listok", "Otqoloski", "Ziya", "Ziyayi - Qafqaziyyə", "Kəşkül" qəzetlərində artıq o, bir jurnalist, publisist kimi müxtəlif mövzulara müraciət edirdi. Lakin bu mövzular arasında əsas yeri bir pedaqoq olduğu üçün maarif, əlifba, ədəbiyyat məsələləri tuturdu. Məqalələrinin böyük əksəriyyətində Firidun bəy xalqının tərəqqisi üçün maarifin, mədəniyyətin tərəqqi etməsini çox zəruri şərt sayır və mətbuatı bu problemlərin həll edilməsində köməyə çağırırdı.

20-ci yüzilliyin əvvəllərində Firidun bəy bütün bu arzu və istəklərini uzun illər həsrətlə gözlədiyi ana dilli mətbuatında da şövqlə davam etdirir. "İrşad", "İqbal", "Tərəqqi", "Səda", "Molla Nəsrəddin", "Dəbistan", "Məktəb", "Rəhbər" və s. qəzet və jurnallarda artıq dövrünün tanınmış və istedadlı ədəbi tənqidçisi kimi məsələni daha kəskin bir şəkildə qoyur və həlli yollarını göstərirdi.

O dövrün görkəmli tədqiqatçısı Fərhad Ağazadə onu **"dəyərli bir qələm sahibi"** adlandıraraq "...Firidun bəy qələminə yalnız türklər deyil, ruslar, gürcülər də böyük hörmətlə" yanaşdığını fəxrlə qeyd edirdi.

Müəllif ən məşhur "Taybuynuz öküz", "Həyata dəvət" və "Əcəlsiz ölənlərimiz" adlı publisistik məqalələrində xalqı tərəqqiyə çağıraraq ətalətə, avamlığa qarşı çıxırdı. Məqalələrində fikirlərinin simvolik şəkildə ifadə edən Firidun bəy sadə, zəhmətkeş, bir parça çörəyini min bir əzabla qazanan insanların halına ürəkdən acıyaraq onları bu əzabəziyyətdən qurtarmaq üçün elmə, maarifə dəvət edirdi.

Bunun üçün isə qələm əhlindən milli mətbuatı daha geniş inkişaf etdirməyə çağırırdı. Mətbuatın da bu yolda mühüm rol oynadığını hələ bir neçə il əvvəl "Şərqi-Rus"da "Hörmətli "Şərqi-Rus" ruznaməsinə bir neçə sözlər" adlı məqaləsində belə bəyan edirdi: "...ərbabi-qələm" gərək qəzetənin "mündəricatını xeyli və zəmanənin təqazasına müvafiq məlumat ilə doldursun, ta ki, qəzetəni oxuyanlar ondan istifadə edib, arzu və təmənnaları puç və ümidlər zay olmasın, gərək qəzetə milləti ayıldan və onun ruhani və cismani qüvvələrini hərəkətə gətirsin".

## MƏTBUATŞÜNAS ALİM FİRİDUN BƏY

Dövrünün bir çox ziyalıları kimi ana dilli mətbuatın inkişafı üçün var qüvvəsi ilə çalışan Firidun bəy yalnız qəzet və jurnallarda məqalələr yazmaqla kifayətlənmirdi. O, həm də Azərbaycan mətbuatını diqqətlə izləyir, tədqiq edirdi. Uzun illər müxtəlif mətbu orqanlarında ana dilli mətbuatımız haqqında ədəbi-tənqidi, biblioqrafik məqalələr, icmallar yazan müəllif "Azərbaycan dilində çıxan dövri mətbuata dair qısa icmal" bir neçə məqalə və icmallar həsr edib. Jurnalın üç aylıq fəaliyyətini şərh edən tənqidçi daima "Molla Nəsrəddin"in dostları sırasında olmuşdu. Bu bəlkə də ondan irəli gəlirdi ki, mollanəsrəddinçilərin müraciət etdiyi mövzular əsasən Firidun bəyin qəlbinə, ruhuna daha yaxın idi və onu daha çox düşündürürdü. Məsələn, ana dilimizin saflığı, qorunması və yaşanması uğrunda mübarizə aparan jurnal az qala hər sayında bu mövzuya müraciət edib.

Rus, fars və ərəb dillərini mükəmməl bilən Firidun bəy jurnalda çap etdirdiyi "Ana dili" adlı publisistik məqaləsində yazırdı: "Ana dili millətin mənəvi diriliyidir, həyatın mayəsi mənziləsidir. Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır". Müəllif bu məsələdə əsasən də milli yazarlarımızı öz ana dillərini mükəmməl bilməyə, onu yaşatmağa çağırırdı. Əks halda isə bir millət olaraq məhv olmaq təhlükəsini bəyan edirdi: **"...bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan, ölüb itməz, amma dilini alsan, fot olar və ondan bir nişan qalmaz".**

Azərbaycan satirik şeir məktəbinin banisi olan M.Ə.Sabir haqqında da ilk ciddi və sanballı məqaləni də Firidun bəy yazıb. "Sabir əsrimizin ən müqtədir və xoştəb şairlərindən birisidir. Sabirin təbində bir o qədər zəriflik və lətafət var ki, güldürə-güldürə ağladır, ağlada-ağlada güldürür".

1913-14-cü illərdə çar hökumətinin və bəzi "din xadimləri"mizin növbəti hücumuna məruz qalan mollanəsrəddinçiləri məhkəmədə müdafiə edən də Firidun bəy olmuşdur.

Hər zaman jurnalın işləri, problemləri ilə maraqlanan, F.Köçərli 1910-cu il 25 dekabrda Batumdan "Molla Nəsrəddin"in redaksiyasına Məmmədəli Sidqiyə məktubla müraciət edir. O, məktubda yazırdı: "...bu halda, bəradərim Mirzə Cəlil haradadır və "Molla Nəsrəddin"in işi necə gedir. Təzə ildən jurnal çıxacaqdırmı? Əgər çıxacaqsa, nə üçün jurnalda elan olunmur. Mirzə Cəlil jurnalın işlərinə mübaşir olacaqdırmı? Yoxsa siz öhdənizə götürəcəksiniz? Hər halda lazımdır jurnalı işlətmək. Çünki onun nəfi çoxdur. Bizim müsəlmanların tərəqqisinə və ədəbiyyatına, "Molla Nəsrəddin" kimi heç bir cəridə xidmət etmir. Çox təvəqqi edirəm ki, Cəlilin adresini mənə məlum edəsən".

Mirzə Cəlil yaradıcılığını çox diqqətlə izləyən ədəbi-tənqidçi onun yazıçılıq istedadına heyranlığını da gizlətmirdi. O, Mirzənin 1906-cı ildə çap olunmuş "Usta Zeynal" hekayəsi haqqında dövrü mətbuatla yanaşı, "Znanie" qəzetində (23 noyabr 1906) də ayrıca məqalə nəşr etdirmişdi.

Firidun bəy Köçərli "Tərəqqi" qəzetində çap olunan "Məişətimizə dair" adlı məqaləsində mollanəsrəddinçilərin qadın azadlığı mövzusunda ki çıxışlarını alqışlayaraq jurnal da "Lağlağı" imzası ilə verilən yazılar haqqında xüsusi fikir bildirirdi.

1915-ci ilin iyununda Şuşada istirahət edən Həmidə xanım xatirələrində yazırdı: "1915-ci ilin yayında biz Şuşaya gəldik. Firidun bəy də həmin il Şuşada istirahət edirdi.

Hər gün azaərbaycanlı seminaristlərə ceza tətbiq edən Seminariya rəhbərliyinin Firidun bəyə də münasibəti isti deyildi. Hələ 1905-ci ildə Seminariyanın Azərbaycan şöbəsinin təlimatçısı F.A.Smirnovun başqa vəzifəyə keçməsi ilə əlaqədar, həmin yeri tutmaq üçün ərizə verən Firidun bəy bir neçə ilə arzusuna cata bilməsə də, inadkarcasına mübarizə apardı. Nəhayət 1910-cu ildə rəhbərlik müvəqqəti də olsa onu Azərbaycan şöbəsinin təlimatçısı təyin etdi.

Seminariya rəhbərliyi açıq-aydın **ruslaşma siyasətini** həyata keçirdiyi üçün digər millətlərin dilinə, adətənənəsinə qarşı çox kobud rəftar edirdi. Xüsusən də müsəlman seminaristlərə qarşı bu kobudluq hər an özünü büruzə verirdi. Seminarist Üzeyir bəy dəhlizdə azərbaycanca danışdığı üçün rəhbərlik tərəfindən cəzalandırılmış, bir neçə azərbaycanlı seminarist isə haqsız olaraq seminariyadan qovulmuşdur. Bütün bunlar bir daha Firidun bəyi "müsəlman şöbəsi"nin Azərbaycana köçürülməsi üçün inadkarlığa məcbur etmişdir.

Onu da qeyd edək ki, Firidun bəydən əvvəl də bu xeyirxah işi görmək üçün mübarizə aparanlar olmuşdu. 1881-ci ildən Seminariyada müəllim vəzifəsinə təyin edilən Səfərəli bəy Vəlibəyov hələ 1884-cü ildə bu barədə öz rəyini yazıb, seminariyanın pedaqoji şurasının müzakirəsinə vermişdi. Təəssüflər ki, seminariya rəhbərliyi bu məsələyə otuz il biganə qalmış və hər dəfə də rədd cavabı vermişdir. Çünki bu xoş məramın həyata keçməsinə nə rus çarlığı, nə də gürcü knyazlığı rəvac verirdi. Xoşbəxtlikdən uzun illər aparılan gərgin mübarizə Azərbaycan ziyalılarını öz yolundan döndərə bilməmişdir.

Nəhayət, Firidun bəy çox böyük çətinliklə, 1918-ci ildə Qori Seminariyasının **"Müsəlman şöbəsi"**ni Qazax şəhərinə köçürməyə nail olur. Tədqiqatçılar yazırlar ki, seminariyada yay məzuniyyəti vaxtı fürsəti fovta verməyən Firidun bəy

adlı məşhur məqaləsində də "Əkinçi"dən tutmuş 1920-ci ilə qədər olan Azərbaycan dövri mətbuatı haqqında bir tənqidçi kimi öz fikirlərini də bildirib.

İlk anadilli mətbuatımızın bünövrəsini qoyan Həsən bəyin tarixi xidmətlərini, xalqı üçün etdiyi fədakarlığı yüksək qiymətləndirən mətbuatşünas alim "birinci müsəlman qəzetəsi" adlandırdığı "Əkinçi"nin bütün saylarının toplanıb yenidən çap olunması təklifini irəli sürürdü.

Müəllif məqaləsində "Ziyayi-Qafqaziyyə" və "Kəşkül"ü, "səliqəsiz və müəyyən istiqaməti olmayan nəşr" adlandırsa da onların da Azərbaycan mətbuatının inkişafında mühüm rol oynadıqlarını söyləyir.

1903-cü ildə fəaliyyətə başlayan "Şərqi-Rus" qəzeti haqqında isə müəllif fərəhlə yazırdı: **"Bu qəzetənin meydana gəlməsi nəinki yalnız Zaqafqaziyadakı azərbaycanlıları, hətta bütün Rusiya müsəlmanlarını sevindirirdi".**

Ədəbi-tənqidçi "Həyat" qəzetini "...ona qədər nəşr edilmiş Azərbaycan qəzetələrinin **"ən mötəbəri"** adlandırıdı. "Yaxşı əməkdaşlar heyəti və Ağayev kimi təcrübəli publisistin rəhbərliyi altında nəşr olunan "İrşad" ən canlı, məzmunlu və gözəl mətbuat orqanıdır" söyləyən Firidun bəy bu qəzetin fəaliyyətinə hər kəsdən diqqət və qayğı ilə yanaşmağı tələb edirdi. "Bu qəzet ictimai həyatın inkişafını açıq gözlə izləyir" -deyərək bütün müsəlman ziyalılarını israrla "İrşad"a yardım etməyə səsləyirdi.

Mirzə Cəlillə hələ seminariya yoldaşı olan Firidun bəy onu **"savadlı və mədəni azərbaycanlı"** adlandıraraq çap etdiyi "Molla Nəsrəddin" jurnalına yüksək qiymət verirdi: "Ümumiyyətlə, "Molla Nəsrəddin" çox yaxşı təsir bağışlayır və öz çətin vəzifəsini hələlik müvəffəqiyyətlə yerinə yetirir". Heç də təsadüfi deyil ki, elə bu jurnal haqqında da ilk icmal məqaləni də Firidun bəy yazıb.

Firidun bəy digər mətbu orqanlarına nisbətən "Molla Nəsrəddin"ə və mollanəsrəddinçilərə ayrı-ayrılıqda

*Davamı səhifə 11-də*

*Əvvəli səhifə 10-da*

Firidun bəy bir gün ədəbi gecə təşkil etdi. Mirzə Cəlili də kənddən dəvət etdilər. O, gəldi. Gecə maraqlı keçdi. Mirzə Cəlil çox razı qaldı".

Bütün varlığı ilə Azərbaycan mətbuatının, ədəbiyyatının, mədəniyyətinin tərəqqisinə can atan Firidun bəy həm də

## ƏDƏBİYYATŞÜNAS ALİM İDİ

Azərbaycan ədəbiyyatı tarixinə və folklora aid ən sanballı əsərlərin müəllifi olan Firidun bəy Köçərli saysız-hesabsız məqalələri, əsərləri ilə bir ədəbiyyatşünas alim kimi Azərbaycan ədəbiyyatını zənginləşdirmiş, onun inkişafına təkan vermişdi. "Azərbaycan ədəbiyyatı tarixi materialları" (üççildlik), "Azərbaycan xalqının ədəbiyyatı", "Balalara hədiyyə", "Təlimati-Sokrat", "Mirzə Fətəli Axundzadə" və s. əsərləri bu gün də öz maraq dairəsini itirməmişdir. Müəllif bu əsərlərində Azərbaycan klassik ədəbiyyatının inkişafından və onun yaranmasında rolu olan klassiklərimizdən ətraflı bəhs edir. 1914-cü ildə qələm yoldaşı Abdulla Şaiqə yazırdı ki: "... bu yolda məqsədim pul qazanmaq deyil, xalqımıza, ədəbiyyat və mədəniyyətimizə kömək etməkdir".

*"Milli intibahımızın banisi"* olan Mirzə Fətəli Axundzadəni *"Milli ədəbiyyatımızın atası"* adlandıran Firidun bəy ondakı istedada heyran olaraq yazırdı: "Mirzə Fətəlinin təbində öylə bir zəriflik, yaratmaqlıq qüdrəti, yoxdan vücuda gətirməklik qüvvəsi var imiş ki, bunun misli az mühərrirlərdə müşahidə olunur. Bu bir Allah vergisidir ki, hər qələm əhlinə nəsib olmaz". Daha sonra isə Firidun bəy ona "tütk-Azərbaycan ediblərinin və komediyanevislərinin atası və yolgöstərəni" deyərək komediyalarını "reflektora" bənzədirdi: "Mirzə Fətəli Axundzadənin komediyaları Zaqafqaziya müsəlmanlarının 40-50-ci illərdəki həyatını əks etdirən bir reflektora bənzəyir".

"Demək olar ki, Azərbaycan türkləri arasında birinci tənqidçi mərhum Firidun bəy idi" - söyləyən Fərhad Ağazadənin tədqiqatına əsaslanaraq deyə bilərik ki, F.Köçərli Azərbaycan ədəbiyyatı tarixində nəzəriyyəçi və tənqidçi kimi də özünəməxsus bir yer tutur və ədəbiyyat tarixçisi kimi tanınan ən görkəmli simalatdan biridir. Tədqiqatçıların fikrincə Firidun bəyin təşəbbüsünə kimi demək olar ki, Azərbaycan ədəbiyyatı tədqiq edilməmişdir. İlk dəfə bu xeyirxah təşəbbüs Firudin bəydən gəlmişdir. O, ədəbiyyat tariximizə dair zəngin material toplamış və onu əks etdirən mükəmməl bir əsər ortaya qoymaqla Azərbaycan ədəbiyyatı tarixini tədqiq etmişdir.

Ədəbiyyatşünas alim əsas diqqətini M.Vaqif, Q.Zakir, M.F.Axundzadə və S.Şirvani yaradıcılığı üzərində mərkəzləşdirmişdir. Müəllifin 1903-cü ildə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı rus dilində çap olunan bu əsəri təəssüflər ki, Azərbaycan dilində onun öz salığında işıq üzü görə bilməmişdi.Yalnız 1925-26-cı illərdə Fərhad Ağazadənin təbrincə desək "Şuralı Azərbaycan"ın dövlət nəşriyyatı tərəfindən əsərin iki cildi "Azərbaycan ədəbiyyatı tarixi materialları" adı ilə çap olundu.

Əsərində Azərbaycanın 129 ədəbi şəxsiyyəti haqqında məlumat verən müəllif dahi Füzulidən, Nizamidən başlayaraq Azərbaycan ədəbiyyatının bir çox görkəmli nümayəndələrinin həyat və yaradıcılığına müraciət etmişdir. Bu xeyirxah işi Şıxəli Qurbanov belə qiymətləndirirdi: "F.Köçərli Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində böyük iş görmüşdür. Onun bu sahədə yaratdığı əsər ədəbiyyat tarixinin yaradılması yolunda atılan əhəmiyyətli addım idi".

Odur ki, cəkinmədən deyə bilərik ki, Firidun bəyin bu işi Azərbaycan filologiyasında irəliyə atılan ən doğru addım idi və "Azərbaycan ədəbiyyatşünaslığında iri və mötəbər mənbələrdən biridir".

Tədqiqatlardan belə bəlli olur ki, Firidun bəy 300-dən artıq dərsliyə düzəliş etmiş, metodik dəyişikliklər əlavə edərək onları zənginləşdirmişdi.

## "ANADANGƏLMƏ PEDAQOQ" OLAN FİRİDUN BƏY

Qori Müəllimlər Seminariyasında təhsilini başa vuran F.Köçərli müəllim kimi ilk olaraq İrəvanda fəaliyyətə başlayır. 1985-ci ildən qutardığı Qori Müəllimlər Seminariyasında dərs deyən Firidun bəy tezliklə tələbələrinin sevimlisinə çevirir və 23 il ömrünü bu Seminariyaya bağlayır.

Tələbələrinin, xüsusən də həmsoydaşlarının təlim-tərbiyəsi ilə ciddi məşğul olan Firidun bəy dərsdən sonra da saatlarla vaxtını onlara həsr edib və onların xalqına, millətinə layiq bir vətəndaş, vətənpərvər yetişməsi üçün əlindən gələni əsirgəməyib.

1913-cü ildə Xəlil adlı tələbələrindən biri yazırdı: "Siz mənə nəinki ustad idiniz, Siz mənə artıq ata idiniz. O qədər ki, məhəbbət mən Sizdən görmüşəm, bu vaxta qədər bir kimsədən görməmişdim və görmərəm də".

O, hər dəfə tələbələrinə təlimin məqsəd və vəzifələrini, tərbiyə və təhsil üsullarını, nümunəvi ədəb-ərkan qaydalarını, dünyəvi elmlərin üstünlüklərini dönə-dönə anlatmağa calışırdı. Onları milli adət və ənənələrə biganə qalmamağa səsləməklə yanaşı yeni dünyagörüşünün formalaşmasına da şərait yaradırdı. Dünya mədəniyyəti, ədəbiyyatı ilə tanış etməklə onları yeniliyə, maarifə istiqamətləndirirdi. Bu üsulla Firidun bəy onları təkcə bir pedaqoq kimi yox, həm də yeni fikirli bir maarif xadimi kimi yüksək əxlaqi dəyərləri və biliyi olan bir vətəndaş hazırlayıb. Rus və dünya klassiklərinin, pedaqoqlarının əsərlərindən tərcümələr edərək onların bilik və dünyagörüşünü daha da zənginləşdirmişdir.

Tədqiqatçıların söylədiyinə görə Firidun bəy tələbələri seminariyanı qurtardıqdan sonra da onlarla əlaqə saxlayırmış. Yenicə müəllimlik fəaliyyətinə başlayan tələbələrinin qarşılaşdığı çətinliklərlə maraqlanır, köməyini, məsləhətlərini əsirgəmirdi. Bax elə ona görə Firidun bəyi xalq arasında "anadangəlmə pedaqoq" adlandırıblar. Bu "anadangəlmə pedaqoq"un öz övladı olmasa da yüzlərlə tələbələrini mənəvi övladı kimi yetişdirib.

27 iyun 1914-cü ildə Batumdan Əli adlı tələbəsi Firidun bəyə göndərdiyi məktubu "Möhtərəm ata" sözləri ilə başlayıb "Oğlun Əli" imzası ilə bitirib.Bu məktub bir daha onun tələbələrinə olan atalığ qayğısının ən bariz nümunəsidir.

Yazıçı Seyfulla Şamilov isə əziz müəllimini belə xatırlayırdı: "Firidun bəy bir müəllim, məktəb nəzarətçisi olmaq etibarilə çinovniklik etməyi sevməzdi. Hər birimizin ehtiyaclarını dinləyib, dərdlərinə şərik olmağa vaxt tapardı. Ona görə onu ən yaxınımız bilərdik və bütün dərdlərimizi ona söylərdik, ondan məsləhət alardıq".

Mehdixan Vəkilov isə yazırdı ki: "Çox həssas və qayğıkeş müəllim olan F. Köçərli gecələr vaxt-bivaxt şagirdlərin ümumi yataq otağına gələr, üstü açıq olanların yorğanlarını sahmanlamaqdan saqınmazdı".

Firidun bəyin yaradıcılığı və şəxsi həyatı ilə yaxından tanış olarkən bəlli olur ki, o, təkcə tələbələri üçün qiymətli, sevimli olmayıb. O, həm də qələm yoldaşları, müəllim həyəti üçün qiymətli bir şəxs idi.

F.Köçərli irsinin ilk tədqiqatçısı olan Fərhad Ağazadə yazırdı ki: "Bir zaman Haşım bəy Vəzirov "Səda" qəzetində "Köhnə müsəlman-təzə müsəlman" məsələsini ortalığa atandan sonra Firidun bəy ondan məhəbbətini kəsib, məktub daha yazmadı. Bunun müqabilində Haşım bəy məktubunda Firidun bəyə belə yazır: "Özün bilirsən ki, mən dünyada heç kəsə boyun əyən deyiləm, amma sənə əyirəm. Sənə mən həmişə inanmışam və sənin sözlərin həmişə mənə təsir eləyib. Mən səni necə istəyirəm və necə istəyəcəyəm, istəyir yüz qat da bundan artıq qanısoyuqluq edəsən...".



Firidun bəy və ömür-gün yoldaşı Badisəba xanım

## AZADLIQ AŞİQİ

Bildiyimiz kimi, 20-ci yüzilliyin əvvəllərində hər bir ziyalılımızın o cümlədən Firidun bəyin də ən ümdə arzusu azad cəmiyyət, demokratik dövlət qurmaq idi. Bu arzunun çin olması üçün bir çox ziyalılar kimi F.Köçərli də 1917-ci ildə siyasi proseslərə qoşulur və "Müsavat" partiyasına daxil olur. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının üzv seçilir və "İstiqlal bəyannaməsini" imzalayır. 1919-cu ildə "Müsavat"ın Mərkəzi Komitesi səyyar bürosunun təşəbbüsü ilə Qazaxda partiya şöbəsi təşkil edilir və Firidun bəy şöbənin sədri seçilir.

1920-ci ilin aprel işğalından sonra Qazax kommunistləri F.Köçərlini və "Müsavat" ın digər üzvlərini "xalqa xəyanətdə", "milli nifaq salmaqda" ittiham edərək onun həbs edilməsinə şərait yaradırlar. Qazax İnqilab Komitəsi Gəncə Fövqəladə Komitəsinin tədqiqatına əsasən ədib həbs olunur və 20-ci diviziyanın 7-ci xüsusi bölməsi, şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılır. Qərar 7-ci xüsusi bölmənin rəisi Liberman və Fövqəlada komissar Həmid Sultanov (sapı özümüzdən olan baltalar) tərəfindən təsdiq edilərək tezliklə hökm yerinə yetirilir.

Hökmdən bir neçə gün əvvəl Firidun bəy ömür-gün yoldaşı Badisəba xanıma məktub yazaraq "Təvəqqe edirəm ki, çox darıxmayasan. İnsanın başına hər cürə qəza gələr. Müəllimlərə və şagirdlərə salam. Səbr elə"- söyləməklə ona təmkinli davranmağı tövsiyə edirdi.

## SƏDAQƏTLİ ÖMÜR-GÜN YOLDAŞI

Firidun bəylə Badisəba xanım ailə quranda aralarında tək yaş fərqi olmamışdı. Firidun bəy Şuşada adlı-sanlı bəy ailəsində böyümüş, Seminariya təhsili almış, müasir düşüncəli bir gənc idi. Badisəba isə təhsil görməmiş, Qazaxın Salahlı kəndində kasıb bir ailədə böyümüşdür. Aralarında yetərincə yaş (19 yaş Firidun bəy böyük olub) və dünyagörüşü fərqləri olmasına baxmayaraq onlar mehriban bir ailəyə sahib olmuşlar. Firidun bəy Badisəbaya mehriban ömür-gün yoldaşı olmaqla yanaşı, onun sevimli müəlimi də olub. Onu maarifləndirməklə dünyaya gözün açıb, həyata baxışların dəyişib. Tanrı onlara övlad verməsə də ömürlərinin sonuna kimi sədaqətli, sevimli, mehriban ömür-gün yoldaşı olublar.

Odur ki, həyatda ən yaxın yoldaşı, sirdaşı olan Firidun bəyin yoxluğu ilə barışa bilməyən Badisəba xanım yoldaşının bu faciəli ölümündən sonra onun arzularını davam etdirməklə özünə təsəlli tapmış oldu. 1921-ci ildən 1958-ci ilə qədər ölkədə maarifin, elmin təbliği uğrunda yorulmadan bir pedaqoq kimi calışır.

1930-cu ildə də Maarif Komissarlığının əmri ilə ölkəmizin bir çox yerlərində "yetimlər evi" fəaliyyətə başlayır. Belə "ev"lərdən biri də Şəkidə şəhərində təşkil olunur. Bu o zaman idi ki, ata-anaların "xalq düşməni" adı ilə gedər-gəlməzin qurbanı edən hökumət onları "dövlət qayğısı" ilə təmin edərək, "öz qayğısı"sını əsirgəmədən və bu "düşmən" balalarını böyüdərək onlardan sovet vətəndaşı yetişdirirdi.

Şəki şəhərindəki, 2-saylı uşaq evinə də uzun illər Badisəba xanım rəhbərlik etmişdir. Beş yaşında atasını itirən Badisəba yetimliyin nə olduğunu bildiyi üçün bu uşaqlara rəhbərlik yox analıq, atalıq, bacılıq, qardaşlıq edərək əzizi Firidun bəyin ruhunu şad etmişdir.

# Firidun bəy Köçərli müəllim kadrları hazırlığı haqqında



Fərrux Rüstəmov, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi

*XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi proseslər çar hökumətini bir sıra güzəştlərə getməyə məcbur etdi. Rusiyanı bürüyən azadlıq hərəkatı Azərbaycanda genişlənməkdə olan milli hərəkatın, o cümlədən pedaqoji hərəkatın yeni müstəvidə inkişafına güclü təkan verdi. Milli mənafe uğrunda mübarizədə eyni platformada dayanan ziyalılar dəstəsi formalaşdı.Təlimin ana dilində aparılması, milli məktəblərin yaradılması, ana dilində dərsliklərin hazırlanması, təhsilin məzmununun təkmilləşdirilməsi və milliləşdirilməsi, xalqın milli- mənəvi diriliyi problemlərinin həlli onların fəaliyyətinin ana xəttini təşkil edirdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir vaxt bu kəskinliklə irəli sürülməmişdi. Milli məktəb, milli dərslik, milli tərbiyə problemlərini həll etməyə qadir ziyalılar dəstəsində şərəfli yer tutan maarifçilərdən biri də **Firidun bəy Köçərli** idi.*

Keçən əsrin əvvəllərində Azərbaycanda demokratik pedaqoji fikrin inkişafında onun müstəsna xidmətləri vardır. O, böyüyən nəslin əqli, əxlaqi, etik, estetik, fiziki, əmək və milli tərbiyəsi, dünyəvi təhsili ilə bağlı bitkin konsepsiya müəllifidir. Dövrünün elə bir pedaqoji problemi yoxdur ki, ona münasibət bildirməsin, təqdir və ya tənqid etməsin. Böyük müəllimlər nəslini tərbiyələndirib yetişdirən "ürəyi atəşli bir müəllim"( A.Zamanov), dərsliklər müəllifi, tərbiyə nəzəriyyəçisi və təhsil təşkilatçısı, ədəbiyyat tarixçisi, tənqidçisi və tərcüməçi, görkəmli bir mühərrir kimi onun həyatı xalqa təmənnasız xidmət nümunəsidir. Böyük iftixar hissi ilə deyə bilərik ki, Firudin bəy Köçərlinin peşəsi müəllimlikdir. O, Azərbaycan ziyalılarının bütöv bir nəslinin yetişməsində müstəsna rolu olan, mütərəqqi təhsil-tərbiyə ənənələri ilə seçilən, görkəmli rus pedaqoqu K.D.Uşinskinin layihəsi əsasında fəaliyyətə başlayan (1876) Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin (1879) məzunudur. Bu şöbənin adlarını Azərbaycan təhsil tarixinə ilk xalq müəllimləri kimi yazdıran 300-ə yaxın məzunu var. Məlumdur ki, seminariyanı bitirənlər orada oxuduqları illərin sayı qədər kənddə müəllim işləməli idilər. Firidun bəy seminariyada oxuyarkən rus və Azərbaycan dillərini mükəmməl bildiyinə, təhsil uğurlarına görə müəllimlərin hörmət və ehtiramını qazanmışdı. Ona görə də o, Qafqaz Tədris Dairəsi popeçitelinin 14 iyun 1885-ci il tarixli əmri ilə İrəvan gimnaziyasına Azərbaycan dili müəllimi vəzifəsinə təyin edilmişdi. Burada o, müəllimliklə yanaşı, pansion mürəbbisinin köməkçisi vəzifəsində də çalışmışdır. Gözəl xətti olduğuna görə gimnaziyanın birinci, ikinci və üçüncü siniflərində hüsnxətt dərsləri də ona tapşırılmışdı. Onun elmi-pedaqoji və ədəbi fəaliyyətinin İrəvan dövrü çox zəngin və məhsuldar olmuşdur. O, burada işləyərkən özünəqədərki proqramlardan əsaslı şəkildə fərqlənən "İrəvan gimnaziyasında Azərbaycan dili proqramı" tərtib etmişdi. On illik səmərəli fəaliyyətdən sonra o, Qori Müəllimlər Seminariyasına dəyişdirilir, şəriət və ana dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirir. Az bir vaxtda bacarıqlı müəllim kimi şöhrət qazanır, qeyri-azərbaycanlılar üçün təmənnasız məşğələlər təyin edir, həvəslə onlara ekskursiyalar təşkil edir. 1910-cu ildə seminariyanın Azərbaycan şöbəsinə müdir təyin edilən F.B.Köçərli səkkiz ildən sonra həmin şöbəni həyatını təhlükə qarşısına qoyaraq çox böyük çətinliklə Qazaxa köçürməyə müvəffəq olur. İki il seminariyaya rəhbərlik edən F.B.Köçərli 1920-ci ildə Gəncədə erməni xəyanətinin qurbanı olmuşdur.

F.B.Köçərlinin elmi-pedaqoji irsində və maarifçilik fəaliyyətində təlimin ana dilində aparılması, təhsilin məzmununun milliləşdirilməsi, məktəbyaşlı uşaqların ibtidai təhsilə cəlb edilməsi, onlar üçün dərsliklərin yazılması, cəmiyyət üçün faydalı insanlar kimi yetişdirilməsi, əhali arasında savadsızlığın aradan qaldırılması, yeni üsullu məktəblərin yaradılması, ərəb əlifbasının çətinlikləri, təlim prosesində mütərəqqi metodların tətbiqi və xüsusilə də milli müəllim kadrlarının hazırlanması ilə bağlı fikirləri mühüm yer tutur.

F.B.Köçərli xalqı cəhalət qaranlığından işığa çıxaranları - müəllimləri millətin mənəvi inkişafının və tərəqqisinin səbəbkarı hesab edir, xalqın maariflənməsində, savadsızlığın ləğvində onlara böyük ümid edirdi. Məşhur ərəb mütəfəkkiri İbn Əl Müqəvva yazırdı ki, hava və qidadan sonra vücudumuzun ən çox tələb etdiyi üçüncü şey təhsil-tərbiyədir. F.Köçərli "Bir darülmüəllimin kifayətdirmi?" (1906) məqaləsində bu ideyanı inkişaf etdirərək yazırdı:"Cism və bədənə xörək və qida lazım olduğu kimi ruhun da qidaya ehtiyacı var. O qida elm, mərifət və ədəbdən ibarətdir. Hər ikisinin təlim və tərbiyəsi bir dərəcədə lazımdır. Hərgah məhz bir bədəni bilib ruhu qidasız və ağlı tərbiyəsiz və biliksiz qoysaq, onda insan ilə heyvanda artıq bir təfavüt olmayacaqdır. Bu qədər geridə qalmağımızın ümdə səbəbi ruh və ağlı unudub, ancaq bir cism və bədənə qulluq etməyimiz olubdur." Məhz müəllim təhsil-tərbiyə vasitəsilə böyüyən nəslin əqlinə, ruhuna elə bir təsir göstərir ki, bu təsir nəticəsində fərd inkişaf edərək şəxsiyyətə çevrilir. Deməli, müəllimin əməyi Allahın xəlq etmə qüdrətinin bilavasitə davamıdır. Elə bu səbəbdən də F.B.Köçərli yazırdı:"ruhani atalardan sonra cəhaləti-millət ilə müttəsil cəngə müsəmməm olan, elm və maarif qapılarını millət üzünə açan ikinci firqə hər millətin içində müəllimlər firqəsi olmuşdur. Müəllimlərin səyi və qeyrəti sayəsində çox qövm və tayfalar xoşbəxt olub ağ günə çıxıblar, şan və hörmət qazanıblar, dövlət və qüvvət kəsb ediblər". Azərbaycan maarifçilərinin "millətin inkişafı məktəbdən, məktəbin inkişafı müəllimdən asılıdır"- fikrini dəstəkləyən F.B.Köçərlinin fikrincə, müəllim məktəbin canı və içində olduğu camaatın çırağı məqamındadır. Müəllim öz şüğlini sevsə, öz şagirdlərini övladı kimi istəsə, onların təlim və tərbiyəsinə can yandırsa, əhalinin gözünü açmağa və xeyir yetirici biliklər ilə cəhalət pərdəsini yırtmağa sərfihümmət etsə, bilaşübhə, böyük kəramətlər göstərir bə cümlənin rəğbət və məhəbbətinə məzhər olar". F.B.Köçərli müəllimlik peşəsi üçün ən vacib keyfiyyəti körpə balalara məhəbbət və humanizm hesab edirdi. "Hər bir şey məhəbbətlə bağlıdır"- deyən F.B.Köçərli yazırdı ki, hər bir şeyə həyat verən, hər bir şeyi tər və təzə qılan, hər bir şeyi gözəl, məqbul və nurani edən məhəbbətdir! Lakin bəzi müəllimlərin qəlbində o bu ali və pakizə hissin, bu yandırıcı atəşin olmamasına çox heyfslənirdi. Bütün bunlarla belə, o, ümidsiz deyildi. Qori Müəllimlər Seminariyasının məzunları İsabəy Abakarovun, Əhmədağa Mustafayevin nümunəsində millətin balalarının təhsil-tərbiyəsinə can yandıran, ömürlərini şam tək əridən müəllimləri millət xadimləri səviyyəsinə qaldıraraq onların fəaliyyətini təqdir edirdi. İsabəy Abakarovun "dilənçilərə insan kimi yaşamağı öyrətmək üçün özü də dilənçi kimi yaşayan" məşhur isveç pedaqoqu İ.H.Pestalossi ilə müqayisə edirdi. İsabəy imkansız ailələrin övladlarına azacıq maaşı ilə yardım edir, imtahan mövsümündə onları öz xərci ilə Tiflisə, Gəncəyə, Qoriyə aparıb kimisini sənət məktəbinə, kimisini feldşer məktəbinə, kimisini seminariyaya, kimisini gimnaziyaya qoyardı. Əhməd ağa Mustafayev isə təkcə Qazax qəzasının Salahlı kəndindən Qori seminariyasında oxumaq üçün 30-dan artıq şagird hazırlamışdı. Əhməd ağa yalnız dərs deməklə kifayətlənmirdi, o həm də uzaq kəndlərdən onun məktəbində oxuyan uşaqları evində saxlayır və yedizdirirdi. Hər iki maarif fədaisinin həyatını fədakarlıq nümunəsi hesab edən F.B.Köçərli yazırdı ki, onlar tutduqları vəzifələrində o qədər də irəli getməsələr də camaatın məhəbbətini qazanıblar. Hansı kənddə müəllimlik ediblərsə orada mərifət çırağı yandırıb, əhalinin gözlərini açıb mənəvi tərəqqilərinə səbəb olublar.

F.B.Köçərli qeyd edirdi ki, müəllim uşaqla səmimi rəftarı və davranışı ilə azad həyatın və təbiətin ağuşundan ürək sıxıntılı və kədərli sinfə daxil olan uşağın bu vahiməsinin əsassız olduğuna inandırmalıdır. Şagirdlərin məktəbdən aldığı ilk təsir, müəllimlə olan birinci görüş xoş, həzin olmalı, əslində uşaq üçün bayrama çevrilməlidir. Həmin gün məktəb bayramda olduğu gimi təmiz və səliqəli olmalı, zövqlə bəzədilməli, müəllim bayram paltarı geyinməli, şagirdləri bir ata kimi şad və gülərüz qəbul etməlidir. Məktəb qorxu və vahimə, cəza yeri olmamalıdır. Cəza ilə uşağın əxlaqını saflaşdırmaq, əqli, əxlaqi və ruhi inkişafına nail olmaq çətindir. Sonra o, bir psixoloq kimi cəzanın və kobudluğun uşaqlarda yalançılığın, hiyləgərliyin, ikiüzlülüyün, qorxaqlığın, xüdpəsəndliyin, kobudluğun, qabalığın və qəzəb hissinin yaranmasına səbəb olduğunu, uşağın psixikasına, əxlaqına və mənəviyyatına ağır zərbə vurduğunu inandırıcı faktlarla sübut edir. Əxlaqında qüsuru olan uşağı müəllim cəza ilə deyil, məhəbbətlə, səmimiyyətlə, hərarətlə dəyişə bilər. Bunun üçün müəllim səbrli, təmkinli, səmimi, həssas və insanpərvər olmalı, uşağın təbiətini - yaş və fərdi xüsusiyyətlərini yaxşı bilməlidir. Onun fikrincə, müəllimin şagirdlərin ruhi inkişafına təsiri elə güclü olmalı, onların qəlbində elə dərin iz buraxmalıdır ki, həmin təsiri şagird yalnız məktəb dövründə deyil, bütün ömrü boyu hiss etsin, sonralar həyatlarının ən çətin dövrlərində məsləhət üçün yenidən müəllimlərinə müraciət etsinlər.

F.B.Köçərli "Müəllimlərimiz və onların halı", "Yarımçıqlarımız", "Müəllimlər ictimaiyyətinə dair", "A.O.Çernyayevskinin xatirəsinə", "Təlim xeyir edənlərimizin cəzası" məqalələrində müəllimlik peşəsinin xüsusiyyətlərindən, millətin mənəvi diriliyindəki rolundan bəhs edir. "Yarımçıqlarımız" adlı məqaləsində yazır ki, hamıdan ziyadə millətin qeydinə qalan, onun gözünü açan və qəlbini elm nuru ilə dolduran, əlbəttə, gərək müəllimlər olsun...müəllim yalnız müsəlman uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olmayıb, onların valideynlərinə dəxi işıq salsın... amma beləleri çox azdır. "Müəllimlərimiz və onların halı" məqaləsində kəndlərdə maarif məşəli yandıran belə müəllimlərin sayının 60-70-dən çox olmadığını yazırdı: "kəndlərdə və qəzalarda razı olub qalan müəllimlərimizin ədədi altmış-yetmişdən ziyadə deyil. Bunların ancaq bir neçəsi öz vəzifələrini kamalınca düşünüb, canı-dildən intişari-maarif yolunda çalışırlar və millətin ayılıb tərəqqi etməsinə səmimi-dildən xidmət edirlər."

Davamı səhifə 13-də



**Qazax müəllimlər seminariyasının müəllimləri və məzunları. 1924-cü il: Birinci sıra, sağdan sola: 1-ci - Səməd Vurğun, 2-ci - Mehdixan Vəkilov, 8-ci - Mirqasım Əfəndiyev. İkinci sıra, sağdan sola: Əhməd ağa Qülməmmədov, Suleyman bəy Qayıbov, Yusif Əfəndiyev, Əli Hüseynov, Alay bəy Şıxlinski, Mirzə Mehdi Vəlizadə, İbrahim Qayıbov, Mahmud Yolçuyev**

*Əvvəli səhifə 12-də*

Millətsevərliy ilə seçilən müəllimlərin əziyyətini və zəhmətini təqdir etməklə yanaşı F.B.Köçərli müəllimlərin çoxunda belə canfəşanlığın olmadığını bildirir, xalqın cəhalət, avamlıq, yoxsulluq, qorxu içində yaşamasının əsas səbəbini əksər kəndlərdə məktəb və mədrəsələrin olmaması, təhsilli insanların kənddən qaçıb uzaqlaşması ilə bağlayırdı. Qeyri millətlərin tərəqqi etdiyi halda barlı-bərəkətli, məhsuldar torpağı olan Zaqatala mahalının əhalisinin qızıl-gümüş içərisində deyil, ehtiyac içərisində yaşamasının kökünü savadsızlıqda axtarır, 400-500 nəfərlik əhalisi olan kəndlərdə belə məktəb və mədrəsələrin olmadığını bidirirdi.

F.B.Köçərli ağır və çətin olduğu qədər də müqəddəs olan müəllimlik peşəsini ataraq dolanışıq üçün daha əlverişli sahələrdə ( polis, tərcüməçi, müxtəlif dəftərxanalarda katib və s. ) işləməyə üstünlük verənləri "mənəviyyat cəhətincə öz əhdü peymanlarını şikəst etdiklərini" bidirir, onları millətə qulluq etməkdən boyun qaçırmaqda yazaraq yazırdı:"müəllimin ürəyində atəş olsa bu maneələrin çoxuna qalib gələ bilər və öz dairəsində əvvəlinci şəxs ola bilər". O, müəllimi pedaqoji işdə əsas sima hesab edərək onun qarşısına yüksək vəzifələr qoyurdu.Tələbələrindən bri Səməd Səmədov kənddə müəllimlik edərkən F.B.Köçərliyə müəllim vəzifəsi yanında kənd şəraitində işləməyin çətinliklərindən şikayətlənirdi. F.B.Köçərli cavab məktubunda onu bütün əziyyətlərə dözməyə, cəbhəni tərk etməməyə çağıraraq yazırdı:"qaranlıqda qalanlarımızın halına yanmaq və onları mərifət nuru ilə işıqlandırmaq biz müəllimlərə borcdur."

F.B.Köçərli müəllimlərin işdən uzaqlaşmasının digər bir səbəbini Piroqov (hərbi-səhra cərrahlığının atası, görkəmli maarif xadimi və pedaqoq, Odessa və Kiyev təlim dairələrinin popeçiteli -F.R.) kimi "rəhmdil və məşhur pedaqoqların" unudulmasında, Tolstoy və Delyanov kimi "pedaqogika elmindən bisəmər və insaniyyət aləmindən bixəbər" şəxslərin maarif nazirliyinə rəhbərliyində görürdü. O, "Novoye vremya" qəzetinə istinadən yazırdı:"Sabiqdəki maarif nazirlərinin ümdə fikri yaxşı müəllimlər və qabil müdərrislər yetişdirmək olmayıb. Onların fikir və xəyalı soldatlar kimi naçalniklərin, rəislərin hökmünə tabe və əmrinə müti çinovniklər hasilə gətirmək olubdur. Onlardan məşhuru qraf.Tolstoy müəllimlər yetirmək üçün cavan tələbələrə soldat kimi təlim verdirib, onların bədənlərindən müəllimlik ruhunu çıxardıb, çinovnik ruhu daxil etməyə nail oldu. Delyanov bu yolda özündən təzə bir şey ixtira edə bilmədisə də, Tolstoy qoyduğu pürməşəqqət, sərt və müəllimlik vəzifəsinə müğayir qaydaları mühafizət etməyə cani-dildən çalışdı." Qeyd edək ki, qraf.D.A.Tolstoy 1866-1880-ci illərdə, onun həmfikri İ.D.Delyanov isə 1882-1898-ci illərdə Rusiyada maarif naziri vəzifələrində çalışıblar. Qraf.D.A.Tolstoyun rəhbərliyi dövründə Rusiya təhsilində olan bütün demokratik hüquqi-normativ aktlar ləğv edildi. İ.D.Delyanovun dövrü isə tələbələrin repressiyası ilə yadda qaldı. Universitetlərin muxtariyyəti ləğv edildi.Tələbələrin sərbəstliyi, onların elmi dərnək təşkil etmələri qadağan edildi, müfəttiş vəzifəsi yaradıldı, təhsil haqqları qaldırıldı, tələbələrin üzərində nəzarət gücləndirildi. İ.D.Delyanovun dövründə müsəlmanlar şəhər məktəblərində müəllim olmaq hüququndan məhrum edildilər. Ona görə də institut təhsili almaq istəyən azərbaycanlıların sayı azaldı. F.Köçərli bu məsələ ilə bağlı yazırdı:"1888-ci ildə qızıl medal ilə institut kursunu tamam edən cavanlarımızdan cənab Hacı Rəhimbəy Qyıbova şəhərdə yer verilməyib, İrəvan uyezdində Uluxanlı qəryəsinə müəllim təyin olundu.O da bir-iki sənə kənd müəllimliyi edib, özü üçün bir tərəqqi yolu görməyib, Okrujnoy sud məhkəməsinə qulluğa girdi".

O dövrdə Rusiyada və həm də təbii ki, milli ucqarlarda müəllimlərə göstərilən həqarət və ədalətsizlik o həddə çatmışdı ki, hətta mühafizəkarlığı ilə seçilən "Novoye vremya" qəzeti də müəllimlərin acınacaqlı vəziyyətlərindən yazır, "qabil və mahir" müəllimlərin olmamasının səbəbini onların zəhmətlərinin böyük, məvaciblərinin isə həddən artıq az olmasında görürdü. F.B.Köçərli qəzetin bu mövqeyini təqdir etməklə yanaşı, kamil müəllim yetirən institut və darülmüəllimlərin yoxluğundan şikayətlənərək yazırdı:"Onlarda (institut və darülmüəllimlərdə - F.R.) pedaqogika elminə dair və təlimat işlərinə nənsub məlumat verilməyib. Gimnaziya müəllimlərindən çoxlarını tanıyıram ki, pedaqogika fənni və elminin babası sayılan Amos Komenskinin və Pestalotsinin adlarını da eşitməmiş olsunlar." Böyük maarifçi belə qənatə gəlirdi ki, əgər müəllimlərin dərdinə çarə edilərsə, əmək haqqı artırılarsa, cavanlarımız müəllimlikdən qaçmaz, digər sahələrdə çalışanlarımız da müəllimliyə keçməyə "meyl və rəğbət göstərər," camaatın nəzərində müəllimlərin "şan və hörməti artar".

Azərbaycan Rusiya tərəfindən işğalından sonra XIX əsrin 70-ci illərinə kimi müsəlmanlardan müəllim kadrları hazırlayan xüsusi təhsil müəssisəsi olmadığından uzun müddət uşaqların təlim-tərbiyəsi əsasən "üsuli-təlimdən bixəbər və ədəbi-tərbiyədən binəsib olan məktəbdarların əlində idi". Ona görə də maarifçilər bildirirdilər ki, orta əsrlərdə Azərbaycanda elmin, təhsilin, maarifin inkişafında böyük tarixi rol oynayan köhnə məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi, hərəkət və fəaliyyət orqanı ola bilməz. F.B. Köçərli yalnız sxolastik məscid məktəblərini və orta əsr mədrəsələrini deyil, çar hökuməti tərəfindən azərbaycanlılar üçün açılan məktəblərin nöqsanlarını da tənqid edirdi:"Azərbaycanlıların maariflənməsi üçün görülən bütün tədbirlər formal olub, canlı işdə çinovnik münasibətindən başqa bir şey deyildir." F.B.Köçərli də milli ziyalılar kimi, yeni məktəbləri maarifçiliyi milli şüur təliminin müqəddəs idealı hesab edir, Bakıda S.M.Qənizadə və H.Mahmudbəyovun açdığı yeni məktəbi rus-müsəlman məktəblərinin anası adlandıraraq onların fəaliyyətini yüksək dəyərləndirirdi.

F.B.Köçərli müəllimlərə qarşı olan hücum və təqiblərə qarşı cəsarətlə mübarizə aparırdı.1906-cı ildə "İrşad" qəzetində çap etdirdiyi "Təlim xeyir edənlərimizin cəzası" məqaləsində Haşımbəy Nərimanbəyovu avam və cahil insanların təqibindən qorumaq məqsədilə yazırdı:" Cəhalət meydanında ömrünün axırınadək kəmali-şövq ilə cəng edən mübarizlərə bənzər bu qisim müəllimlərimiz azır." F.B.Köçərli göstərirdi ki, xalqın maariflənməsi naminə bütün məhrumiyyətlərə dözən, maarif cəbhəsini tərk etməyən belə müəllimlər hər yolla qorunmalıdır. Yaxşı müəllimdən danışarkən o, ilk növbədə müəllimi A.O.Çernyayevskinin adını çəkir, onun əsil xalq müəllimi kimi nəcib insani keyfiyyətlərindən, peşəkarlığından, şagirdlər arasında qazandığı nüfuzdan, uşaq qəlbinə yol tapmaq, şəxsi nümunəsi ilə təsir göstərmək bacarığından danışır, onun adını əbədiləşdirmək üçün ibtidai məktəb təsis etməyi vacib hesab edirdi. Deməli, F.B.Köçərli belə qənaətə gəlirdi ki, xeyirxah xalq müəllimi hansı millətə mənsub olursa-olsun yaddan çıxmamalı, xatirəsi əbədiləşdirilməlidir.

# Alimlərin alimi



Flora XƏLİLZADƏ
əməkdar jurnalist

**Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri Firidun bəy Köçərli akademik Həmid Araslının təbirincə, ömrünün mühüm hissəsini xalqının maarifinə, ədəbi irsinin öyrənilməsinə sərf edən fədakar ictimai xadimdir.**

Ötən əsrin əvvəllərində realist bədii nəsrdə, dramaturgiyada, satirik publisistikada Cəlil Məmmədquluzadə, yeni şeir aləmində Mirzə Ələkbər Sabir, milli musiqinin inkişafında Üzeyir Hacıbəyli hansı zirvədə dayanırsa, gördüyü mühüm işlər sahəsində ədəbiyyatşünaslıq elmində də Firidun bəy Köçərli həmin ucalıqda qərar tutub. 57 baharlı ömrünün 40 ilini millətinin maariflənməsinə, mədəni tərəqqisinə həsr edən Firidun bəy Köçərli estetik fikir tarixində də şərəfli yerlərdən birinin sahibidir. Çoxcəhətli yaradıcılığa malik olan Firidun bəy Köçərli ədəbiyyat tarixçisi, nəzəriyyəçisi, tənqidçisi, tərcüməçi, mətbuat və teatr qurucusu, pedaqoq, maarifçi, ən başlıcası da böyük vətəndaş və milli duyğu-pedaqoq, həm də bir mədəniyyət xadimi kimi fəaliyyət göstərən Firidun bəy Köçərli yerli ziyalılardan Mirzə Məhəmməd Qəmərli ilə birlikdə ədəbi gecələr təşkil edir, poeziyaya, ədəbiyyata marağı olan gəncləri bir araya gətirərək onların formalaşmasında böyük zəhmət çəkir. Hələ İrəvan gimnaziyasında müəllim işlədiyi illərdə tərcüməçiliklə məşğul olan Firidun bəy Köçərli rus ədəbiyyatının tanınmış nümayəndələrindən Puşkinin, Lermantovun, Koltsovun və başqalarının əsərlərini ana dilimizə çevirməyə başlamışdı. Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povestini də rus dilinə ilk dəfə Firidun bəy Köçərli çevirmişdir. Bu da faktdır ki, Azərbaycan və rus ədəbiyyatlarının əlaqələri haqqında ilk qeydləri Firidun bəy Köçərli etmişdir. Firidun bəy Köçərli eyni zamanda rus dilində yazdığı əsərləri ilə Azərbaycan klassiklərini rus və digər xalqlara tanıtmaqda faydalı iş görmüşdür.

İrəvanı tərk etdikdən sonra yenidən Qoriyə qayıdan Firidun bəy Köçərli 1895-ci ildən 1918-ci ilə qədər məzunu olduğu seminariyada dərs deyib. Hətta onu 1910-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı lərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər". Beləliklə, zülmətdə doğulub ətrafa nur saçan, millətinin maariflənməsi yolunda can qoyan, xalqlar arasında ayrı-seçkiliyə heç zaman yol verməyən humanist bir ürəyə malik olan milli duyğularla, bəşəri arzularla yaşayan, dövrünün ən böyük ziyalısı erməni fitnə-fəsadının qasırğasına düşüb. Erməni Sarkis Danilyanın hökmünə əsasən türkün böyük oğlu Firidun bəy Köçərliyə güllələnmə cəzası təyin edilir. Ən acısı da odur ki, bu hökmü təsdiq edən imzanın altında:"Fövqəladə komissar H.Sultanov" yazılıb. Erməni dəyirmanına su tökənlərin sonrakı aqibəti də elə belə qərəzli hökmlərə tuş gəlib. Firidun bəy Köçərlinin həbs edilməsi haqqında xəbər o zaman Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova çatdırılıb. O bu xəbəri eşidəndə bərk sarsılaraq Firidun bəyin azad olunması barədə Gəncəyə teleqram göndərib. Təəssüf ki, hər şey gec idi. Ermənilər gözəl bilirdilər ki, Firidun bəyin güllələnməsini ləngitmək onun xeyrinə ola bilər. Canilərin göstərişi ilə arxadan atılan güllə Firidun bəyin həyatına son qoyub. Uzun illər bu məsələni gizli saxladılar.

baycan dilində yazıb-yaradan sənətkarları demək olar ki, unudublar.

Akademik Feyzulla Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatında ilk mənbələr içərisində ən mühüm yeri Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərinin tutduğunu qeyd edib. Unudulmaz Kamal Talıbzadə də Firidun bəy Köçərli yaradıcılığını araşdıraraq onun bu əsərini "Azərbaycan türklərinin ədəbiyyatı" adlandırıb. Firidun bəy Köçərli haqqında ilk monoqrafik əsəri mərhum akademik Bəkir Nəbiyev yazıb. Doğrudur, Bəkir Nəbiyevə qədər Ş.Qurbanov, F.Qasımzadə, A.Zamanov, C.Xəndan və başqa tədqiqatçılar müəyyən araşdırmalar aparıb kitabça və məqalələr qələmə alıblar. Bəkir Nəbiyev həmkarlarından fərqli olaraq Firidun bəy Köçərlinin daha dolğun və ətraflı şəkildə tədqiqinə nail olub. Firidun bəy Köçərli ilə aparılan araşdırmalarda yol verilən nöqsan və yanlışlıqları üzə çıxaran Bəkir Nəbiyev Firidun bəy Köçərlinin işıqlı obrazını olduğu kimi qələmə alıb. Bəzi tədqiqatçılara görə, Üzeyir Hacıbəylinin seminariyaya rus maarifçisi A.Çernyayevskinin apardığı deyilirdi. Məhz B.Nəbiyev bu monoqrafi-

lara sahib bir fədai kimi adını tarixə pozulmaz hərflərlə həkk etdirib.

Firidun bəy Əhməd bəy oğlu Köçərli 1863-cü il yanvarın 26-da Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini Mirzə Kərim Münşizadənin məktəbində alıb. Atası Əhməd bəyin elmə, maarifə, böyük marağı və həvəsi olub. Bu səbəbdən də oğlunu dövrünün ən yaxşı məktəblərində oxutmaq istəyində idi. Atasının arzularına rəğmən Firidun bəy Köçərli doğma şəhərdə fəaliyyət göstərən rus məktəbinə daxil olub. O dövrdə məşhur rus pedaqoqu A.Çernyayevski Qafqazı dolaşaraq Qori Müəllimlər Seminariyası üçün ümidverən gənclər toplayırdı. Firidun bəy Köçərli onun diqqətini çəkib. Beləliklə, Firidun bəy Köçərli öz taleyini seminariyaya bağlayıb. 1879-1885-ci illər ərzində o, burada təhsil alıb. Seminariyanı bitirən ili bir müddət İrəvan gimnaziyasında dərs deyib. Onu İrəvanda təkcə pedaqoq kimi tanımırdılar. Qori Müəllimlər Seminariyasının məzunu Firidun bəy Köçərli 23 yaşında ikən İrəvanda teatr tamaşası təşkil edir. Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilir. On ilə yaxın bir müddət ərzində İrəvanda həm təyin ediblər. Burada çalışdığı illərdə həmvətənlərinin seminariyada təhsil almasına yardımçı olan Firidun bəy Köçərli uzun sürən səylərindən sonra onun təşəbbüsü ilə Qazaxda Müəllimlər Seminariyası açıldı. 1918-ci ildən ömrünün sonuna kimi bu seminariyanın müdiri vəzifəsində çalışan Firidun bəy Köçərli Gəncədə baş verən üsyan zamanı 20-ci diviziyanın hökmü əsasında həbs edilib. Erməni dığası Sarkis Danilyanın diktəsi ilə Firidun bəy Köçərli haqqında verilən saxta hökmdə yazılıb: "4 iyun 1920-ci il. Gəncə: "Mən 20-ci diviziyanın xüsusi şöbəsinin hərbi müstəntiqi, bu gün Firidun bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərmişdir. Köçərlinski Qazaxda... milletçilik ehtiraslarını qızışdırmışdır, nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç də inandırıcı deyildir... Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini rədd etmək lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndli-

Sadəcə, bir təsadüf nəticəsində güllələndiyi bildirildi.

Azərbaycan ədəbiyyatı tarixini sistemli bir halda öyrənmək, yaratmaq ideyası məhz Firidun bəy Köçərli tərəfindən həyata keçirilmişdir. Doğrudur, Mirzə Fətəli Axundzadə maarifçilik ənənələrinin fəal təbliğatçısı və yorulmaz təşkilatçısı olmuşdur. Amma çoxəsrlik Azərbaycan ədəbi irsini toplayıb, elmi prinsip və ardıcıllıqla öyrənərək öz tədqiqatının nəticələrini "Azərbaycan ədəbiyyatı" əsərində qələmə alması Firidun bəy Köçərlinin bu sahədə ən böyük xidməti sayılır. Bu əsəri yazmaqla Firidun bəy müasir Azərbaycan ədəbiyyat tarixçiliyi elminin əsasını qoymuş və beləliklə də, gələcək tədqiqatçılar üçün geniş bir yol açmışdır.

Hələ 1919-cu ildə Əliqulu Qəmküsar "Gələcək" qəzetində yazırdı: "Firidun bəy ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi, şairlərimizin ülvi ruhlarını canlandırdı və həyatifikriyyəmizi təbii yoluna saldı. Heyif ki, Firidun bəy həzrətlərinin çox az əsərləri oxuculara mal oldu".

Firidun bəy Köçərliyə qədər Azərbaycan ədəbiyyatşünaslığı ancaq təzkirə, cüng və müntəğebaatdan ibarət olub. Əsrlər boyu da təzkirə müəllifləri Azər-yada faktların köməyi ilə açıqlayıb ki, Üzeyir Hacıbəylini Qori Müəllimlər Seminariyasına məhz Firidun bəy Köçərli dəvət edib. Onlarla qarabağlının o dövrdə seminariyada təhsil alması məhz bu şuşalı balasının xidmətidir. Bir də Üzeyir Hacıbəyli seminariyaya oxumağa gedəndə A.Çernyayevski beş il idi ki, vəfat etmişdi.

Akademik Bəkir Nəbiyev "Mənalı ömürdən səhifələr" adlı dəyərli tədqiqatında yazırdı: "Abasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri tarixşünaslıqda olduğu kimi Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" da ədəbiyyatşünaslığımızda ilk və mötəbər mənbələrdən biridir". Firidun bəy Köçərlinin adı çəkilən əsərini transliterasiya və tərtib edən, müqəddimə, izah və qeydlər yazan Ruqiyyə Qənbər qızı həmin əsər barədə yazırdı: "Azərbaycan ədəbiyyatı tarixi" Köçərlinin mötəbər məxəz kimi istər bütövlükdə, istərsə də ayrı-ayrı əsərlər üzrə yazılmış Azərbaycan ədəbiyyatı tarixi kitabları üçün bünövrə məqamında olmuşdur. Ədəbi irsimizin tədqiqi, tənqidi, pedaqoji və estetik fikrimizin tarixi ilə məşğul olan tədqiqatçıların demək olar, hamısı ondan istifadə etmiş və müəyyən dərəcədə də bəhrələnmişdir".

*Davamı səhifə 15-də*



Qoru seminariyasının məzunları

*Əvvəli səhifə 14-də*

Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə olaraq ədib və şairlərimizin böyük əksəriyyətini əhatə edən ədəbiyyat tarixini yazmışdır. Bu əsərdə yüzdən artıq ədəbi irsi və onlardan böyük bir qisminin bioqrafiyası verilmiş, yaradıcılıqları haqqında müəllif fikri söylənilmişdir. Xalq yazıçısı Elçin yazır: "F.Köçərlinin əsəri öz tarixi rolunu çox gözəl oynamışdır. Azərbaycan sovet ədəbiyyatı tarixçiliyinin təşəkkül və inkişafına çox səmərəli kömək göstərərək yalnız fakt, material, ayrı-ayrı tarixi təfərrüatlar baxımından yox, həm də müəyyən mənada ədəbiyyatşünaslıq fikri, tədqiqat təfəkkürü baxımından sanballı və nüfuzlu bir elmi mənbə olmuşdur".

Əgər XIX əsr Şuşa ədəbi mühitini, ədəbiyyatını, musiqi aləmini dərindən bilmək istəyiriksə, üç şəxsiyyətin əsərlərini oxumaq kifayət edər: Mir Möhsün Nəvvab, Firidun bəy Köçərli və Firidun Şuşinski. Öz xatirələrində həmişə bu şəhərlə əlaqədar ürək sözlərini qələmə alan Firidun bəy Köçərli 1863-cü ildə dünyaya gəldiyi doğma yurdu haqqında yazırdı: " Şuşa qalası Zaqafqaziyanın gözəl və başəfa şəhərlərindən birisi hesab olunurdu. Və axır vaxtlarda artıq sifəti ilə abad olmağa iz qoymuşdu. İçində çox gözəl imarətlər yapılmışdı. Yay fəslində 60-70 minə qədər nüfuz bu şəhərə cəm olunurdu, çünki Şuşanın ab-havası xeyli saf və salamat olmağa görə yaylaq mənzələsindəndir".

Şifahi xalq ədəbiyyatının toplanması və nəşri elmi-nəzəri ümumiləşdirilməsi Firidun bəyin diqqətindən yayınmırdı. Elə bunun nəticə və səmərəsidir ki, onun hazırladığı "Balalara hədiyyə" folklor toplusu kiçik oxucuların bədii zövqünə uyğun gəlirdi. Firidun bəy Köçərli folklor nümunələrini sadəcə toplayıb çap etməklə öz işini bitmiş hesab etmirdi. Filologiya elmləri doktoru, görkəmli Azərbaycan yazıçısı Mir Cəlal yazırdı: "Zəngin və əlvan xalq ədəbiyyatı inciləri barədə müəyyən elmi-nəzəri mülahizələr yürüdən Firidun bəy Köçərlinin topladığı bayatı, nağıl, tapmaca, atalar sözü və məsəllər, sayaçı sözləri ən zəngin xəzinədir. Firidun bəy Köçərli çox gözəl bilirdi ki, uşaqların və gənc nəslin tərbiyəsində folklorun müstəsna rolu var". Bu səbəbdən də Firidun bəy Köçərli şifahi ədəbiyyat nümunələrini göz-bəbəyi kimi qoruyub saxlayan, nəsildən-nəslə, zamandan-zamana ötürən öz xalqını qonşu xalqlara nümunə göstərərək yazırdı: "Mənim millətim öz tarixini, dolanacağını, vətənini və dilini sevir, bu qism əsərləri kəmali-zövq və diqqətlə cəm edib qiymətli sərmayə kimi saxlayıb və balalarının ilk təlim və tərbiyəsini onları öyrənməklə başlayır".

Firidun bəy Köçərli klassik Azərbaycan ədəbiyyatı haqqında geniş məlumata, dərin elmi-nəzəri biliyə, incə zövqə malik olduğu üçün hər bir qələm sahibinin yaradıcılığını özünəməxsus şəkildə təhlil etmək qüdrətində olub. Füzuli, Vaqif, Zakir, Seyid Əzim Şirvani kimi şairlər haqqında çox dəyərli oçerklərin müəllifidir. Eləcə də Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Y.V.Çəmənzəminli, M.Ə.Sabir barəsində ədəbi-tənqidi, realist fikirlərini əks etdirən maraqlı əsərləri var.

Firidun bəy Köçərli ana dilinin aşiqi idi. Onun 1913-cü ildə qələmə aldığı "Ana dili" məqaləsi o dövr üçün çox böyük əhəmiyyət kəsb etdi. Bir sıra qələm sahibləri müxtəlif dərgilərdə qəliz bir dildə yazılmış məqalələr dərc etdirərək Azərbaycan dilini korlayırdılar. Həmin vaxt mollanəsrəddinçilər, xüsusilə də, Mirzə Cəlil, Əli Nəzmi belə mətbuata qarşı amansız mübarizə aparırdılar. Firidun bəy Köçərli də bu ideya yolunda onlarla birləşirdi. Firidun bəy Köçərli dilimizin şirinliyini korlayanlara qarşı amansız idi. Qələm dostlarına tövsiyə edirdi: "Sadə, anlaşıqlı yazın. Dildə əllaməlik etmək yaramaz! Bu oxucu ilə yazıçı arasında keçilməz səd yaradır. O dövrdə Firidun bəy Köçərlinin "Ana dili məqaləsi "Molla Nəsrədin" jurnalında çap olunmuşdu. Unudulmaz maarifçi bu jurnalın dildə millilik və sadəlik siyasətini müdafiə edirdi. Maraqlıdır ki, Firidun bəyin ana dili barəsindəki fikirləri yüz ildən sonra - bu gün də böyük əhəmiyyətə malikdir: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi ana dilini də sevir".

Görkəmli ədəbiyyatşünas alim, tənqidçi və maarif xadimi Firidun bəy Köçərlinin elmi fəaliyyəti Azərbaycan tarixinin qiymətli səhifələrindəndir. Unudulmaz millət aşiqinin "Azərbaycan ədəbiyyatı" əsəri isə ədəbiyyatşünaslığımızın inkişafında böyük rol oynayan və bu gün də təravətini itirməyən əsərlərindən biridir.

Əlbəttə, Firidun bəy Köçərli təkcə Azərbaycan ədəbiyyatının tədqiqi ilə kifayətlənməyib. Yaradıcılığında Şərq, Qərb, Avropa, rus, eləcə də qonşu xalqların ədəbiyyatları haqqında elmi mülahizələr yürütmüş, ədəbi əlaqələr baxımından qiymətli fikirlər irəli sürmüşdür.

...O, Azərbaycanın çox dilbər bir guşəsində - Şuşa şəhərində doğulmuşdu. Zülmətdə parlayan bir ulduz kimi ətrafa nur saçırdı. Maarif fədaisi kimi sorağı İrəvandan, Qazaxdan, Gəncədən eşidilirdi. Firidun bəy Köçərli millətinin aşiqi idi. O, gənc nəslin təhsil almasında, maariflənməsində, mədəni inkişafında bir məşəl kimi alovlanırdı. Onun bu nəcibliyi dostları sevindirsə də, öz millətinin taleyinə aydınlıq gətirsə də, gəncliyin yoluna işıq salsa da, düşmənləri xar edirdi. Xüsusilə də, ermənilər bu dağlar oğlunun faydalı işlərini, aydın məramını, xeyirxah əməllərini görmək istəmirdilər. Onlar Azərbaycanın Firidun bəy Köçərli adlı ziyasını qapatmaq üçün fürsəti fövtə vermirdilər. Nəticədə 57 yaşlı bir türk ziyalısının ömür çırağını söndürsələr də, onun arzuları, əməlləri əbədi nur saçır. Bu nurun işığında əsryarımdır ki, neçə-neçə Firidun bəy Köçərlilər yol gəlir...

Akademik Teymur Bünyadov yazır " Alimlərin alimi sayılan Firidun bəy Köçərliyə Şəki, Şirvan, Lənkəran, Muğan, Qarabağ, Naxçıvan, Zəngibasar, Borçalı çökəyi, cəmi Azərbaycan, bütün türk dünyası borcludur."Bu sözlərdə böyük həqiqət var. Çünki neçə-neçə institutun görə biləcəyi işi Qori Müəllimlər Seminariyası çox layiqətlə yerinə yetirdi. O dövrdə azərbaycanlı gənclərin bu məşhur təhsil ocağında oxumasının, maariflənməsinin əsas səbəbkarı və himayədarı məhz Firidun bəy Köçərli idi.

# Firidun bəy Köçərlinin etnoqrafik araşdırmaları



Pərixanım Mikayıl qızı,
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi SənədlərArxivinin aparıcı məsləhətçi-şöbə müdiri

**Azərbaycan xalqının ədəbiyyat tarixi bütün xalqlarda olduğu kimi, şifahi xalq ədəbiyyatından başlanır. Məlumdur ki, şifahi ədəbiyyat xalq hikmətindən və xalq yaradıcılığından yaranmışdır. Xalq ədəbiyyatının müxtəlif sahələri vardır ki, onlardan biri də folklor janrıdır. Folklor janrı qədər xalq içərisində yayılmış ikinci bir ədəbi janr demək olar ki, yoxdur.**

Azərbaycan ədəbiyyatında folklor janrı ilə məşğul olan alimlərdən biri də görkəmli ədəbiyyatşünas və tənqidçi Firidun bəy Köçərli olmuşdur. Bir çox mənbələrdə F.Köçərlini Azərbaycan ədəbiyyatının ilk folklorşünası da adlandırırlar. M.F.Axundov yaradıcılığından bəhrələnən F.Köçərli yaradıcılığının bir hissəsini məhz folklorşünaslığa həsr etmişdir.

Akademik Bəkir Nəbiyevin F. b. Köçərlinin həyat və yaradıcılığına həsr etdiyi monoqrafiyasında onun həyatı, yaradıcılığı və əmək fəaliyyəti haqqında çox geniş və ətraflı məlumat verilmişdir. Bu kitabda F. b. Köçərlinin "Materiallar" adlı kitabından sitatlar gətirilmiş və Köçərlinin folklorla bağlı yaradıcılığından bəhs edilmişdir. Onun Azərbaycan folklorşünaslığındakı mövqeyindənbəhs edən görkəmli akademik B. Nəbiyev, F. b. Köçərlinin irsini yüksək dəyərləndirmişdir.

Folklor mənşəyi və tarixi etibarı ilə bütün janrlardan daha qədim janr hesab olunur. Folklor geniş xalq kütlələrinin şifahi yaradıcılığının məhsuludur. Məlumdur ki, folklor hələ yazının olmadığı zamanlarda, ibtidai cəmiyyət dövründə kollektiv əməyin məhsulu olaraq, əməkçi xalqın öz istək və arzularının özü yaratdığı sənət nümunəsi kimi meydana çıxmışdır. Buna görə də "folklor" sözü geniş məna kəsb edərək, şifahi xalq yaradıcılığının bütün sahələrini əhatə edir. Azərbaycan ədəbiyyatı ilə yaxından məşğul olan F. b. Köçərli, folkloru dərin məhəbbətlə sevmiş və hətta qeyri millətlərin də folklorunu öyrənməyi lazım bilmişdir.

Şifahi ədəbiyyatını "söz sənətinin mənbəyi" adlandıranlar heç də yanılmayıblar. Folklor hər bir xalqın öz keçmişinin öyrənilməsinin açarıdır. Folklorun nümunələrini gözdən keçirdikdə çox qədimdən gələn 4-5 misralıq bayatılardan, atalar sözlərindən, sayaçı sözlərdən, nəğmələrdən, nağıllardan və. s. nisgili, ah-naləni, sevinci, fərəhi, qəhrəmanlıq haqqında olan fikirləri, hicranı, vüsalı öyrənmək və hər xalqın kimliyini bilmək olur. Zaman-zaman Azərbaycan folklorunun öyrənilməsində yorulmadan zəhmət çəkən F.b.Köçərli və onun timsalında maarifpərvər və vətənpərvər alimlərimizin əməyi təqdirəlayiqdir.

O təkcə Azərbaycanın tanınmış ədiblərinin deyil, Şərqin və Qərbin ədəbi tənqidi və nəzəri-estetik fikrinin inkişafında mühüm xidmətləri olan şəxsiyyətlərinin də haqqında məlumatlı idi. Firidun bəy xalqı, xüsusilə də ziyalıları folklorumuzun nümunələrini toplayıb geniş xalq kütlələrinə çatdırmağa çağırırdı. Köçərlinin qənaətincə folklor düzgün toplanılıb dünya miqyasında sınaqdan çıxmış məlum elmi prinsiplərlə yazıya alınmadıqda, onun barəsində konkret fikir formalaşa bilmir. Ona görə də Azərbaycan folklorşünaslığının təşəkkül prosesi iki istiqamətdə: folklorun toplanması, nəşri və tədqiqi ilə bağlı idi

F.b.Köçərlinin 1903-cü ildə Tiflisdə rus dilində çap olunmuş "Azərbaycan ədəbiyyatı" kitabı bu cəhətdən xüsusilə səciyyəvi xarakter daşıyır. Çünki bu kitab Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında ilk təşəbbüs, atılan ilk addım idi.

Şifahi xalq ədəbiyyatı tarixinin öyrənilməsində ədəbi janrları içərisində folklorun əhəmiyyətinin daha çox olduğu burada öz əksini tapmışdır. Qori müəllimlər seminariyasında təhsil alarkən Köçərlinin müəllimi olmuş A. O. Çernyayevski balacalar üçün yazdığı "Vətən dili" kitabına xeyli sayda Azərbaycan folklor nümunələrindən daxil etmişdir. Məlumdur ki, uşaq ədəbiyyatının yaranmasında folkorun misilsiz rolu olmuşdur. F. b. Köçərli folklor janrı ilə məşğul olarkən, uşaq folkloruna xüsusi tələbkarlıqla yanaşırdı. Həmişə Azərbaycanın yazarlarına dil üslubunun qəlizliyini irad tutan ədib, bunun uşaqlar üçün yazılmış nağıllarda, hekayələrdə olmasının ümumiyyətlə mümkünsüzlüyünü söyləyirdi. Bu səbəbdən uşaqlar üçün yazılmış folklor nümunələrinin sadə, anlaşılan olması ədibi ən çox narahat edən məsələlərdən idi. Firidun bəy Köçərlinin toplanmış olduğu folklor nümunələri içərisində uşaq folklor nümunələrinə daha çox rast gəlmək olur. Bu nümunələrin günümüzə yetişməyində F.b.Köçərli və o dövrün tanınmış ziyalılarından Teymurbəy Bayraməlibəyov, Sultan Məcid Qəniyev, M. Mahmudbəyov, Mir Haşım Vəzirov, İsmayıl Əfəndiyev kimi maarifçilərlərin də böyük əməyi olmuşdur. Onlar da folklorun araşdırılmasında xeyli əmək sərf etmişlər. Uşaq folklorundən danışılarkən, Köçərlinin təkcə 1912-ci ildə çap etdirdiyi "Balalara hədiyyə" adlı kitabını qeyd etmək kifayətdir. Bu kiçik həcmli kitab ədibin yaradıcılığında ən təqdirəlayiq əsərlərdən hesab edilir.



Tədqiqatçı-alim F. b. Köçərli folklor materialı seçərkən həm onların ideya məzmununa, həm də bədii dəyərinə ciddi fikir verirdi. Bütün bunlardan əlavə Firidun bəyin fikrincə, folklorşünas gərəkdir ki, həm də dilçi olsun, xalqın dilini mükəmməl bilsin. Köçərli əsrlər boyu xalqın yaratmış olduğu şifahi xalq ədəbiyyatı nümunələrini təhlil etmək üçün ilk növbədə xalqının dilinin tarixini mükəmməl öyrənməyə çalışırdı. Xalqın dili dedikdə F.b.Köçərli folklor janrının bütün nümunələrini kökümüzün, tariximizin, qədim adət-ənənələrimizin özəyi hesab etdiyini, folklorun xalqın ruhuna daha yaxın olduğunu nəzərdə tuturdu. Bu cəhətə görə Köçərli ədəbiyyatçılar içərisində öz dəstixəttinə görə seçilmiş ədəbiyyatşünas hesab edilirdi. Köçərli folklorşünaslıqla paralel pedaqoji əmək fəaliyyəti ilə də məşğul idi. Bu qədər enerji, bu qədər qüvvə sərf edən ədib yorulmadan gördüyü işindən zövq alırdı. Köçərli gözəl anlayırdı ki, şifahi söz sənəti xalqın mənəvi qüdrətini, ictimai-siyasi, tarixi hadisələrə münasibətinin dolğun və bədii biçimdə əks etdirən zəngin irsdir. "Xalq", "el", "şifahi ədəbiyyat" janrı adlandırılan bu janr xalqın etnogenezini öyrənmək baxımından çox maraqlıdır. Folklorun dini-əxlaqi görüşlərdə də böyük rolu olmuşdur.

Firidun bəy Köçərli bir pedaqoq kimi zəngin tarixi irsə malik olan Azərbaycan folklor nümunələrini toplamaqla həm Azərbaycan ədəbiyyatının klassiklərini bizə tanıtdırmış, həm də dərs dediyi şagird və tələbələrdə qədim irsimizə maraq oyandırmışdır. Bu bəlkə də Köçərlinin yaşadığı dövrün çətinliklərindən irəli gələn ehtiyac, tələb, arzu idi. Çünki o dövrün maarifpərvər ziyalıları H. Zərdabi, S. Ə. Şirvani, S. S. Axundov, A. Şaiq, M. Ə. Sabir, A. Səhhət, R. Əfəndiyev və F. Köçərli kimi görkəmli şəxsiyyətlərin ədəbi-pedaqoji fəaliyyətinə diqqət etsək görərik ki, bunların hamısının tərbiyə xarakteri daşıyan əsər və məqalələrinin əsasında məhz xalqdan seçilib götürülən folklor materiallarından nümunələr yer almışdır. Bu şəxslərin hər biri Azərbaycanın keçmişinə, dilinə, təhsilinə, tərəqqisinə var qüvvələrini sərf edən insanlar olmuşlar.

Firidun bəy rus klassiklərindən Puşkinin "Torçu və balıq nağılı" Lermantovun "Üç xurma ağacı", Koltsovun isə "A kişi niyə yarməsan?" şeirlərini Azərbaycan dilinə tərcümə edərək uşaqların ixtiyarına vermişdir. Uşaq bədii nəsr əsərlərinin demək olar ki, yox dərəcəsində olmasından təkcə ibtidai məktəbləri deyil, Zaqafqaziya (Qori) müəllimlər seminariyasının Azərbaycan şöbəsi də korluq çəkirdi. Bir sıra şairlər bu tələbatı nəzərə alaraq, uşaqlar üçün bədii əsərlər yazmağa başlayırlar. Bu bədii əsərlərə təmsillər, mənzum hekayələr və şeirlər daxil idi. Bu xalq ədəbiyyatı nümunələri müntəzəm olaraq dərsliklərə salınırdı.

Dilin tarixindəki izləri müəyyənləşdirmək üçün folklor çox zəngin bir xəzinə hesab edən F.b.Köçərli, Azərbaycan xalqının qədimliyini və keçmiş həyatını öyrənmək üçün folklorun inceliklərini açmağa çalışırdı.

İllərlə folklor nümunələrini toplamaq işi ilə məşğul olan F.Köçərli nəhayət 1908-ci ildə bu tədqiqatlarını başa çatdırır və "Şifahi xalq yaradıcılığı" adı altında çap etdirməyə təşəbbüs göstərmişdir. Lakin maddi imkansızlıq üzündən istəyini gerçəkləşdirə bilməmişdir. "Zaqafqazskoye obozreniye" qəzetinin əməkdaşları toplanan bu materiallara çox böyük dəyər verərək, pul və mənsəb sahiblərini Firidun bəyə kömək etməyə səsləmişlər.

Firidun bəy Köçərli ədəbiyyatı elm aləminə çoxdan məlum olan qayda əsasında "yazılı və şifahi" deyə iki hissəyə ayırır və folklor haqqında öz mülahizələrini söyləyirdi. Alimə görə "el ədəbiyyatı" adlanan bu janr "Ağızda söylənən nəql hekayətlərdən, cürbəcür milli nəğmələrdən, aşıq sözlərindən, məsəllərdən, tapmacalardan, yanıltmaclardan, atalar sözlərindən, sayaçı sözlərdən bayatılardan və. s." ibarətdir.

Köçərlinin folklor haqqında söylədiyi fikirlər elmi mənası və mahiyyəti etibarı ilə özündən əvvəl bəzi əsərlərdə ötəri rast gəldiyimiz mülahizələrdən əsaslı surətdə fərqlənir və müasir dövrdə bu məsələ ilə əlaqədar deyilmiş elmi müddəalarla yaxından səsləşməkdədir. Onun klassik ədəbiyyat, xüsusilə də xalq ədəbiyyatı haqqındakı nəzəri müddəaları küll halında toplanaraq, folklorşünaslıq elmi sahəsində indi də dəyərini saxlamaqdadır.

F.b.Köçərlinin xalq ədəbiyyatı haqqındakı bir çox mülahizələri ümumi mahiyyət etibarı ilə böyük proletar yazıçısı M.Qorkinin fikirləri ilə bir yaxınlıq, bir vəhdət təşkil edir. Xüsusilə, M.Qorkinin "Folklor öz xüsusi yolu ilə tarixə yoldaşlıq edir", "folkloru bilmədən əməkçi kütlələrin tarixini öyrənmək olmaz", "folklora bədbinlik yabançıdır" və s. kimi fikirləri ilə F.Köçərlinin düşüncələri və qənaətləri arasında bir yaxınlıq olduğunu görmək olur.

*Davamı səhifə 17-də*

***Əvvəli səhifə 16-da***

O, şifahi xalq ədəbiyyatının həyatiliyindən, nikbin, humanist mahiyyətindən danışarkən yazırdı: Nağıllarda "haqq batilə, doğru yalana qalib gəlir və nağılların çoxu şadlıq ilə qurtarır. Və yaxud, yar eşqində böyük zəhmət və məşəqqətlər çəkən şahzadəyə qırx gün, qırx gecə toy olunur, sonunda nəql söyləyən nəqlini gülüş ilə qurtarıb deyir: "O yedi, yerə keçdi, siz də yeyin, dövrə keçin".

F.b.Köçərli folklor nümunələrində təsərrüfatımızın, yaşayış tərzimizin, məşğuliyyətimizin hansı formada olduğunu bizə açıq-aydın göstərməklə, sanki bizə kimliyimizi anladır. F. Köçərli yazırdı: "Sinədən toxunan nəğmələrdə millət özünə ariz olan ğəm və qüssəni və yainki şadlıq və fərəhi və filcümlə onun qəlbini ləbaləb edən növbənöv hissləri uca avaz ilə oxuyub öz dəruni halətini və batini aləmini cümləyə izhar edir və bu minval ilə sinəsini ənduh və məlaldan xilas edib ğəm ilə şadlığına ğeyriləri də şərik eliyir".

Mənbələrdən məlumdur ki, F.b.Köçərli Azərbaycan folklorunun həm toplayıcısı, həm də tədqiqatçısı olmuşdur. Azərbaycanın şifahi xalq ədəbiyyatında istifadə olunan nağılları, bayatıları, laylaları, qoşmaları, atalar sözlərini və sair folklor nümunələrini nəzərdən keçirdikdə, onların bir qisminin hələ çox qədim zamanlarda yarandığını, əsrlər keçdikcə müxtəlif dəyişikliklərə uğrayıb formalaşdığını, mükəmməl bədii və tərbiyəvi ədəbiyyat nümunəsinə çevrildiyini ehtimal etmək olar.

Ədəbiyyatla ciddi məşğul olmuş şair və yazıçılar folklorun uşaqların təlim-tərbiyəsində mühüm rol oynadığını qeyd etmişlər. Azərbaycan ədəbiyyatında öz dəsti-xətti olan S. Hüseyn bu xeyirxah və nəcib işdə ən uğurlu əsərlərdən biri hesab etdiyi F. b. Köçərlinin " Balalara hədiyyə" adlı kitabını misal göstərir. Bu kitab folklorşünaslıq tariximizdə həqiqətən də F. b.Köçərliyə müəyyən mövqe qazandırmışdır. O folklora etinasız yanaşanlara müraciət edərək deyirdi: "amma biz onların qədrini bilmirik və itibbatmağına əsla etina etmirik". Firidun bəy Köçərli xalq ədəbiyyatını xalqın sərmayəsi adlandırırdı, folklorun təlim-tərbiyə üçün əhəmiyyətini ilk plana çəkirdi.

Tarixdən məlumdur ki, dünyanın bütün söz sənətkarları öz yaradıcılıqlarında folklordan istifadə etmiş və şifahi xalq ədəbiyyatı ilə sıx bağlı olmuşlar. Azərbaycanın klassik yazıçıları da tarixən folklordan istifadə etməklə yaratdıqları qəhrəmanlar haqqında xalq ədəbiyyatına biri-birindən gözəl nümunələr gətirmişlər. Folklordan danışarkən ona aid olan laylaları, bayatıları, oxşamaları, sayaçı sözləri, nağılları, tapmaca və atalar sözlərinin bir-birindən ayırmaq, fərqləndirmək hansının o birindən üstün olduğunu söyləmək olmur. Yəni bu janrın nümunələrinin hər birisi bizim qanımıza, canımıza hopmuş, ruhumuzun səsinə çevrilmişdir.

Azərbaycan folklorunun geniş yayılmış növlərindən biri də sayaçı sözləridir. Sayaçı sözlərinin toplanılmasında və nəşr olunmasında F.b.Köçərlinin böyük zəhməti olmuşdur. Sayaçı sözlərində ev heyvanları çox incə, gözəl şəkildə vəsf edilmişdir. Folklorun lirik növü hesab edilən sayaçı sözləri ən geniş yayılmış və ən çox istifadə olunan nümunələrindəndir. Folklorun qeyd etdiyimiz kimi, çoxlu nümunələri vardır ki, bu gün ki, həyatımızda bu nümunələrin demək olar ki, hamısından istifadə olunur.

Azərbaycan folklorşünaslığında aşıq yaradıcılığı geniş yayılmış folklor nümunəsidir. Aşıq yaradıcılığının özünəməxsus deyim tərzi, forması vardır. Mənbələrdə Firidun bəy Köçərli şəxsi arxivində külli miqdarda aşıq şeirlərinin, dastan parçalarının olduğu qeyd edilir. Çox təəsüflər olsun ki, onun şəxsi arxivində olan irsinin çoxu məhv edilmişdir.

Müasir dövrümüzdə aşıqların məclislərdə dastan söyləmələri, birbiri ilə deyişmələri bir daha göstərir ki, əsrlərdən süzülüb gəlmiş bu ənənə hələ də folklor nümunəsi olaraq yaşamaqdadır.

Şifahi xalq ədəbiyyatı millətin köküdür, soyudur, tarixidir. Köçərlinin yaradıcılığında önəmli yerlərdən birini tutmuş aşıq folklor sənəti onun Qarabağ aşıqlarından adı Kərbəlayi Səfi olan Valehin yaradıcılığı ətrafında araşdırma aparması oldu. Bunun bariz nümunəsi olaraq "Valehin nəğmələri" adlı yazısını misal göstərə bilərik. Məsələn F. b. Köçərlinin qələmə aldığı "Valehin nəğməsi" adlı yazısının xalqdan topladığı folklor materialları əsasında ərsəyə gəldiyinin, aşıq Valehin məhz Azərbaycan xalqına mənsub olduğunu, başqa xalqlar tərəfindən mənimsənilməsinə qarşı aparılan bir mübarizənin, bir döyüşün olması idi. F. b. Köçərli apardığı araşdırmalarında sübut etməyə çalışırdı ki, Aşıq Valehin mahnılarının ruhu, kökü sırf Azərbaycan xalqının ruhuna köklənmiş, bu xalqın kökündən qaynaqlanmışdır, yəni Valeh əsl Azərbaycan sənətkarıdır.

Firidun bəy Köçərli Valeh haqqında ətraflı məlumat verərək yazır ki, aşığın Qarabağ xanlığının tarixinə aid "bir mənzulatı var ki, mətəəssüf, ələ gətirə bilmədik. Onun övladı Aşıq Abbasqulu bizə söz vermişdi ki, Kərbəlayi Səfinin tamam əşari əsarını bizə göndərsin, vəli əhdinə vəfa etmədi. Adı çəkilən məcmuənin 1910-cu il, 41-ci buraxılışında "F. B. Köçərlinski" imzası ilə "Sayaçı" mahnısı və "Valehin nəğmələri" mahnı mətnləri oxuculara təqdim edilir, rus oxucuları üçün onların sətri tərcüməsi verilir. "Valehin nəğməsi" adlı ikinci hissədə məqalənin müəllifi insanın dünyaya gəldiyi ilk gündən o biri dünyaya köçənə qədərki həyat mərhələlərindən bəhs edən nəğməni və bunun ruscaya sətri tərcüməsini oxuculara təqdim edir". SMOMPK(Sbornik materialov dlə opisaniə mestnostey i plemen Kavkaza) məcmuəsinin 41-ci buraxılışında isə Firidun bəy Köçərli Aşıq Valehin "Vücudnamə"sini əsl adı ilə çap etmişdir.

Folklor çox şaxəli bir janr olduğu üçün onu da əlavə qeyd etmək olar ki, aşıq musiqisi, etnoqrafiya, xalq sənəti yaradıcılığı, xalq musiqisi bunların hamısı folklor janrına aid edilir.

Əvvəldə qeyd etmişdik ki, F. b.Köçərlinin fikrincə də folklor nümunələri uşaqlarımızın tərbiyəsinə xüsusilə yaxşı təsir göstərən amillərdəndir. Çünki hər bir uşaq eşitdiyi əsərin qəhrəmanına bənzəmək istəyində olur. Bu səbəbdən yazılan əsərlərin qəhrəmanlarını müsbət xarakterli olmasında F. b. Köçərli folklorumuzun dəyərini, qiymətini oxucuya çatdırmağa çalışmışdır.

Şifahi xalq ədəbiyyatı sadə və insanların asan başa düşəcəyi bir nümunə olduğunu nəzərə çatdıran Köçərli, qəliz cümlə və ibarələrdən uzaq olmağı yazıçılara məsləhət görürdü və Azərbaycan sözlərinə yabançı sözləri calaşdıranları lazımınca tənqid edirdi. Köçərli folklorun dilini "xalq dili" adlandıraraq, bu dilin xalqın kökündən qaynaqlandığını və özümüzün də kökümüzdən uzaqlaşmamağımızı tövsiyə edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan folklorşünaslığında dövrün mühüm hadisələri ilə bağlı bir sıra özünəməxsus yeni keyfiyyətlər meydana çıxmağa başlamışdı. Bu ondan ibarətdir idi ki, folklor yalnız ədəbiyyatla deyil, o zamanın pedaqoji fikirləri ilə də sıx bağlıdır. Maarifpərvər ziyalılarımız pedaqoji fikirlərini yaymaq məqsədi ilə məhz folklordan istifadə edirdilər. Sanki zamanın tələbi olan bu yanaşma o dövrdə daha qabarıq nəzərə çarpırdı. H. Zərdabi, S. Ə. Şirvani, S. S. Axundov, A. Şaiq, M. Ə. Sabir, A. Səhhət, R. Əfəndiyev, F. Köçərli və bir çox görkəmli maarifpərvər ziyalılarımız bu yolda Firidin bəylə həmfikir idilər.

Məlum olduğu kimi, xalq yaradıcılığı ilə bağlı olan əsərləri içərisində F. b. Köçərlinin "Balalara hədiyyə" kitabı ədəbiyyatşünaslar tərəfindən yüksək dəyərləndirilmiş əsərlər sırasına daxil olmuşdur. Firidun bəy bu kitabda çoxlu sayda folklor nümunələrindən istifadə edildiyindən, oxucular tərəfindən sevilməsinə şərait yaratmışdır.

Azərbaycan folklor janrının maraqlı bir nümunəsi də lətifələrdir ki, bunun da tarixi çox qədimlərə gedib çıxır. Lətifələr müxtəlif zamanlarda müxtəlif insanların adı ilə əlaqələndirilibdir. Azərbaycanda lətifələr ən çox iki nəfərin Bəhlul Danəndə və Molla Nəsrəddinin adı ilə bağlıdır. Molla Nəsrəddinin adı ilə bağlı olan lətifələr dünyanın müxtəlif xalqları içərisində ta qədim zamanlardan yayılıb yaşamaqdadır. F. b. Köçərli bir folklorşünas olaraq, Azərbaycanda "Molla Nəsrəddin" kimi bir jurnalın yaranmasına ehtiyac olduğunu bilirdi və o "Molla Nəsrəddin" jurnalının nəşrinə bəlkə də hamıdan çox sevinirdi. Çünki "Molla Nəsrəddin" təkcə Azərbaycanda deyil, bütün Şərqdə səs salmışdı. Bu barədə Köçərli yazırdı: "Şərq xalqları, xüsusilə də azərbaycanlılar öz danışıqlarını məsəllər, atalar sözləri və Şərqin müdrik məzhəkəçisi olan Molla Nəsrəddinin lətifələri ilə bəzəməyi sevirlər". F. b. Köçərli Molla Nəsrəddinin müdrikliyinin və hazırcavablığının rəngarəng lətifələr ilə söylənməsinə və az bir zaman içərisində bunun bütün Şərqdə yayılmasını düzgün hesab edirdi. O, belə folklor nümunələrini insanların tərbiyəsində, savadlanmasında mühüm vasitə hesab edirdi və bu yoldan istifadə etməklə xalqı maariflənməyə çağırırdı.

F. b. Köçərli "xalqın dili" hesab etdiyi bu nümunələrin itib batmamağı üçün toplamasını vacib sayırdı. O, "Molla Nəsrəddin" jurnalının üstün cəhətlərindən biri kimi göstərirdi ki, bu jurnal həqiqətən də artıq köhnəlmiş olan adət-ənənələrimizi, hansı ki, xalqın mənafeyinə, həyatına mənfi təsir göstərir o halları gülüş yolu ilə aradan qaldırmağa səy göstərir, insanları cəhalət yuxusundan oyandırmağa səsləyən bir jurnaldır. Köçərliyə görə xalqın mənafeyi naminə xidmət göstərən hər bir əsər, kitab, jurnal və s. dəyərləndirilməlidir. Firidun bəy daha sonra jurnal haqqında bu sözləri demişdir: "Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir. Nadanlıq və cəhalət, mövhumat və fanatizm bir neçə əsr qaranlıq içərisində yatıb yuxuya qalmış bizim cəmiyyətimizdə o qədər çoxalmış və o qədər dərin kök salmışdır ki, tənqidə onların hansından başlamağı təyin etmək çətindir" deyən ədib sanki haray qoparırdı.

Azərbaycanın mədəniyyət tarixində böyük rol oynamış Köçərlinin yaradıcılıq fəaliyyəti zəngin və hərtərəfli olmuşdur. Onun 1903-cü ildə min bir əziyyətlə ərsəyə gətirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı kitabı bunun bariz nümunəsidir. F. b. Köçərli bu kitabda ədəbiyyatımızın tarixini bütünlüklə əks etdirə bilməsə də, müəyyən mənada məlumat verə bilmişdir. Bu günki həyatımızda Firidun bəy Köçərlinin əsərlərinin özü artıq demək olar ki, bir tarix, bir folklor nümunəsi kimi ədəbiyyatımıza daxil olmuşdur.

Azərbaycanın klassiklərindən görkəmli şair M. P. Vaqiflə başlayan bu kitab bir çox şair və yazıçıların həyat və yaradıcılığını əks etdirir. Kitabda M. P. Vaqifin, Q. b. Zakirin qoşmaları, rədifləri haqqında müxtəsər məlumat verilmişdir. Əsil maarifpərvər olan F. b. Köçərli böyük həvəslə bu folklor nümunələrini toplayaraq təbliğ edirdi. Dahilərimizin haqqında topladığı materiallarla nəinki Azərbaycan oxucularını, eləcə də başqa xalqların ədəbiyyasevərlərini məlumatlandıran Köçərlinin bu nəcib işi Azərbaycan mədəniyyətinin ən parlaq nümunəsi kimi tarixə düşmüşdür. Klassiklərimizin həyat və yaradıcılığı ilə yaxından tanış olan oxucular bu insanların Azərbaycan ədəbiyyatı tarixindəki rolunu öyrənərək, sənətlərini dəyərləndirə bilirlər. O dövrdə Azərbaycanın dilinə edilən hücumlar olduğu kimi Azərbaycanın folkloruna da hücumlar olunurdu. Folklorun bəzi insanlar tərəfindən güclü tənqid atəşinə tutulmasına baxmayaraq, Köçərli geri çəkilmədən bu işi davam etdirirdi. Folkloruumuza hörmətlə yanaşan Köçərli bu janra etinasız münasibət bəsləyən, yazılan dərslikləri və dərsliklərdə yer alan folklor nümunələrini "cəfəngiyat" adlandıran, folklor janrının insanları geriyə çəkdiklərini sübut etməyə çalışan o dövrün yetərincə görkəmli və nüfuz sahibi olan dırnaqarası ziyalılara layiqli cavablarını verirdi. Bu cür insanlar xalq arasında səhv təbliğat apararaq onları Avropaya üz tutmağı, onlardan öyrənməyi və kor-koranə onları yamsılamağı tövsiyə edirdilər. Lakin ataların gözəl bir deyimi var: "Keçmişini bilməyənin gələcəyi ola bilməz". Bir çoxlarından ağıllı məsləhətləri və əxlaqi təmkini ilə həmişə fərqlənən "Əgər mən öz tariximi, ədəbiyyatımı, adət-ənənəmi bir az da olsa bilmirəmsə, onda mən necə qələm sahibi ola bilərəm? - söyləyən F. b. Köçərli, öz yaradıcılığına məhz bu cəhətdən yanaşırdı. Onun qanun kimi qəbul etdiyi bir kəlamı Azərbaycanın Firidunşünas tədqiqatçılarının məqalələrində yer almışdır: "Hər bir kəs öz doğma anasını sevdiyi kimi, onun dilini də sevməlidir". Yəni "Mən anamı çox sevdiyim üçün, onun dilini də çox sevirəm" deyir Köçərli.

F. b. Köçərlinin ədəbiyyatda yeniliyin tərəfdarı olduğu məlumdur. Lakin o, bu yeniliyin keçmişi unutmamaq şərti ilə müasirləşdirməyin, yeni formada xalqa çatdırılmasının əleyhinə deyildi. Köçərli yeni şeirin yolunu təbii hissləri tərənnüm etməkdə və xalq həyatının şeirdə təsvir olunmasında görürdü. Tənqidçi bu əqidədə idi ki, "ağıl və zor ilə yazılmış kəlam nə qədər mövzun və müsəlsəl" olsa da, oxuculara təsir edə bilməz. Onun fikrincə şair yalnız təbii duyğuları təsvir etdikdə müvəffəqiyyət qazana bilər. Ədəbiyyat tarixinin şifahi xalq yaradıcılığından başladığını çox yaxşı bilən ədib şifahi xalq ədəbiyyatını "xalqın sərmayəsi" adlandırırdı. O, xalq ədəbiyyatının nağıl janrına da toxunaraq "Nağıllarda həqiqət halı ilə xəyalət aləmi, doğru ilə yalan, mümkün ilə qeyri mümkün elə bir məharətlə bir-biri ilə calışır ki, əqli-insan heyrətdə qalır" deyə söyləmişdir.

Hər şeydən əvvəl biz F. b. Köçərlidən xalq ədəbiyyatının toplayıcısı kimi bəhs etməliyik. Firidun bəy Köçərli yaradıcılıq fəaliyyətinin 35 ilini pedaqojisahəyə sərf etməklə yanaşı, eyni zamanda da Azərbaycan ədəbiyyatı tarixi ilə də məşğul olmuş, yaradıcılığının qalan hissəsini maarifə, təhsilə, Azərbaycan dilinin inkişafına və folklorumuzun araşdırılmasına həsr etmişdir. O hətta insanların həyatında baş verən ictimai, siyasi və sosial məsələlərə də biganə qala bilmirdi. F. b. Köçərlinin toplamış olduğu materiallar, folklor nümunələri müxtəlif mətbuat səhifələrində tez-tez dərc olunurdu.

Azərbaycanın folklor tarixinin araşdırılmasından danışarkən, Firidun bəy Köçərli ilə bir sırada H. Zərdabi, E. Sultanov, S. Ağamalıoğlu, H. Minasazov, M. V. Qəmərlinski, T. Bayraməlibəyov, M. Şahtaxtlı R. Əfəndiyev, A. Şaiq, S. Qənizadə, S. Mümtaz, A. Səhhət, M. Mahmudbəyov, H. Zeynallı, C. Məmmədquluzadə, Ə. Haqverdiyev, Y. V. Çəmənzəminlini və bir çox başqalarının da adını qeyd etmək lazımdır. Çünki adları qeyd olunan şəxslərin hər birisi Azərbaycanın ədəbiyyaşünaslığında, folklorunun toplanmasında özlərinə məxsus xidmətlər göstərmişdilər. Bu ədiblər istər rus və dünya xalqlarının ədəbiyyatından, istərsə də Azərbaycan şifahi ədəbiyyatından nümunələrin toplanmasında, tərcümə edilməsində çox böyük işlər görmüşlər.

Dünya şöhrətli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli xalq musiqisi əsasında yazdığı əsərlərinin meydana gəlməsində uşaq yazıçılarının folklordan istifadə etdiyi ədəbiyyatlarının da bir təsirinin və əlaqəsinin olduğunu qeyd edir. Ədəbiyyat kitablarında folklor haqqında məlumatların olması, onlara geniş yer verilməsi bu janrın hələ də unudulmadığını və yaşadığını xəbər verir. Ağır bir zəhmətin nəticəsi olaraq 1908-ci ildə F. b. Köçərli topladığı materialları "Şifahi xalq yaradıcılığı" adı altında çap etdirməyə təşəbbüs göstərmişdir.

***Davamı səhifə 18-də***

# Firidun bəy Köçərlinin etnoqrafik araşdırmaları

Əvvəli səhifə 17-də

Lakin maddi imkansızlıq üzündən istəyinə nail ola bilməmişdir. "Zaqafqazskoye obozreniye" qəzetinin əməkdaşları qəzet vasitəsi ilə bu materialların toplanmasın yüksək qiymətləndirərək, imkanlı və mənsəb sahiblərini F. b. Köçərlinin kitabının nəşr edilməsinə köməklik göstərməyə çağırmışdır.

F. b. Köçərli Azərbaycan şifahi xalq ədəbiyyatına qayğı ilə yanaşır, dost- tanışlarla əlaqə saxlayıb onlardan eşidib bildikləri dastan, nağıl, bayatı, lətifə və məsəllərimizi həvəslə toplayırdı. Folklorun laylay janrı daha incə hisslərə toxunaraq, ruhumuzu duncəldir. Anaların beşik başında körpəsinə laylay çalarkən

*Laylay dedim yatasan,*
*Qızılgülə batasan.*
*Qızıl gülün içində,*
*Şirin yuxu tapasan.*

*Laylay quzum ay laylay,*
*Körpə quzum ay laylay*
*Laylay beşiyim laylay,*
*Evim, eşiyim laylay.*
*Sən yat şirin yuxu al*
*Çəkim keşiyin laylay.*

və yaxud körpəsini oxşayarkən

*Balama qurban inəklər,*
*Balam nə vaxt iməklər?*

*Balama qurban ilanlar,*
*Balam nə vaxt dil anlar?*

*Balama qurban alçalar,*
*Balam nə vaxt əl çalar?*

deməleri nə qədər sadə, şirin, ruhu oxşayan bir deyimdir. Bu cür maraqlı misallar Azərbaycan folklorunda yüzlərlədir.

XX əsrin əvvəllərindən Azərbaycanda folklorşünaslıq xeyli inkişaf etməyə başlayır. Azərbaycan xalq ədəbiyyatının nümunələrinin əsasını təşkil edən bayatı, nağıl, tapmaca, layla, lətifə, atalar sözləri və s. janrların bəzi xalqlar tərəfindən mənimsənilməsinə baxmayaraq, yenə də xalqımız tərəfindən mühafizə olunaraq bizə gəlib çatanları olmuşdur. F. b. Köçərli və müasirləri bu araşdırmaları apararkən, zaman-zaman qoruyaraq bizlərə ötürdükləri əsərlərindəki folklor nümunələrinin məhz Azərbaycanın folklor nümunəsi olduğunu sübut etmişlər.

Azərbaycan folklorunun tarixi onun qədimliyi, dili və adət-ənənələri ilə tam uyğunluq təşkil edir. Milli dəyərlərimizə söykənən folklorumuz heç bir yabançı sözləri, məsəlləri və adətləri özündə əks etdirməyərək, sırf Azərbaycan xüsusiyyətlərindən yaranmışdır. Köçərli bu faktları nəzərə alaraq folklorumuzun arada itibatmaması, başqaları tərəfindən mənimsənilməsməsi üçün bu cür çətin işin öhdəsindən var qüvvəsi ilə gəlməyə çalışmışdır. Məişətimizə və həyat tərzimizə uyğun olan şifahi xalq ədəbiyyatımız bu günün özündə də həm istifadə olunur və həm öyrənilir. Sırf Azərbaycan xalqına aid olan laylalar, oxşamalar, əzizləmələr, bayatılar, sayçı sözlər və s. nümunələr demək olar ki, heç bir xalqa mənsub deyildir. Bütün bu zəhmətin nəticəsi olaraq Firidun bəy Köçərli və onun timsalında ziyalı ədəbiyyatşünaslarımızın əməyi həqiqətən də təqdirəlayiqdir.

Folklorumuzun nümunəsi olan atalar sözlərinin əsrlərdən süzülərək bu günümüzə gəlməsi, hətta bu günki həyatımızda atalar sözlərindən mütəmadi istifadə etməyimiz bir daha onu göstərir ki, Azərbaycan xalqının mənəvi sərvəti olan folklor canımıza, qanımıza hopmuş və babalardan bizlərə miras qalmışdır. Hər deyilən atalar sözlərində dərin bir mənanın olduğunu, insanın həyatında mühüm rol oynadığını, ən başlıcası isə nəsihət, məsləhət vasitəsi kimi bu gün də aktualdır. Məsələn: "İşləməyən dişləməz", " Qurd ağacı içindən yeyər", "Hirsli başda ağıl olmaz", "Biri od olanda, biri su olsun gərək", "Qızını döyməyən dizini döyər", "Uşaqsız ev suyu sovrulmuş dəyirman kimidir", "Söyüd ağacı bar verməz", "Ot kökü üstə bitər", "Dəyirman öz bildiyini edir, çax-çax baş ağrıdır" və s. sözlərə diqqətlə yanaşdıqda, bu sözlərin hər birinin açıqlamasında nə qədər dərin, fəlsəfi məna olduğu görünür.

Azərbaycan folklor nümunələrinin işərisində ən yadda qalanlarından biri də "Novruz bayramı "na aid olan nümunələrdir ki, onu da xüsusi qeyd etmək lazımdır. Bu bayramda keçirilən tədbirlər bütünlükdə folklorumuzun qədim tarixini özündə əks etdirir. Müasir günümüzdə də bu bayram münasibəti ilə hazırlanmış səhnəciklər, oyunlar, deyişmələr əsrlərdən üzü bəri gələn folklorumuzun nümunələrindəndir. Burada istifadə edilən atalar sözləri, bayatılar, zərb məsəllər, tapmacalar, yanıltmaclar və s. Azərbaycanın məişət və mədəniyyət tarixini öyrənməyə imkan yaradan vasitələrindəndir. Folklor birbaşa mədəniyyət, soykök, nəsil-nəcabət deməkdir. F. b. Köçərli bütün bunları nəzərə alaraq, Azərbaycan folklor nümunələrini toplamaqla, Azərbaycanın tarixinin gələcək nəsillərə çatdırılmasına çalışmışdır.

F. b. Köçərli hər şeydən əvvəl savadlı, yüksək mədəniyyətə malik, rus dilini mükəmməl bilən ziyalı və məşhur ədəbiyyat tarixçisi olmuşdur. O, ilk dəfə ədəbiyyat tariximizə dair geniş miqyasda materiallar toplayıb sistemə salmış və elmi nəzəri-tənqidi fikirlər söyləmiş və eyni zamanda paralel olaraq xalq ədəbiyyatını da toplamış, çap etdirmişdir. Unudulmaqda olan folklor nümunələrinin toplanıb ərsəyə gəlməsində gərgin əmək sərf edən F. b. Köçərli bunu özünün vətəndaşlıq borcu bilirdi. O həqiqi mənada əsil vətənpərvər idi.

F. b. Köçərli cəmiyyətdə olan ziddiyyətləri görən və dərk edən sənətkar idi. O şifahi və yazılı ədəbiyyatın fərqini belə izah edirdi: "Yazılı ədəbiyyatın mənbəsi, müəllifi məlumdur. Şifahi ədəbiyyatın isə müəllifi məlum deyil. Ağızdan ağıza keçərək gəlib bizə çatan bu folklor nümunələrinin müəllifinin kimliyi məlum olmadığı üçün bunlar el arasında xalq nağılları, xalq dastanı, xalq bayatısı, xalq mahnısı, lətifələr və s. adlanır. Bəzi mənbələrdə haqlı olaraq bu folklor nümunələri "el ədəbiyyatı" adlandırılır. "E ədəbiyyatı" nümunələrinin itməməsi və başqaları tərəfindən mənimsənilməməsi üçün toplanmasını vacib bilən Köçərli, ağır zəhmət tələb edən bu işin öhdəsindən gəlməyə çalışmışdır. Ağızdan ağıza ötürülmüş bu nümunələrdə mütləq müəyyən əlavələr, ləhcələr, şivələr qatılmış olurdu. F. b. Köçərli Azərbaycanın hər bir bölgəsindən əldə etdiyi folklor nümunələrə diqqətlə yanaşır, dəqiq araşdırmalar aparırdı. O bir cəhəti də xüsusi olaraq qeyd edirdi ki, hər bir yaşanan zamanın öz dövrünə uyğun zövqü olur. Hər hansı bir mənfi və müsbət cəhəti nəzm və yaxud nəsr formasında xalqa çatdırmaq mümkündür. Keçmişin canlı səhifəsi adlanan folklor nümunələrinin ilə xalqı maarifləndirmək, həyatda cərəyan edən hadisələrdən xəbərdar etmək olar. Şair və yazıçıların da o dövrə uyğun hadisələri qələmə almaları bu cəhətdən təbiidir.

F. b. Köçərliyə görə folklorun epik janrlarilə bərabər mahnı janrı da vardır ki, bu janrda insanların başqa aləmi, başqa hiss-düşüncələri öz ifadəsini tapmışdır. Onun fikrincə, sinədən oxunan nəğmələrdə millət özünə aid olan qəm və qüssəni, yaxud şadlıq və fərəhi ilə qeyrilərini bu hisslərinə şərik edir. Köçərli ədəbiyyata səyirçi münasibət bəsləmirdi və təkcə folklor nümunələrini toplayıb yığmaqla işini bitmiş hesab etməyirdi. Firidun bəy bu nümunələrin həm yaşadığı dövr üçün, həm də ondan sonra gələcək nəsillər üçün nə qədər önəmli olduğunu bilərək, "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin yazılmasında əsas bu cəhətə üstünlük vermişdir. F. b. Köçərli bu cəhəti teatr üçün yazılmış tamaşalara da aid edirdi. O "Azərbaycan ədəbiyyatı" əsərində dramaturgiyanın inkişafında teatrın rolundan söhbət açaraq yazırdı: "Bizim yaşadığımız zəmanədə dramatik əsərlər Azərbaycan yazıçılarının zövqlərinə daha uyğun gəlmişdir. Bu, başlıca olaraq belə bir vəziyyətlə izah olunur ki, ədəbi əsərlərin bu növündə cəmiyyətdəki nöqsanları və qüsurları daha dolğun və aydın şəkildə göstərmək və həmən əsərləri səhnədə tamaşaya qoymaqla kütlənin diqqətini bu nöqsanlara və qüsurlara cəlb etmək mümkündür".

F. b. Köçərli folklorun araşdırılmasında nağıl janrına aid fikirləri xüsusilə maraqlıdır. O bu janrda xəyalət ilə həqiqətin, mümkün ilə qeyri mümkünün, doğru ilə yalanın biri birinə calaşmasından yaranan hadisələrdə insan ağlının heyrətləndiyini, yeni insanın fantaziyasının nə qədər güclü olduğunu söyləməklə nağıllara dərindən bələd olduğunu nəzərə çatdırmağa çalışmışdır. Nağıllarımızda oddan, alovdan keçən, ölümdən belə qorxmayan, dağlar yaran, ən vəhşi heyvanlarla vuruşaraq onlara qalib gələn əfsanəvi qəhrəmanların və yaxud heyvanat aləminin ağıla gəlməz əcaib divləri, quşları haqqında yaranmış fantaziyaları F. b. Köçərli çox yüksək qiymətləndirirdi. Bu nağıllar nəinki uşaqların, hətta böyüklərin də marağına səbəb olaraq həvəslə izlənilirdi. Firidun bəy Köçərli folklor nümunələrinin növləri və ifadə formaları haqqında dəyərli fikirlər söyləmişdir. Məsələn nağıllardan bəhs edərkən onların nəzm və nəsrin vəhdətindən yarandığını, fantastik, əfsanəvi formalara malik olduğunu, bu tipli əsərlərin təmsillərlə yaxınlığını göstərmiş və düzgün nəticələr əldə etmişdir.

XX əsrin əvvəlləri elə bir zaman idi ki, Azərbaycanın mədəni həyatında şifahi xalq yaradıcılığına güclü meyl yaranmışdır, lakin hücumlar da istisna deyildi.

F. b. Köçərli XX əsrin əvvəllərində Azərbaycanda yaşanan ağır, gərgin, ictimai-siyasi və ədəbi mübarizələr dövründə folklora qarşı olan hücumları görür və onu inkar edənləri tənqid atəşinə tutmaqdan çəkinməyirdi. Tənqidi edən insanlar Azərbaycanın təkcə folkloruna deyil, eyni zamanda dilinə, ədəbiyyatına, mədəniyyətinə qarşı da çıxırdılar. Onlar Azərbaycan xalqının əsrlər boyu yaratdığı mənəvi sərvətləri heç cürə qəbul etməyərək bu mənəvi sərvətləri gözdən salmaqla, hətta bu işlə məşğul olmağın özünü geriliyə addım hesab edirdilər. Yazıçılarımızın və pedaqoqlarımızın bu mövzuda yazdıqları dərslikləri isə cəfəngiyat adlandırırdılar.

Bununla belə, ruhdan düşməyən Firidun bəy Köçərli Azərbaycanın şifahi xalq yaradıcılığına xüsusi ehtiramla yanaşır, folklorumuzun inciləri sayılan nağılları, tapmacaları, atalar sözlərini və s. böyük həvəslə toplayırdı. Köçərli M. Füzuli haqqında yazdığı sözlərində qeyd edirdi ki, dahi şairin yaradıcılığını atalar sözləri və məsəllər rövnəqləndirmişdir. Şairin düşüncə dəryası "söz almazı", "məna gövhəri" ilə cilalanmışdır."Gül xarsız olmaz", "Od olub yandırır, su olub öldürür", "El ağzını tutmaq olmaz", "Dərdə dözən səbrlə kama çatar", "Mən dönmərəm bu yoldan ölüm olsa, qan olsa", kimi onlarca misra atalar sözü və məsəl kimi Füzuli dühasında cilalanıb yenidən xalqa qaytarılmışdır.

Atalar sözü və məsəllər Xətai, X. Təbrizi, M. P. Vaqif, Q. Zakir, S. Ə. Şirvani, M. Ə. Sabir, N. Vəzirov, R. Əfəndiyev, F. Köçərli, Ə. Haqverdiyev, C. Məmmədquluzadə, H. Cavid, S.Vurğun və digər görkəmli sənətkarların da yaradıcılıq mənbəyi olmuşdur.

F. b. Köçərlinin istər "Azərbaycan tatarlarının ədəbiyyatı" və istərsə də "Azərbaycan ədəbiyyatının tarixi materialları" əsərləri əziyyətinin məhsulu olaraq bu gün də aktuallığını saxlamaqdadır. Azərbaycanın folklorunun öyrənilməsində, klassiklərimizin həyat və yaradıcılıqlarının, eləcə də əsərlərinin tədqiq olunmasında bu əsərin çox böyük rolu olmuşdur. Hər yerdə qeyd edildiyi kimi, məlumdur ki, şifahi söz sənəti xalqın mənəvi qüdrətini, ictimai-siyasi, tarixi hadisələrə münasibətini dolğun və bədii biçimdə əks etdirən zəngin irsdir.

Görkəmli edib F. b. Köçərli ədəbiyyatı şifahi və yazılı ədəbiyyat olaraq iki qismə bölürdü. Bunun bir qismi ağızdan ağıza ötürülən "el ədəbiyyatı", o biri qisim isə yazı ilə hasil olan ədəbiyyat adlanırdı.

Atalar sözləri və zərb məsəllər xalq tərəfindən yaradılır, ona görə də milli-özünəməxsus xarakter daşıyır. F. b. Köçərli şifahi xalq ədəbiyyatını dərk edərək, bu ədəbiyyatı "xalqın qəlbinin səsi" adlandırırdı. Həqiqətən də folklorda xalqın səsi və əsrlərdən gələn əks-sədası vardır.

Azərbaycanın görkəmli folklorşünas alimi Firidun bəy Köçərli folklor nümunələrini toplamaqla Azərbaycan ədəbiyyatına çox dəyərli töhfə vermişdir. Xalqının qədim tarixini, mədəniyyətini öyrənərək gələcək nəsillərə tanıtdırmaq, gənclərdə vətənpərvərlik hissi oyatmaq, müasirlərini maarifçilik uğrunda mübarizəyə cəlb etmək, vətənə vicdanla xidmət göstərmək əsl insani borcdur. Məhz bu xidmətlərə görə Firidun bəy Köçərlinin adı Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixində əbədiləşmişdir.

# Firidun bəy Köçərli Əhmədov Seyidovun tədqiqatında

**Azərbaycan milli təhsilinin inkişafında öz yeri - mövqeyi olan şəxsiyyətlərdən biri də F.Köçərlidir. Onun bizə zəngin irsi gəlmişdir: Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini bitirəndən sonra ədəbi və pedaqoji yaradıcılığı mövzu və məzmunca genişlənir, çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi" fundamental əsərini qələmə alır, pedaqoji fəaliyyətini davam etdirir, "Şərqi-rus" qəzetində və "Molla Nəsrəddin" jurnalında bilavasitə publisist məqalələri işıq üzü görür. Habelə, klassik irsimizin tədqiqilə məşğul olur.**

F.Köçərlinin ədəbi-pedaqoji irsilə çağdaş alimlərimiz araşdırmalar aparmışlar. Mir Cəlal, Kamal Talıbzadə, Əhməd Seyidov, Camal Əhmədov, Bəkir Nəbiyev və başqalarının adını çəkə bilərik. Onlar hələ Sovet dönəmində F.Köçərlinin irsinə obyektiv yanaşmış, ideologiyaya təslim olmamışlar.

Biz bu məqalədə F.Köçərlinin pedaqoji irsinin araşdırılmasında xüsusi xidməti olmuş əməkdar elm xadimi, Zaqafqaziyada və Orta Asiyada ilk pedaqoji elmlər doktoru, professor adını almış Əhməd Yusif oğlu Seyidovu xatırlayıram: 1892-1977.

Azərbaycan pedaqoji fikir tariximizi milli və dünyəvi kontekstdə tədqiq etmiş, çoxcildlik "Pedaqogika tarixi" əsərlərini ortaya qoymuşdur. Böyük pedaqoji məktəb yaratmış və davam etməkdədir. Hüseyn Əhmədov, Həsən Bayramoğlu, Fərrux Rüstəmov, İramin İsayev və digər tələbələri Ə.Seyidovun irsini davam etdirirlər. Professor Əhməd Seyidov F.Köçərli irsinə təsadüfən qayıtmamışdır və onun mənəvi-ruhi mənbələri mövcuddur. Birincisi, o, F.Köçərlinin Qori Müəllimlər Seminariyasında tələbəsi olmuşdur. Firidun bəyin şəxsiyyəti: istedadı, vətənpərvərliyi, pedaqoqluğu və s. gənc Əhməd Seyidovun diqqətini özünə çəkmişdir. İkincisi, F.Köçərlinin Çar dövrünə baxmayaraq həm ədəbi-nəzəri, həm də pedaqoji-metodiki əsərlərində milli zəmində, cəsarətilə öz Mənini qorumasıdır, xalqının zəngin mənəviyyatını və istedadını nəzərə almasıdır. Üçüncüsü, alim olaraq, ali məktəb dərslikləri müəllifi kimi Firidun bəyin pedaqoji görüşlərini tematikası seçməsidir. Bir fakt kifayətdir ki, Ə.Seyidov ötən əsrin 60-cı illərində öz müəllimi, görkəmli ziyalı F.Köçərlinin pedaqoji fəaliyyəti haqqında "Sovetskaya pedaqogika" jurnalında (1964, № 5) "Pedaqoqiçeskie vzqlyadı F.Koçerli" məqaləsini çap etdirmiş, XX əsr Azərbaycan maarifinin nəzəri əsaslarının yaradıcılarından biri adlandırmışdır. Ə.Seyidov məqaləsində F.Köçərlini ürəyi atəşli, dediyi fənnin nəzəri əsaslarını böyük məhəbbətlə sevən bir müəllim kimi də qiymətləndirmişdir.

Yeri gəlmişkən deməliyik, böyük alim-pedaqoq "Kaspi" qəzetinin (1914, № 86) yazdığına görə o, dərs dediyi tələbələrilə birgə uzaq Qoridən Tiflisə gəlmiş, Seminariyasının keçmiş tələbəsi Üzeyirbəy Hacıbəyovun musiqi əsərlərindən ibarət konsertdə iştirak etmişdir. Bu tarixi faktı da unutmamalıyıq ki, F.Köçərli mənəvi təhrikilə gələcəyin dahi şairi Səməd Vurğunun - Vəkilovun Seminariyaya qəbuluna icazə vermiş, "lət basmış uşaq" isə etimadı doğruldaraq uğurla imtahan vermişdir. Əhməd Seyidov (o, mənim elmi rəhbərim idi, tələbəsi olmuşam) söhbətlərində həmişə öz müəllimini sevgiylə xatırlamışdır. Və deyirdi ki, Firidun bəydən yazanda özümdən asılı olmadan seminariyalı illərə qayıdıram. Onun qaməti, səsi, bizə yanaşma tərzi nəzərimdə canlanır...

Bir gün Əhməd müəllim xəstəhal idi, onu yoluxmağa getmişdik. Ötən günlərə qayıtmışdı, gözləri arabir yol çəkirdi. Söz Firidun bəydən düşdü, köks ötürdü: - Kaş Firidun bəy Köçərli haqqında yazdığımın nəşrini görəydim. - Gileyləndi. Əlbəttə, məyus olmamaq mümkünsüzdü. Taleyim elə gətirdi, mən "Maarif" Dövlət Nəşriyyatına baş direktor təyin edildim (1984-1992). Oğlu, mənim unudulmaz müəllimim, professor, mərhum Fikrət Seyidovla görüşdüm. Ə.Seyidovun çap olunmamış əsərlərini nəşriyyata təqdim etməsini xahiş etdim, bir şərtlə, F.Köçərli haqqında əsərini də... Mən geniş müqəddəmə ilə professor Əhməd Seyidovun "Azərbaycan pedaqoji fikrin inkişaf tarixindən" monoqrafiyasının nəşrinə (Bakı, 1987. 300 səhifə) nail oldum. Mən eyni zamanda müəllimimin arzusunu yerinə yetirdim...

**TARİXDƏN QAÇMAQ OLMUR...**

Əhməd Seyidov Firudin bəy Köçərlinin pedaqoji irsinə (fəaliyyətinə) layiqli qiymət vermişdir: Seminariyadakı fəaliyyəti, publisistikası, dünyagörüşü, dini baxışları, yeni əlifba haqqında fikirləri, köhnə məktəbə aid mülahizələri, dərslikləri və sir ümdə məsələlər geniş istiqamətdə təhlilə cəlb olunmuşdur. Müəllif öncə, mənbələrə istinad etmişdir. Xatırladım ki, Əhməd müəllim ərəb və fars dillərini mükəmməl bilirdi; ona görə də birbaşa arxivə üz tutmuşdu. F.Köçərlinin "Müsəlman qadınları keçmişdə" məqaləsi üzərində ayrıca dayanmış və yazmışdır ki, F.Köçərli tarixin səhifələrindən bəzi qadınların adını çəkir, onların öz ailələrindəki və cəmiyyətdəki təqlidəlayiq rəftarlarını, davranışlarını nümunə göstərir. Eyni zamanda Şərq müsəlman qadınlarının bir çox natiqlərin, alimlərin, şairlərin, daha digər görkəmli qadınların böyük - hüsn-rəğbətlə adlarını göstərir".

Bu iqtibasdan görünür tki, Firidun bəy çarın təqlin etdiyi kimi - müsəlman qadınları savadsız olublar - cəfəngiyyat fikrini təkzib edir və ərəb xəlifəsi Harun Əl-Rəşidin arvadı Zübeydə Ümmi Cəfərin də gözəl şeirlər yazdığını misal gətirir.

Ə.Seyidov F.Köçərlinin irsinə əsaslanaraq yazır ki, Firudin bəy məqalələrində dövrün siyasi hadisələrini diqqətlə izləmiş, onunla ciddi maraqlanmış, pedaqogika və psixologiya elmlərini mükəmməl bilmiş, təcrübi savada malik olmuşdur və eyni zamanda: "O, çar məmurlarının Rusiyada azlıqda olan başqa xalqlara qarşı yürütdükləri çirkin ruslaşdırma və xristianlaşdırma siyasətini kəskin tənqid edir, onun ağır siyasi və pedaqoji nəticələrini göstərməklə bərabər, belə bir siyasətin rus xalqın özünə böyük ziyan vurduğunu xüsusi göstərir".

F.Köçərlinin xidmətləri sırasında "İcbari təhsil ideyası"nın tərəfdarı olması xüsusi haldır və böyük pedaqoq yazmışdır: "Buna görə təxirə salmadan xalq üçün maarifə yol açmaq zəruridir. Ümumi icbari təlimi həyata keçirmək, ümumtəhsil və ixtisas verən tədris müəssisələri təsis etmək, ruhani və müəllimlər seminariyaları, akademiyalar və darülfünlar açmaq, xalqa mülki, söz və mətbuat azadlığı vermək, nəqliyyatı yaxşılaşdırmaq, ticarəti və dövlət sənayesini yüksəltmək, qadınlar üçün tədris müəssisələri açmaq yolu ilə onların vəziyyətini yaxşılaşdırmaq lazımdır..."

Professor Əhməd Seyidov F.Köçərlidən yazarkən ustadın "xalq məktəbləri"nin sayının çoxalması ideyasına münasibətini bildirir və vaxtında bu məsələnin mətbuatda qaldırılmasının elə də asan olmadığını vurğulayır. Və yazır: "F.Köçərli gözəl dərk edir ki, məktəbin, tərbiyə işinin əsas canını yaxşı xalq müəllimi təşkil edir; əsil xalq müəllimi yaxşı hazırlıqdan başqa, bir də xalqına fədakarlıqla xidmət arzusu ilə dolu olmalıdır. Xalqın mənfəətini hər şeydən üstün tutmalıdır. Beləliklə, pedaqoq məktəbin gücləndirilməsini ümumi halda deyil, onu hazırlıqlı müəllimlərlə təmin etmək, bu müəllimlərə lazımi şərait yaratmaq kimi konkret vəzifələrin həlli ilə bağlayır, tərəqqipərvər şəxsləri xalq məktəblərini bu cəhətdən gücləndirməyə çağırır".

F.Köçərlinin ictimai və ədəbi görüşləri təbii ki, ziddiyyətsiz keçməmişdir. Qarışıq bir zaman kəsiyində, hansı ki, böyük pedaqoq yoxsul və varlı məsələsini qoymuşdu - birmənalı qarşılanmamışdı: dünyagörüşündə eksiklikləri görməyə, ədəbi fikirlərindəki metodologiyasında eklektizmi, sinfiliyi axtarmışlar. Əhməd Seyidov və Bəkir Nəbiyev istisna deyildir. Professor Ə.Seyidov yazmışdır: "Köçərli cəmiyyətin yoxsul və varlılara parçalanmasını görür, birinciləri müdafiə, ikinciləri isə tənqid edirdi. O, bəzən ictimai və dövlət quruluşunun tənqidindən belə çəkinmirdi". Mərhum professor Sovetin ideoloji qaynarlığında başqa cür yanaşa bilməzdi.

F.Köçərlinin fəaliyyətinin qaynaqları Qori Müəllimlər Seminariyasında və Qazax Müəllimlər Seminariyasında başlanmışdır. Tərtib etdiyi dərsliklər, elmi-metodiki kitablar, müəllimlər üçün yazdığı məqalələr fikrimizin təsdiqidir. O, 1905-ci ildə qeyri-rus xalqlarının ibtidai məktəblərinin tədris planına aid "Yeni tədris planı" məqaləsini nəşr etdirir. Ə.Seyidov bu təşəbbüsü yüksək qiymətləndirir, tədris planındakı nöqsanları, səhvləri Köçərli tərəfindən qeyd olunmasını göstərir və belə bir müqayisə aparır: 1880-ci ildə tərtib edilmişlə 1905-ci ildəkində elə bir fərq yoxdur: "Yeni tədris planının bəzi yerləri eynilə köhnə tədris planından köçürülmüşdür. Halbuki Rusiyanın həyatından bu müddət ərzində ciddi təbəddülatlar əmələ gəlmişdir. Rusiyanın əhalinin təxminən yarısını qeyri-ruslar təşkil etdiyi halda, onların məktəb işinə bu cür münasibəti çarizmin mürtəce siyasətindən irəli gəlirdi". Bu baxışdan Ə.Seyidov F.Köçərlinin fikirlərini məqbul sayır. Və əsası da ondadır ki. - Ə.Seyidov yazır: - 1880 və 1905-ci illərin tədris planları və proqramları üzrə qeyri-rusların xalq məktəblərinin tədris məşğələlərinin əsasına ana dili qoyulmuşdursa, onun elmi və praktik tərəfləri əsaslandırılmamışdır: F.Köçərli təklifini əsaslandırmış və təklif etmişdir ki, uşaqların tərkibi yalnız müsəlmanlardan ibarət olan məktəblərdə rusca savad təlimi birinci tədris ilinin ikinci yarısından deyil, ikinci tədris ilinin əvvəlindən başlanmalıdır. İşin bu cür təşkili müəllimlik zəhmətini əsaslı surətdə yüngülləşdirir və daha mühüm olan ana dilini daha əsaslı öyrənmək üçün şagirdlərə imkan yaradır.



Allahverdi Eminov

F.Köçərli dövründə görkəmli pedaqoqlarını azdıqları dərsliklərə - hansı ki, müəllifləri C.Şirvanski, A.O.Çernyayevski, A.Şaiq idilər - öz tələblərini vermişdir. Xüsusilə, ədəbi mətnlərin seçilməsini irəli sürmüşdür. Eyni zamanda qeyd edir ki, "uşaq dərsliyini hər kəs yaza bilməz" - etirafıdır...

Ə.Seyidov F.Köçərlinin fikirlərinə istinad edərək vurğulayır: "F.Köçərli uşaq dərsliyinə aşağıdakı tələbləri aydın verir: dərslik ideyaca yüksək səviyyədə olmalı və oraya material hər cəhətdən diqqətlə seçilməli: əyanilik, sistematiklik, ardıcıllıq, yaşa müvafiqlik və başqa didaktik prinsiplər, qaydalar gözlənilməli, sadə, obrazlı, ifadə dürüstlüyü, üslub aydınlığı və s. nəzərə alınmalıdır".

F.Köçərlilə A.Şaiqin yaradıcı münasibətləri, əməkdaşlığı sıx olmuşdur. Məktublaşmışlar da. A.Şaiqin "Ana dili"ndən tərtib etdiyi proqramı bəyənmiş, "Gülzar" adlı dərs kitabı (1912) haqqında Abdulla Şaiqə bir məktub ünvanlamışdır. Məktubunda yazır: "Təlim kitabı qayırmaq... çox mühüm və çətin əmrdir, onu yazmaqda artıq ehtiyat və diqqət lazımdır" (F.Köçərlinin məktubları. "Azərbaycan" jurnalı, № 6, [illegible]). Firudin bəy "Gülzar" dərsliyinə öz tövsiyəsini vermiş və göstərmişdir ki, "Gülzar "əcələ" (tələsik - A.E.) tərtib olunmuş, xrestomatiya (müntəxəbat - A.E.) çox tələsik düzülmüşdür. "Gülzar"da təlim və tədrisə layiq məlumat çoxdur - təqdir etməyi unutmamışdır. Və: "Balalara hədiyyə" kitabını yazarkən, A.O.Çernyayevskinin "Vətən dili" dərsliyinin ikinci nəşrini hazırlayarkən özünün də əlavələri olmuşdur. Bunlar xalq həyatından topladığı, rus yazıçılarının əsərlərindən etdiyi tərcümə materialları idi.

*Davamı səhifə 20-də*



Köçərlinin 150 illiyi münasibəti ilə hazırlanmış sərgi

*Əvvəli səhifə 19-da*

Ə.Seyidov göstərir ki, Firidun bəy bu proseslərdə pedaqogikanın, psixologiyanın, didaktikanın mühüm tələblərinə, onun prinsiplərinə, qaydalarına, uşaqların yaş xüsusiyyətlərinə, əyaniliyə, ardıcıllığa, elmiliyə, dilinə, yaxından uzağa, sadədən mürəkkəbə və bu kimi başqa qaydalara dəqiq riayət etməyə çalışmış və təqdirəlayiq nümunə göstərmişdir. Professor davam edir: "Dərslik tərtibində yenilik, material zənginliyi və yığcamlıq, ardıcıllıq, sistematiklik, bu kimi tələbləri məşhur "Azərbaycan ədəbiyyatı tarixi materialları"nda da əsas götürmüş və hətta həyata keçirməyə çalışmışdır".

F.Köçərli pedaqogikanın nəzəriyyəsini dərindən mənimsəmişdir. Bu, o zaman üçün elə də asan səriştə deyildi. Belə ki, bu hərtərəfliyi və genişliyi o, 1904-cü ildə "Kaspi" qəzetində dərc olunmuş "Təlimin təbii üsulu haqqında" məqaləsində şərh etmişdir. Vətənpərvər pedaqoq rus F.Levitskinin "Şagirdlərə (qeyri-rus olmayan şagirdlər nəzərdə tutulur - redaksiya) rus dilini öyrənmək üçün dərslər kitabı və buna izahatı kəskin tənqid edir - bu, azdır - ifşaya tutur - siyasi, elmi-pedaqoji cəhətdən zərərli olduğunu göstərir. Bəzi detalları xatırladaq: Gözə çarpan nöqsan materialların düzülüşündəki sistemsizlik və dərslər arasındakı əlaqəsizlikdir. Bir dərsdə təlim əşyalarından, o biri dərsdə otağın hissələrindən danışılır, üçüncü dərsdə əşyaların müxtəlif vəziyyətləri haqqında anlayış verilir. Burada birinci yerdə ya eyni cins əşyaların adlarını, yaxud keyfiyyətini, əndazə və şəklini ifadə edən sözlər verilir.

F.Köçərlinin irsini təhlil edən Ə.Seyidov pedaqoqun tərbiyə nəzəriyyəsinə aid mülahizələrinə də toxunmuşdur. Xüsusilə, "İrəvan vilayətinin xalq məktəblərinin müəllimləri cənablarına müraciət" (1905) məqaləsi üzərində dayanır və vilayətin xalq məktəblərinin direktoru F.A.Smirnovun mətbuatda dərc olunmuş müraciətinə cavab olaraq qələmə alınmışdır. Məqalədə yeri gəlmişkən tərbiyəyə aid öz fikirlərini irəli sürmüşdür: Könüllü şəkildə öz fəaliyyəti üçün pedaqoji sahəni seçmiş hər bir xalq müəllimi ağıl, bilik və əməksevərlikdən başqa, uşaq haqqında qayğı və məhəbbətlə dolu qəlbə malik olmalıdır.

Haşiyə çıxaq ki, 110 ili tamam olan bu məqalədə F.Köçərlinin ürək atəşilə toxunduğu problem: müəllim şəxsiyyətinə, onun çırpınan qəlbinə, peşəsinə dərin hörmət hissi bu gün daha çox aktuallıq daşıyır. Valideynlər öz balalarını məhz müəllimlərə etibar edirlər, talelərinin sonunu onlara dərs deyənlərdən umurlar!

F.Köçərli yazır ki, müəllim uşaqla səmimi rəftarı və davranışı ilə azad həyatın və təbiətin ağuşundan ürək sıxıntılı və kədərli sinfə daxil olan uşağın bu vahiməsinin əsassız olduğuna inandırmalıdır. Şagirdin məktəbdən aldığı ilk təsir müəllimlə olan birinci görüş xoş, həzin olmalı, əslində uşaq üçün bir bayrama çevrilməlidir...

Böyük pedaqoq, ədəbiyyatçı Firidun bəy öz sözünü necə də obrazlı demişdir! Ə.Seyidov bu məsələyə toxunarkən qeyd edir ki, F.Köçərlinin tərbiyəyə münasibəti tam peşəkar xarakter daşıyır və bu günün tərbiyə metodu və prinsiplərinə səsləşir. Ümumiləşdirməli olsaq, aşağıdakı müddəaları əsas hesab edir: Tərbiyə mürəkkəb prosesdir. Tərbiyəçi xalq qarşısında öhdəsinə böyük və məsuliyyətli vəzifə götürür. Xalq ona ən qiymətli sərvəti olan uşaqlarının tərbiyəsini tapşırır. Ə.Seyidov yanaşmasında F.Köçərlinin "Tərbiyənin amilləri" başlıqlı əlyazmasına da müraciət etmişdir.

F.Köçərli tərbiyəyə aid xeyli sayda məqalələr yazmışdır və ardıcıl bu mövzu ilə maraqlanmışdır. Məsələn: "Novoye obozreniye" qəzetində "Müsəlmanlarda uşaq tərbiyəsinin vəziyyətinə dair", "A.O.Çernayayevskinin xatirəsi", "Məişətimizə dair" və sair məqalələrində xarakterik fikirlərini söyləmiş və əsaslandırmışdır.

Haşiyə çıxaq: Dahi pedaqoq həssas qəlb sahibiydi. Ona qarşı hörməti və qayğını unutmamışdı. Azərbaycan övladlarının QMS-də təhsil almasında müstəsna xidməti olan Aleksey Çernyayevskinin F.Köçərli üzərində də qayğısı az olmamışdır; onu Seminariyaya gətirmiş və dərs demişdir. Tələbəsi də öz növbəsində unudulmaz müəlliminin xatirəsini əziz tutmuş və iki məqalə yazmışdır: "A.O.Çernyayevski" - ikinci məqalәsidir. Necə ki, Əhməd Seyidov öz müəllimi haqqında fundamental əsər yazmışdır. Bu sətirlərin müəllifi də borclu qalmamış, "Əhməd Seyidov fenomeni" kitabını qələmə almışdır: 2003.

F.Köçərli müəllim hazırlığı problemlərini daima diqqətində saxlamışdır. 1895-ci ildən 1918-ci ilədək Qori Zaqafqaziya Müəllimlər Seminariyasında müəllim, 1918-1920-ci illərdə Qazax Darülmüəlliminin direktoru vəzifəsində şərəflə çalışmışdır. Pedaqogika və psixologiyanı tədris etmişdir.

Müəllim hazırlığı haqqında "Zaqafqaziya seminariyası", "Tiflisdə müsəlman ruhani seminariyası", "Müsəlmanların ehtiyacı haqqında məsələyə dair" və sair məqalələrində məsələni qaldırmışdır. Ümumiyyətlə, F.Köçərli ruhani seminariyasının açılmasının tərəfdarı olmuş, adı çəkilən məqalədə bu ideyasını əsaslandırmışdır. "Kafkazskiy Kray" qəzetində çap etdirdiyi bir məqaləsində öz ruhanilərimizin maarifçilik fəaliyyətini alqışlayır. Təsadüfi deyil ki, dahi pedaqoq maarifçilik görüşlərində milliliyin tərəfdarı kimi ardıcıl olmuşdur. Azərbaycan Müəllimlərinin I qurultayında (28 avqust, 1906) "İrşad" qəzetinə yazdığı məqaləsində bu ideyasını ifadə etmişdir.

Böyük ziyalı, ədəbiyyatşünas, pedaqoq, maarifçi Firudin bəy Köçərli haqqında çox yazılmış, yazılacaqdır. Onun zəngin və hərtərəfli irsi daima diqqətdə olacaqdır. Onun tələbəsi və layiqli davamçısı, professor Əhməd Seyidov da yüksək səviyyəli əsərini hələ 60-cı illərdə, ilk dəfə qələmə almışdır. Bununla eyni zamanda öz sələfinin xatirəsini uca tutmuşdur.

Maraqlı bir faktla qarşılaşdım; onun arxivindən oğlu, professor Fikrət Seyidov əlyazmanı nəşriyyata gətirərkən saralmış bir vərəqi mənə göstərdi və dedi: - Atamın əski əlifba ilə yazılmış Abbas Səhhətin şeiridir. A.Səhhət Firudin bəyi sağ ikən nurlu simaya həsr etmişdir. Buyurun.

Mən şeirin üzünü göçürdüm, orijinalını Fikrət müəllimə qaytardım. Abdulla Şaiqin "Gülzar" dərsliyində nəşr olunmuş o şeirlə məqaləmi bitirirəm. Qoy, hər iki milli ziyalımızın ruhu şad olsun:

*Yazmısan təzə nə şeydir? - deyə sordun məndən,*
*Ruhimin tarına mizrabzən oldun, qardaş!*
*Sabir ilə belə məktubu çox aldıq səndən,*
*Hər nə yazdıqsa, ona bani sən oldun, qardaş!*
*Hər zaman Nasehü Tərrahi ilə Sabir, bəndə,*
*Yaşayırdıq hamımız qəflət ilə fəxrəndə.*
*Birimiz mərsiyəkuluqda böyük şair idik,*
*Birimiz sağərə mail, birimiz canənə.*
*Birimiz həcvdə Yəğmə kimi çox mahir idi,*
*Laübali keçinirdi günümüz rindanə.*
*O pərişan yuxudan sən bizi bidar etdin,*
*Doğru, düz yolda çalışmaqlığa vadar etdin...*

*02.11.2014.*

# Görkəmli ziyalı Firidun bəy Köçərli



Rafiq Səfərov
Milli Arxiv İdarəsinin sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi

**Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində əhəmiyyətli yer tutmuş Firidun bəy Əhməd bəy oğlu Köçərli 1863-cü il yanvarın 26-da Şuşada ziyalı ailəsində anadan olmuşdur. O, ibtidai təhsilini Mirzə Kərim Münşizadənin məktəbində aldıqdan sonra 1876-cı ildə atasının məsləhəti ilə Şuşadakı dördsinifli rus şəhər məktəbinə daxil olmuşdur.**

Firidun bəy Köçərli dövrünün tanınmış pedaqoqu, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin inspektoru A.O. Çernyayevskinin dəvəti ilə 1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasına oxumağa getmiş və 1885-ci ildə həmin seminariyanı bitirmişdir. Əlavə olaraq qeyd edirik ki, Zaqafqaziya Müəllimlər Seminariyası Rusiya İmperatoru II Aleksandrın 8 aprel 1875-ci il tarixli fərmanı ilə təsis edilmişdir. Zaqafqaziya Müəllimlər Seminariyasında və onun nəzdindəki üç ibtidai məktəbdə - rus, gürcü və erməni məktəblərində təhsilin rus dilində aparılması və Azərbaycan dilini bilən müəllimlərin olmaması azərbaycanlı uşaqlarının böyük əksəriyyətini həmin tədris ocağına cəlb edilməsi işində böyük çətinliklər yaradırdı. Azərbaycanlı uşaqların öz doğma ana dilində savad almaq cəhdləri onların böyük əksəriyyətini ənənəvi məktəblərə cəlb edirdi. Seminariyanın nəzdində azərbaycanlı uşaqlar üçün də dünyavi ibtidai məktəbin açılmasına böyük tələbat və ehtiyac hiss olunurdu.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda çarizmin yeritdiyi ruslaşdırma və ayrıseçkilik siyasətinə qarşı, habelə milli dünyavi məktəb uğrunda mübarizə güclənirdi. Azərbaycanda maarifçilik ideyası və təşəbbüsünün önündə milli mətbuatımızın banisi Həsən bəy Zərdabi və digər mütərəqqi ziyalılar dayanırdılar. Firudin bəy Köçərli xalqın qəflət yuxusundan ayılmasında, maarif, elm, mədəniyyət meydanına qədəm qoymasında "Əkinçi" qəzetinin rolunu yüksək qiymətləndirirdi. F.b. Köçərli bütün fəaliyyətini xalqın mədəni və elmi yüksəlişə nail olmasına yönəltmişdir.

1897-ci ilin oktyabr ayında "Kaspiy" qəzetinin naşirlik səlahiyyəti Bakı milyonçusu, Azərbaycan tarixində əhəmiyyətli rolu olmuş H.Z.Tağıyevin ixtiyarına keçdikdən sonra o, Ə.M. Topçubaşov qəzetin redaktoru təyin edilmiş və 24 iyun 1898-ci ildən 20 oktyabr 1907-ci illədək "Kaspiy" qəzetinin redaktoru olmuşdur. "Kaspiy" qəzetinin naşiri H.Z.Tağıyev və qəzetin redaktoru Ə.M.Topçubaşov rus dilində çıxan "Kaspiy" qəzetini milli maraqların müdafiəsinə yönəldə bilmişdilər. Ə.Topçubaşov, "Kaspiy" qəzetinin redaktoru olduğu dövrlərdə əsası hələ N.Sokolinskinin redaktorluğu dövründən qoyulmuş maarif və təhsil məsələlərinin işıqlandırılması kimi şərəfli ənənəni davam etdirməyə çalışmışdır. Həmin vaxtlarda dövrün tanınmış pedaqoqları- F.Köçərli, S.M.Qəniyev, M.Şahtaxtinski, Ü.Hacıbəyov, N.Nərimanov, M.Mahmudbəyov və başqaları təhsil, təlim-tərbiyə problemlərinə həsr edilmiş məqalələrlə " Kaspiy" qəzetinin səhifələrində çıxış etmişdilər. Qeyd edirik ki, F.b. Köçərli və M.Mahmudbəyov müxtəlif vaxtlarda "Kaspiy" qəzeti ilə əməkdaşlıq etmiş, lakin redaksiyanın işlərində iştirak etməmişdilər. F.Köçərli "Orta məktəblərdə yerli dillərin tədrisi məsələləri.( " Kaspiy ".1905.№143-144); "Yeni tədris planı ". "Kaspiy" 1905.№161); "İrəvan quberniyasının xalq məktəb şagirdlərinə müraciət" (" Kaspiy" 1905.№193) və təlim-tərbiyə problemlərinə həsr edilmiş başqa məqalələrində görkəmli rus pedaqoqu K.D.Uşinskinin mötəbər fikirlərinə əsaslanaraq şagirdlərin mənəvi inkişafında xalq dilinin böyük rol oynadığını qeyd edirdi. Onun tanınmış pedaqoq A.O.Çernyayevskinin vəfatının 20 illiyinə həsr olunmuş "A.O.Çernyayevski " sərlövhəli məqaləsi 17 dekabr 1914-cü il tarixli 282№li "Kaspiy" qəzetində dərc edilmişdir. Yeri gəlmişkən qeyd edirik ki, görkəmli rus pedaqoqu K.D.Uşinskinin eyni adlı dərsliyi əsasında A.O.Cernyayevskinin səs üsulu ilə yazdığı "Vətən dili"( I hissə) dərsliyi 132 il bundan əvvəl-1882-ci ildə işıq üzü görmüş və Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır. A.O.Çernyayevski bu dərsliklə təkcə Azərbaycanda deyil, bütün Şərq xalqları içərisində səs üsulu əsasında ibtidai siniflər üçün dərslik hazırlayıb çap etdirən ilk müəllif olmuşdur. Bununla əlaqədar olaraq Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan-R.S) şöbəsinin ilk məzunlarından biri, tanınmış pedaqoq və maarifçi kimi yetişmiş F.b. Köçərli belə qeyd etmişdir : " Tamam islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır. Ana dili təlimində ondan istifadə edilməsi Azərbaycan məktəb tarixində mühüm pedaqogi hadisə idi. Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır.". Firidun bəy Köçərli (1863-1920), Rəşid bəy Əfəndiyev (1863-1942), Səfərəli bəy Vəlibəyov (1861-1902), Mahmud bəy Mahmudbəyov (1859-1923), Teymur bəy Bayraməlibəyov (1862-1937), Süleyman Sani Axundov (1875-1939), Cəlil Məmmədquluzadə (1866-1932), Nəriman Nərimanov (1870-1925) kimi tanınmış ziyalı kadrların hazırlanması o cümlədən A.O.Çernyayevskinin adı ilə bağlıdır. A.O.Çernyayevski "Vətən dili "nin I hissəsinin müəllifi, II hissəsinin isə Səfərəli bəy Vəlibəyov ilə birlikdə həmmüəllifi olmuşdur. "Vətən dili "nin I hissəsi 1882-ci ildə, II hissəsi isə 1888--ci ildə Tiflisdə "Kəşkül" mətbəəsində çap olunmuşdur.

Müsəlman uşaqlar üçün dünyəvi məktəbin açılması uğrunda aparılan mübarizənin nəticəsi olaraq Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində nəhayət ki, tatar ( Azərbaycan-R.S.) bölməsi yaradılır. Həmin bölmə 1879-cu il sentyabrın 23-də Qori şəhərində fəaliyyətə başladı. Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində tatar (Azərbaycan-R.S.) bölməsinin fəaliyyəti Rusiya İmperatoru II Aleksandrın 13 may 1880-ci il tarixli fərmanı ilə rəsmən qanunlaşdırıldı.

Çarizmin xalq maarifi sahəsində yürütdüyü mürtəce siyasətlə əlaqədar olaraq Azərbaycan bölməsi Azərbaycanda deyil, Gürcüstanın Qori şəhərində açılmasına baxmayaraq, onun yaradılması müsəlman - azərbaycanlı müəllim kadrlarının hazırlanmasında mühüm mərhələ təşkil etmişdir. Qori Seminariyası öz mövcudluğu və fəaliyyəti ilə Azərbaycanda xalq məktəbinin, təhsil və mədəniyyətin inkişafında müstəsna rol oynamışdır.

Bölmənin açıldığı ilk vaxtlarda orada oxumaq üçün ərizə vermək istəyən azərbaycanlı müsəlman uşaqların sayı olduqca az olmuşdur. Vəziyyətin belə olması bölmənin gələcək fəaliyyətini şübhə altına alırdı. Gərginlik yaşanan belə bir zamanda Şamaxıda kasıb rus ailəsində doğulub boya başa çatmış, tatar ( Azərbaycan-R.S.) bölməsinə inspektor təyin olunmuş, tanınmış rus pedaqoqlarından biri Aleksey Osipoviç Çernyayevski bölmənin fəaliyyətini təmin etmək məqsədilə savad almaq istəyən azərbaycanlı uşaqların axtarışına çıxır. O, axtarışlarını İrəvan, Naxçıvan, Gəncə, Şuşa, Şamaxı, Lənkəran, Quba və Dərbənddə aparır. A. Çernyayevskinin axtarışları nəticəsiz qalmır. Çox keçmir ki, Şuşadan Firidun bəy Köçərli, Səfərəlibəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Lənkərandan Teymur bəy Mahmudbəyov, Teymur Bayraməlibəyov, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski, Səkidən Rəşid bəy Əfəndiyev Çernyayevskinin ümidlərini doğruldur və həmin tədris ocağına oxumağa təşrif buyururlar. Qeyd edirik ki, 1879-cu ildə Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan bölməsinə Firidun bəy Köçərli ilə eyni vaxtda daxil olmuş ilk azərbaycanlı şagirdlərin sırasında sonralar məhşur pedaqoq kimi yetişmiş, xalqımızın milli təhsil tarixində əhəmiyyətli rol oynamış Rəşid Əfəndiyev, Mahmud Mahmudbəyov, Səfərəli Vəlibəyov, Həşim Nərimanbəyov, Ağababa Ağabababəyov, İsmayıl Vəkilov, və başqaları da olmuşdur. Qori Seminariyasının məzunu, böyük ziyalı Firidun bəy Köşərli sonralar yazırdı:" Qori seminariyasının Azərbaycan bölməsində yaxşı və diqqətəlayiq nə vardırsa, hamısı Çernyayevskinin adı ilə bağlıdır... Çernyayevskinin "Vətən dili bizim məktəblərdə yeni bir dövr açdı". Oxumaq üçün seminariyaya gəlmiş azərbaycanlı müsəlman gənclər ilk pedaqoji təhsillərini seminariyada aldıqdan sonra pedaqoji fəaliyyətlərini Azərbaycanın müxtəlif kəndlərində ibtidai məktəblərin yaradılması işinə həsr etmiş, həmçinin mövcud olan ibtidai kənd məktəblərində müəllimlik edərək xalq kütlələri arasında elm və maarifin yayılması və savadsızlığın, geriliyin aradan qaldırılmasındayaxından iştirak etmişdilər. İrəvan və Yelizavetpol quberniyalarının Xalq məktəbləri direktoru B.İ.Boqaçovun 1884-cü il aprelin 17-də Yelizavetpol şəhərindən Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru Dmitriy Dmitriyeviç Semyonova göndərdiyi məktubda seminariyanın məzunları - Mirzə Əli Xəlilovun 26 iyun 1881-ci ildən etibarən Naxçıvan şəhər məktəbində; Qasım Cəfər oğlu Qasımovun 1 sentyabr 1882-ci ildən Ordubad məktəbində; Ələsgər Molla Süleyman oğlu Süleymanovun 1 avqust 1882-ci ildən etibarən İrəvan quberniyasının iki sinifli Yengicə məktəbində; Həşim bəy Nərimanbəyovun 1 sentyabr 1882-ci ildən Yelizavetpol quberniyasında 2-sinifli Dağkəsəmən kənd məktəbində; Ələsgər Şeyx Həsənovun 1 iyul 1883-cü ildən İrəvan quberniyasında Böyük-Vedi kənd məktəbində; Abdul Rəşid bəy Əfəndiyevin 1 sentyabr 1882-ci ildən Yelizavetpol quberniyasında Qutqaşen kənd məktəbində; Məmməq Ağa Əfəndiyevin 1 iyul 1882-ci ildən Yelizavetpol quberniyasında, Ağdaş məktəbində; Alış bəy Tahirovun 1 iyul 1883-cü ildən etibarən Yelizavetpol quberniyasında Qarğabazar məktəbində; Mahmud bəy Mahmudbəyovun 1 iyul 1883-cü ildən Yelizavetpol quberniyasında Ağcabədi məktəbində; Muxtar Muradovun 1iyul 1883-cü ildən Yelizavetpol quberniyasında Ağdaş məktəbində və başqa məzunların pedaqoji fəaliyyətləri haqqında məlumat verilirdi.Əlavə olaraq qeyd edirik ki, Seminariyanın nəzdindəki tatar (Azərbayca-R.S.) bölməsinin məzunu olmuş Səfərəli bəy Vəlibəyov 1881-ci ildə seminariyanı bitirdikdən sonra dərs demək üçün Seminariyada saxlanılmış və o, Seminariyanın tatar bölməsindəki ibtidai məktəbdə 1881- 1888-ci illədək olan müddətdə müəllim işləmişdir.

Qeyd edirik ki, Zaqafqaziya müəllimlər seminariyasının tatar ( Azərbaycan-R.S.) bölməsinin Azərbaycana verdiyi kadrları çar Rusiyası dövründə heç bir məktəb verməmişdir. Seminariyanın Azərbaycan bölməsinin mövcüd olduğu 39 il müddətində Azərbaycan məktəbi üçün 250-ə yaxın müəllim - Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Müslüm Maqomayev, Süleyman Sani Axundov, Hacıbala Süleymanov, Osman Əfəndiyev, Fərhad Ağazadə, Nurməmməd Şahsuvarov, Müseyib İlyasov, İsfəndiyar Vəkilov, Şıxlinskilər və onlarla başqa tanınmış müəllim və ziyalılar hazırlamışdır ki, onlar da öz növbəsində Azərbaycan Milli maarifçilik hərəkatının inkişafında müstəsna rol oynamışdılar. ZMS Azərbaycan bölməsinin məzunu Firudin bəy Köçərli qeyd edirdi: " Seminariya məzunlarının bəziləri dərsliklər tərtib etməklə, başqaları rus ədəbiyyatından tərcümələr etməklə məşğul olur, bəziləri də povest və romanlarda öz gücünü sınayır, bir hissəsi də özlərini tamamilə dramatik ədəbiyyata həsr edirdilər." Onların böyük əksəriyyəti müəllimlik peşəsinə yiyələnərək ömürlərini xalqın maariflənməsi və təhsili, xalq kütləlеri arasında elm və maarifin yayılması, savadsızlığın aradan qaldırılması işinə həsr etmiş və bu sahədə olduqca əhəmiyyətli işlər görmüşdülər.

F.Köçərli Zaqafqaziya müəllimlər seminariyasının tatar ( Azərbaycan-R.S.) bölməsini 1885-ci ildə bitirmişdir. O, Seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasına müəllim təyin edilərək Azərbaycan dili və şəriyət fənlərindən dərs demişdir. Yeri gəlmişkən qeyd edirik ki, xalqımızın tarixən qədim torpaqlarından olan və orada yaşamış əhalinin böyük əksəriyyətini müsəlmanlar - azərbaycan türkləri təşkil etdiyi İrəvan mahalında 1881-ci ildə üç mühüm hadisə baş vermişdir. İrəvan seminasiyası, İrəvan qimnaziyası və yeni tipli Uluxanlı məktəbi açılmışdır. İrəvan seminariyası və qimnaziyasında tədrisin rus dilində aparılmasına baxmayaraq, həmin tədris ocaqlarının ştat cədvəlində müsəlman dini üzrə şəriət dərsləri və Azərbaycan dili fənlərinin tədris edilməsi üzrə müvafiq müəllim ştatı vahidi olmuşdur. Qafqazın ayrı-ayrı yerlərində, o cümlədən Kubanda və Kutaisi quberniyasında açılmış seminariyalardan fərqli olaraq, İrəvan müəllimlər seminariyasında Azərbaycan dili və müsəlman dini üzə şəriətin tədris edilməsi üzrə müvafiq ştat vahidinin olması heç də təsadüfi deyildir. Çünki bu seminariya xalqımızın tarixən qədim torpaqlarından olan İrəvan mahalında yaradılmışdı və həmin mahalda yaşayan əhalinin böyük əksəriyyətini müsəlmanlar, azərbaycan türkləri təşkil etmişdir.

İnqilabdan əvvəlki Qafqazın ən qiymətli sorğu nəşrlərindən biri- Tiflisdə, Qafqaz Canişinin Baş İdarəsi nəzdində çap olunmuş "Kavkazskiy Kalendarğ"-da müxtəlif illərə dair verilən məlumatlara əsaslanaraq qeyd edirik ki, Firidun bəy Köçərli İrəvan gimnaziyasında 1885-ci ildən deyil, 1886-cı ildən etibarən 11 il müddətində-(1886-1896-cı illərdə) müsəlman dini üzrə şəriət müəllimi və azərbaycan dili müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir.

*Davamı səhifə 22-də*



Qazax müəllimlər seminariyasının müəllimləri və şagirdləri

*Əvvəli səhifə 21-də*

"Kavkazskiy Kalendarğ"-da dərc olunan məlumata görə 1885-ci ildə İrəvan gimnaziyasında müsəlman dini üzrə şəriət və azərbaycan dili fənlərini Mirzə Elxanov tədris etmişdir. Beləliklə, Firidun bəy Köçərli İrəvan gimnaziyasında pedaqoji fəaliyyətə 1886-cı ildən etibarən başlamışdır. 1895-ci ilin "Кавказский Календарь"-da qeyd olunan növbəti məlumata görə Firidun bəy Köçərli 1895-ci ildə İrəvan gimnaziyasında yalnız müsəlman dini üzrə şəriət və azərbaycan dili fənlərini deyil, hüsnxətti də tədris etmiş, həmçinin gimnaziyanın pansionunda tərbiyəçinin köməkçisi kimi fəaliyyət göstərmişdir. Yeri gəlmişkən qeyd edirik ki, Firidun bəy Köçərli İrəvan gimnaziyasında işlədiyi vaxtlarda tədris olunan "Azərbaycan dili" fənninin proqramını da işləyib hazırlamışdır. Həmin proqramın tam mətni çağdaş Azərbaycan pedaqoji elminin sarvanı, akademik Hüseyn Əhmədov tərəfindən keçən əsrin 70-ci illərində İrəvan Dövlət Arxivində araşdırmalar apararkən aşkar edilmiş və proqramın mətni rus dilində olduğu kimi pedaqoji jurnalda dərc edilmişdir.

Firidun bəy Köçərli artıq 1897-ci ildən etibarən məzunu olduğu Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsində müsəlman dini üzrə şəriət müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Onun Azərbaycan ədəbiyyatı tarixinə aid ilk əsərlərindən biri rusca yazılmış və 1903-cü ildə Tiflisdə dərc olunmuş 54 səhifəli "Литература Адербейджанских татар" ("Azərbaycan tatarlarının ədəbiyyatı" ) kitabıdır. Həmin əsər hazırda M.F.Axundov adına Milli Kitabxanada qayğı ilə qorunub saxlanılır. F.Köçərli 1911-ci ildə "Mirzə Fətəli Axundov", 1912-ci ildə " Balalara hədiyyə" kitablarını nəşr etdirmişdir. Tanınmış ədəbiyyatşünas pedaqoq, ictimai xadim F. Köçərli həyatı boyu Azərbaycan ədəbiyyatı və mədəniyyətinə aid materiallar toplamış və həmin materialları tədqiq etmişdir.

Firidun bəy Köçərli pedaqoji fəaliyyəti ilə əlaqədar olaraq rus dilindən tərcümələr etmişdir. O, Puşkin, Lermontov və Koltsovdan bir sıra kiçik şerlər tərcümə edərək dərs kitablarına daxil etmişdir. F.b.Köçərli A.S.Puşkinin" Torçu və balıq", M.Y. Lermontovun "Üç xurma ağacı", A.V.Koltsovun "A kişi niyə yatıbsan?! kimi şerlərini tərcümə edərək şagirdlərin diqqətinə çatdırması uşaqların rus ədəbiyyatı klassiklərinin yaradıcılığı ilə tanış olması istiqəmətində atılmış əhəmiyyətli bir addım kimi qiymətləndirmək mümkündür. Qeyd edirik ki, Firidun bəy Köçərlinin yaradıcılığında əsas yeri "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsəri tutur. Bundan başqa Firidun bəy Köçərlinin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də ZMS Azərbaycan bölməsinin Gürcüstanın Qori şəhərindən Azərbaycanın Qazax şəhərinə köçürməsi, onu müstəqil seminariyaya çevrilməsində bilavasitə yaxından iştirak etməsi olmuşdur.

1917-ci ilin fevralında Rusiyada baş vermiş inqilabdan sonra Firidun bəy Köçərli siyasi proseslərə qoşulmuş,1918-ci il fevralın 14-dən mayın 27-dək Zaqafqaziya Seyminin müsəlan fraksiyasının, 1918-ci il mayın 27-dən dekabrın 7-dək olan müddətlərdə fasilələrlə Azərbaycan Milli Şürasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin müsəlan fraksiyasının 1918-ci il martın 16-da keçirilmiş ilk müstəqil iclasında "Musavat"partiyası və demokratik bitərəflər qrupundan Firidun bəy Köçərli Seymin kitabxana komissiyasına seçilmişdir.

1918-ci il mayın 28-də Tiflisdə, keçmiş Qafqaz Canişinin sarayında Azərbaycan Milli Şurasının ilk iclası keçirilmişdi. Həmin iclasda Azərbaycanın müstəqil dövlət elan edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında qərar qəbul edilir. İstiqlal Bəyannaməsinin qəbul edildiyi həmin tarixi iclasda Firidun bəy Köçərli də iştirak etmişdir.

Cümhuriyyət dövründə Respublikamızda təhsilin geniş yayılmasına nail olmaqdan ötrü ilk növbədə Respublikada yaşanan müəllim qıtlığı probleminin həll edilməsi istiqamətində təxirə salınmadan tədbirlər görülməli idi.Bu baxımdan Qori seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi vacib bir məsələ kimi Milli hökumətin qarşısında dayanırdı. Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan) bölməsinin Qazaxa köçürülməsi üçün F.X. Xoyskinin sədrlik etdiyi Azərbaycan hökumətinin 22 iyun 1918-ci il tarixli qərarı ilə ZMS Azərbaycan bölməsinin keçmiş inspektoru F.Köçərlinin sərəncamına 5 min rubl pul ayrılır. Beləliklə, bilavasitə Firidun bəy Köçərlinin səyi və təşkilatçılığı ilə Azərbaycan bölməsi Qazaxa köçürülür, müstəqil seminariyaya çevrilərək burada fəaliyyətini davam etdirir. Xalq Maarif Naziri N. Yusifbəylinin 12 oktyabr 1918-ci il tarixli 39 №li əmri ilə Zaqafqaziya Müəllimlər Seminariyasının keçmiş inspektoru Firidun bəy Köçərli 1918-ci il oktyabrın 1-dən Qazax Müəllimlər Seminariyasının direktoru təyin edilir.

Firidun bəy Köçərli 13 oktyabr 1918-ci il tarixli "Azərbaycan" qəzetində dərc etdirdiyi "Zaqafqaziya Müəllimlər Seminariyasının tatar bölməsinin müstəqil seminariyaya çevrilməsi haqqında "məqaləsində yazırdı: "1918-ci ilin əvvəllərində Qazax şəhərinin müsəlman əhalisi və bəzi kənd icma nümayəndələri tədris dairəsi qarşısında...tatar bölməsinin Qori şəhərindən Qazax şəhərinə köçürülməsi haqqında məsələ qaldırıb ərizə ilə müraciət edərək vəd etmişlər ki, seminariyanın tikilməsi üçün bağ-bağça və 10 desyatin suvarılan torpaq, 3000 rubl məbləğində birdəfəlik yardım və hər il 1000 rubl borc pul ayıracaqlar. Bu məsələ Azərbaycan hökumətinin 10 iyun 1918-ci il tarixli iclasında müzakirə edilərək qazaxlıları qane edəcək qərar qəbul edilmişdir. Tatar (Azərbaycan-R.S.) bölməsinin əmlakının daşınıb-gətirilməsi Xalq Maarif Naziri tərəfindən bölmənin inspektoruna həvalə edilmişdir ki, bu da onun tərəfindən yerinə yetirilmişdir."

Gürcüstanın mərkəzində mövcud olduğu 39 il ərzində seminariyanın yetirmələri tədris dairəsi rəhbərlərinin yürütdükləri ruslaşdırma tendensiyasına baxmayaraq, istər inqilab, istərsə də böyük çevriliş günlərində sınaqlardan şərəflə çıxaraq Vətəninin azadlığı və müstəqilliyi uğrunda mübarizəyə qoşulmuşdular.

Qazax Müəllimlər Seminariyasının direktoru F.Köçərli 1919-cu il martın 20-də Dövlət Müfəttişliyi İdarəsinin direktoruna 80№li məlumatı məktub göndərərək Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan-R.S.) şöbəsinin 1918-ci il iyunun 20-də müstəqil müəllimlər semnariyasına çevrilməsi, şöbənin mülkünün 1918-ci ilin sentyabrında onun tərəfindən Qori şəhərindən Qazax şəhərinə daşınması, orada çalışacaq qulluqçu heyətinin komplektləşdirilməsi və təsdiq olunmaq üçün Xalq Maarif Nazirliyinə şəxsən təqdim etməsi barədə məlumat vermişdir.

Xalq Maarif Naziri N.Yusifbəylinin 28 oktaybr 1918-ci il tarixli əmri ilə aşağıdakı şəxslərə 1918-ci il oktyabrın 20-dən etibarən Qazax Müəllimlər Seminariyasında müəllimlik etməyə icazə verilmişdir:

- İsfəndiyar bəy Vəkilov-rus dili və təbiyyət elmləri.
- Yusif Qasımov - tarix fənləri
- Əli Hüseynov - tarix və coğrafiya
- Məhəmməd Hüseynzadə - riyaziyyat
- İbrahim Əfəndi Qayıbov - ana dili.

Qazax Müəllimlər Seminariyasının açılışı 1918-ci il noyabrın 10-da keçirilmiş və bu təhsil ocağında dərslər həmin gündən etibarən başlamışdır. Seminariyanın açılışında yerli komendant Səbri bəy, qarnizon rəisi Camal bəy, qəza rəisi Şıxlinski, xalq məktəbləri müfəttişi Qiyasbəyov, ali-ibtidai məktəb müfəttişi Mustafayev, yerli hökumət idarələrinin məmurları, şəhərin fəxri sakinləri, yeni qəbul olunmuş şagirdlərin valideynləri və b. iştirak etmişdilər.

Açılışda toplaşanları salamlayan Qayıbzadə Əfəndi İbrahim müəllim öz çıxışında gənc dövlətin pedaqoji təhsilə böyük ehtiyacı olduğunu qeyd etmişdir.

Mərasim iştirakçısı Səbri bəy seminariyaya yeni daxil olmuş şagirdlərə müraciət edərək onları və Qazax cəmiyyətini bu təhsil ocağının açılışı münasibətilə təbrik etmiş və müəllimlərin cəmiyyətdəki roluna yüksək qiymət verərək qeyd etmişdi: **"Təmənna güdməyən, zəhmətkeş müəllimləri olmayan millətin xöşbəxt, güclü və qüdrətli olması mümkün deyildir".**

Səbri bəyin ardınca toplantıda iştirak edən Camal bəy şagirdləri təbrik edərək onları Vətən naminə məhsuldar çalışmağa səsləmişdi. Eyni zamanda, gənc tələbələrə xatırlatmışdı ki, Vətən təkcə iti qılıncla deyil, elmi cəhətdən inkişaf etmiş ağılla da müdafiə edilir ki, o da məktəbdə yetişdirilir. Odur ki, onlara təhsil almaqda fədakarlıqla çalışmaqlarını diləmişdi.

Seminariyanın direktoru F.Köçərli açılışda söylədiyi nitqində qeyd etmişdir ki, seminariyanın Gürcüstanın mərkəzində, özgə zəmində və müsəlman aləmindən uzaqlarda yaradılmasına baxmayaraq, onun çox böyük əhəmiyyəti olmuş, mövcud olduğu dövrdə xalq məktəblərində işləməkdən ötrü Qafqaz müsəlmanlarına çoxlu sayda müəllimlər hazırlamışdır. Vətəndən ayrı düşmüş, müsəlman gəncləri milliliyinin təmizliyini və toxunulmazlığını qoruyub saxlaya bilmişlər. İndi müstəqil seminariyaya çevrilərək doğma diyarına- Qazaxa köçürülmüş tatar (Azərbaycan-R.S.) bölməsi xalqın mənəvi geriliyinin aradan qaldırılması yolunda mühüm amillərindən birinə çevrilərək bu yolda var qüvvəsi ilə çalışacaqdır.

Azərbaycanda təhsilin, maarif və mədəniyyətin inkişafı, savadsızlığın aradan qaldırılması uğrunda yorulmadan iştirak etmiş və Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində əhəmiyyətli yer tutmuş şəxslərdən biri olan Firidun bəy Köçərlinin xatirəsi bu gü də xalqımızın qəlbində yaşayır, dərin hörmət və ehtiramla yad edilir. Yetişməkdə olan nəsil onun həyat və yaradıcılığını dərindən öyrənilməli və tədqiq edilməli, özlərinin elmi-pedaqoji biliklərinin artırılmasında onun zəngin yaradıcılığından səmərəli istifadə etməlidirlər. Firidun bəy Köçərlinin yaradıcılığının tədqiq edilməsinə ehtiyac vardır. Görkəmli pedaqoq Firidun bəy Köçərlinin zəngin pedaqoji irsi və müəllimlik peşəsi ilə bağlı fikirləri xalqımızın məktəb və pedaqoji fikir tarixinin şanlı səhifələrindəndir, olduqca əhəmiyyətli və unudulmazdır.

www.KASPI.AZ 26 noyabr 2014

# XX əsrin Azərbaycan ədəbi siması - Firidun bəy Köçərli



Rəsmiyyə QARAYEVA, "Azərnəşr"də redaktor

**Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan Mir Cəlal Paşayev xatirələrində yazırdı: "Bir institutun görə bilmədiyi işi Firidun bəy Köçərli təkbaşına görmüşdür". Başqa bir xatirə-memuarda yazılır: "Lomonosov darülfunun yaratmaqla özü canlı darülfuna çevrildi. Firidun bəy Köçərli də Azərbaycanın Lomonosovu, Uşinskisi, Pestalossisi və bütöv bir darülfunu idi. O, Azərbaycan ədəbiyyatı tarixinin ilk tədqiqatçısı, tənqidçisi, müəllim hazırlığının ilk təşkilatçısı, Azərbaycan uşaq ədəbiyyatının banisi, milli mədəniyyətimiz və ədəbiyyatımız haqqında kitab yazan ilk böyük alimdir".**

Firidun bəy Köçərli milli ədəbiyyatşünaslığımız tarixində ilk dəfə ədib və şairlərimizin böyük əksəriyyətini əhatə edən ədəbiyyat tariximizi yazıb. Bu əsərdə yüzdən artıq şairin ədəbi irsi və onlardan böyük bir qisminin tərcümeyi-halı verilmiş, əsərləri haqqında orijinal fikir söylənmişdi.

Firidun bəy ədəbiyyat tariximizi sistemli şəkildə tədqiq etmiş, filologiya elminin simasını, inkişaf perspektivlərini, meyar və prinsiplərini müəyyənləşdirmişdi.

Firidun bəy Köçərli millətimizin zülmətini parçalayan bir Günəş işığı idi və həyatını da bu işıq uğuruna paymal etdi. Belə demək mümkünsə, "Molla Nəsrəddin"dən öncə bu milləti hamamdan, küçədə it boğuşdurmaqdan, xoruz döyüşdürməkdən, qatıq satmaqdan, ilan oynatmaqdan, arvadbazlıqdan, mərsiyəxanalarda güruhluq etməkdən, saqilikdən yığıb başına toplayıb millət yaradanlardan idi Firidun bəy Köçərli.

Ədib XX əsrin əvvəllərində çağdaş ədəbiyyat elminin pirinsip və meyarları ilə elmi təsnifatını verir, mətbuatdakı çıxışlarında da xalqı maarifə, təhsilə çağırır, aid olduğu millətin tarixi, ədəbiyyatı, təhsili, ana dilinin inkişafı ilə bağlı analitik yazılar yazırdı. Tədqiqatçılar yazır ki, Firidun bəyin o dövrdə mətbuatda çıxan hər məqaləsi bir monoqrafiya, elmi əsər, bir dərs vəsaiti idi. O, özü də mətbuata böyük dəyər verirdi; təkcə dil sahəsində deyil, zamanın irəli sürdüyü bir sıra ictimai vəzifələrin yerinə yetirilməsi sahəsində mətbuatın böyük əhəmiyyətə malik olduğu haqqında dəfələrlə yazırdı.

Firidun bəy Köçərlini ən başdan öyrənməyə başlamaq lazımdır. Çünki Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsi deyərkən də ilk yada düşən Firidun bəy Köçərli olur. O, 1863-cü il yanvarın 26-da Azərbaycanın cənnət diyarı Şuşada dünyaya göz açmışdı. Millətimizin böyük bir ziyalı nəsli, musiqi və sənət üfüqləri oradan pərvazlanmışdı, bu diyar maarif və mədəniyyətimizin məbədgahı idi. Az qalır 25 il olsun ki, Şuşa düşmən tapdağındadır. Şuşada Şərq poeziyası nümunələrini yaxşı bilən Əhmədağa bəyin evində doğulub böyüyürdü Firidun bəy.

1879-cu ilin sentyabrında Qori Seminariyasına daxil olan ilk beş azərbaycanlıdan biri Firidun bəy Köçərli idi. Rəsmi sənədlərin birində yazılır: "Çernyayevskinin tələbə toplamaq məqsədilə qəsdən ezam edilərək yerlərdə tələbə seçməsi və qismən imtahan etməsi nəticəsində azərbaycanlıların seminariyaya daxil olmaq üçün hazırlaşan xristianlardan, ümumiyyətlə, yaxşı imtahan vermələri aşkar olundu.

Bütün tədqiqatçılar Çernyayevskinin seminariyaya azərbaycanlı tələbələr toplamaq sahəsindəki fəaliyyəti üzərində xüsusilə dayanırlar. Çünki Qori Seminariyasının Azərbaycana verdiyi ziyalıları, millət fədailərini sonraki dövrdə

heç bir ali təhsil ocağı verə bilmədi və burada Çernyayevskinin tarixi zəhməti inkarolunmazdır. Təkcə uşaq toplamaqla kifayətlənməyən A.Osipoviç azərbaycanlı seminaristlərin ana dilində və rus dilində ibtidai təhsilinin elmi cəhətdən əsaslandırılan metodikasını işləyib hazırlamışdı. Azərbaycanca öz ana dili kimi sərbəst danışan bu rus adam Azərbaycan ziyalılarından Həsənəli xan Qaradaği və Süleyman bəy Vəlibəyovun yaxından köməyi ilə "Vətən dili" dərsliyini yazır. Bu dərslik dil tədrisində Şərqdə ilk dəfə tətbiq edilən səs metodu əsasında tərtib olunmuşdu. Həmin kitab aprel işğalına qədər məktəblərdə əsas dərs vəsaiti idi.

1895-ci ildə Qori Seminariyası onu müəllim kimi işə dəvət edərkən Firidun bəy dəvəti məmnuniyyətlə qəbul edir. Çünki bir zamanlar dərs aldığı əziz müəllimləri ilə birlikdə çalışacaqdı, millətinin övladlarına elmi, biliyi daha geniş şəkildə vermək fürsəti qazanmış olacaqdı. On il İrəvan gimnaziyasında işlədikdən sonra F.Köçərli Qafqaz təhsil dairəsi Popeçitelinin 1895-ci il 30 oktyabr tarixli əmri ilə Qori Müəllimlər Seminariyasına köçürülür. Həmin ildən başlayaraq o, seminariyanın Azərbaycan şöbəsində Səfərəli bəy Vəlibəyov, Popov, Qaraqanidze, Lamauri, R.Əfəndiyev, N.Novospaski kimi zəmanəsinin mütərəqqi pedaqoqları ilə bir sırada çalışır, görkəmli pedaqoq, millətinin böyük ziyalısı və alimi kimi yetişir, xalqının maarif işığının yandırılmasında böyük rol oynayırdı.

Azərbaycan maarifinin, ədəbiyyatının və sevimli ömür-gün yoldaşının dəyərini bilən bu nəcib qadın böyük ədibimizə təkcə həyat yoldaşı deyil, həm də iş, məslək, əqidə və iman-işıq yoldaşı olmuşdur.

Qafqaz canişini Vorntsov-Daşkovun əmri ilə 1905-ci ildə seminariyanın Azərbaycan bölməsinə Soltan Məcid Qənizadə inspektor təyin edilir. O, Azərbaycan şöbəsində ilk milli rəhbər idi. S.M.Qənizadə gerçək bir Azərbaycan sevdalısı, maarif carçısı idi. Millətinin mənafeyi üçün ilk gündən Firidun bəylə əl-ələ verərək azərbaycanlı seminaristlərin haqq və hüquqlarını bərpa etməyə, dərs proqramlarını yenidən, zamanın tələblərinə uyğun şəkildə qurmağa başlayır. Lakin bu o vaxtlara təsadüf edirdi ki, seminariyanın rəhbəri Miropyev kimi Azərbaycana kin-küdurət və düşmənçilik münasibəti bəsləyən erməni kökənli mürtəce idi. Ona görə də Qənizadənin və Köçərlinin fikirləri ilə razılaşmır, intriqalar yaradır, digər xalqlardan olan seminaristləri azərbaycanlıların üstünə körükləyirdi. Lakin irfan işığı soydaşlarımız da geri çəkilmir, zorla da olsa, müəyyən uğurlara nail olurdular. Beləliklə, 3 il ərzində seminariyada təhsilin səviyyəsində, azərbaycanlılara münasibətdə xeyli irəliləyişə nail olundu. Firidun bəy seminariyada ana dili və şəriət dərsi deyirdi. Lakin şəriət dərsinə çox saat ayrılmasından istifadə edərək seminaristlərə Azərbaycan ədəbiyyatı klassiklərini tədris edir, ələ düşmüş fürsətin hər saniyəsindən belə yararlanırdı. Az-çox qazanılan uğurlara görə ali maarif orqanları Qənizadənin haqlı olduğunu etiraf edirlər. Lakin vəziyyət o həddə çatmışdı ki, Miropyevlə S.M.Qənizadənin bir yerdə işləməsi mümkün deyildi. Qənizadə istəyirdi ki, Firidun bəy Azərbaycan şöbəsinə inspektor təyin edilsin, Mirzə Ələkbər Sabiri isə Şamaxıdan gətirib Firidun bəyin yerinə müəllim təyin etsinlər. 1908-ci ildə Soltan Məcid Qənizadə Bakı Quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin ikinci rayonu üzrə inspektor təyin edilir. Lakin F.Köçərlinin ali təhsili olmadığını bəhanə edib onu inspektor təyin etmirlər. Aparılan tədqiqatlar göstərir ki, Firidun bəy 1910-cu ildə Azərbaycan şöbəsinin müvəqqəti inspektoru olmuşdur. Əli Dibir Maqomayevin xaricə müalicəyə getməsi ilə əlaqədar olaraq bu vəzifə müvəqqəti olaraq Firidun bəyə həvalə olunur.

Lakin qəddar mütləqiyyət tərəfdarı olan Miropyev azərbaycanlı seminaristlərə qarşı amansızlığını davam etdirir, seminaristlər arasında milli qırğınlara şərait yaradırdı. Əlbəttə, hədəf azərbaycanlılar idi. Nəticədə bir neçə azərbaycanlı tələbə haqsız olaraq seminariyadan qovulur. Canı boğazına yığılan Borçalı Mustafa "vəhşi Asyalı" sözünə görə erməni ter-Arutyunovu öldürür. Tənəffüslərdə ana dilində danışan tələbələrə qadağalar tətbiq edilir. 1900-cü il dekabrın 3-də hazırlıq sinfinin şagirdi Ü.Hacıbəyova ana dilində danışdığına görə töhmət verilir. Firidun bəy Köçərli bu qədər haqsızlıqlara artıq dözə bilmirdi. Bir gün üzünü mürtəce Miropyevə tutaraq: "Məncə ana dilində danışmaq qəbahət deyil. Bu uşaqlar sabah seminariyanı bitirdikdən sonra kənd məktəblərində dərs verəcəklər. Əgər ana dilləri ölərsə, dindaşlarına necə dərs keçəcəklər... Daraşmısınız Qafqaz müsəlmanlarının canına. Cənab Qənizadədən sonra mürtəce fəaliyyətinizi daha da genişləndirmək fikrinə düşmüsünüz? Bəsdir Azərbaycan şöbəsini addım-addım güdməyiniz..." deyir.

1912-ci ildə Şöbəyə B.Andronikov adlı erməni xislətli başqa bir fitnəkar təyin edilir. Bununla da Azərbaycan şöbəsinin daha betər günləri başlayır. 1914-cü ilin 18 iyulunda seminariyanın direktoru Andronikovun 9 aylıq fəaliyyəti barədə popeçitelə hesabat göndərir. Hesabatda bildirilir ki, onun gəlişi ilə Azərbaycan şöbəsində təlim və tərbiyə işləri süqut edib, pedaqoji iş zəyifləyib: "Əgər o, ikinci il də vəzifəsinə belə məsuliyyətsiz yanaşsa, mən onun seminariyadan çıxarılmasını zati-alilərindən xahiş etməyə məcbur olacam". Lakin onu vəzifəsindən geri almırlar və vəziyyət bu şəkildə 1917-ci ilədək davam edir. 1917-ci ilin avqust ayında Əbdül-məbud Sərkarov seminaristlərin adından Qafqaz təhsil dairəsinə Həmid bəy Şahtaxtlıya və "Vozrojdeniye" qəzetinin redaksiyasına teleqram göndərib Andronikovun seminariyadan çıxarılmasını, onun yerinə hamının sevimlisi F.Köçərlinin təyin edilməsini seminariyanın tələbələri və məzunları adından tələb edir. Teleqramın qısa mətni belədir: "Rusiyanın despotizm zəncirindən azad olduğu ilk günlərdə biz seminaristlər ümid edirik ki, Zaqafqaziya müsəlmanları üçün əziz olan seminariyanın bu şöbəsi heç bir taktikası olmayan, pedaqoji müəssisəyə rəhbərlik etmək bacarığından məhrum olan Andronikov kimi adamlardan yaxa qurtara biləcək... Canlı pedaqoji işin naminə Sizdən Andronikovun təcili surətdə kənar edilməsini və onun yerinə şagirdlərin və xalqının dərin hörmətini qazanmış Firidun bəy Köçərlinin təyin olunmasını xahiş edirəm..." Teleqram müzakirə olunduqdan sonra 1917-ci il avqustun sonlarında Qafqaz təhsil dairəsi Andronikovun seminariyadan çıxarılması və Azərbaycan şöbəsinə inspektor Firidun bəy Köçərlininin təyin edilməsi haqqında əmr verir. Həmin gündən seminariyanın Azərbaycan bölməsinə rəhbərlik edən Firidun bəy sərbəst surətdə şöbənin işini müvafiq tələblər əsasında, özü bildiyi kimi idarə etməyə başlayır.

Firidun bəy tədrisdə Azərbaycan dilinə geniş yer ayrılması məsələsinə ciddi fikir verir, ana dilimizin yad təsirlərdən qorunmasında ziyalıları köməyə çağırırdı. Tələbələri üçün Azərbaycan dilində müasir tələblərə cavab verən yeni dərsliklərin hazırlanması da qarşıya qoyduğu əsas vəzifələrdən biri idi. F.Köçərli müəllimi A.O.Çernyayevskinin seminariyanın ilk illərində hazırladığı "Vətən dili" dərsliyini yüksək qiymətləndirir, istər azərbaycanlı şagirdlərin, istərsə də rusların bu dili öyrənməsində "Vətən dili"ni əvəzsiz mənbə, nümunəvi dərslik hesab edir və bundan yararlanır, eyni zamanda yeni dərsliklər hazırlayırdı. Köçərliyə görə Çernyayevskinin hazırladığı dərsliyin bir üstünlüyü də onda idi ki, tərtib etdiyi "Vətən dili" dərsliyində bir pedaqoq kimi ən yararlı materialları seçmiş, atalar sözündən, tapmacalardan, zərb-məsəllərdən istifadə etmiş və seçdiyi materialları canlı uşaq dilində hazırlayıb təqdim etmişdir. Bu kitab təkcə seminariyada deyil, ölkənin bütün qəzalarında ibtidai rus-Azərbaycan məktəblərində tədris olunurdu. A.Osipoviç kitabı vaxtilə tələbəsi olmuş Rəşid bəy Əfəndiyevin xətti ilə daş basmasında nəşr etdirmişdi.

İrfan aşiqi Firidun bəyin Azərbaycan xalqına ən böyük xidmətlərindən biri şifahi ədəbiyyatın tədrisinin təlimi, tərbiyəvi əhəmiyyəti, el ədəbiyyatının toplanmasında çəkdiyi zəhmətlərdir. O, ağızda söylənən nağıl, hekayətlərdən, cürbəcür milli nəğmələrdən, aşıq sözlərindən, məsəllərdən, tapmacalardan, yanıltmaclardan, ağıcı sözlərindən, bayatılardan ibarət olan el ədəbiyyatını cəmləşdirib bir araya gətirdi, onları itib-batmaqdan qorudu və müasirlərinə də bu xəzinəni qorumağı vəzifə hesab etdi.

XIX əsrin axırları, XX əsrin əvvəllərində Azərbaycan dilinin qorunması və yaşaması uğrunda dövrün maarifçi-ziyalıları mübarizə aparır, dilimizi bəlağətli ərəb-fars və osmanlı sözləri ilə dolduran mühafizəkarlara qarşı çıxırdılar. Onlar deyirdilər ki, Azərbaycan dili nə meyxanələrdə saqilərə meyxanə deyənlərin, nə də mərsiyyəxanalarda mərsiyə deyənlərin dili deyil. Xalqın dili təmiz, aydın, qəliz sözlərsiz, körpə uşağın da ifadə edə biləcəyi qədər aydın və sadə olmalıdır. Firidun bəy Köçərli ana dilinin aşiqi idi. Onun 1913-cü ildə qələmə aldığı "Ana dili" məqaləsi "Molla Nəsrəddin" jurnalında dərc olunur. Bu məqalə cəmiyyətdə böyük əks-sədaya səbəb olmuşdu. Deyirdi ki, bir sıra qələm sahibləri müxtəlif dərgilərdə qəliz bir dildə yazılmış məqalələr dərc etdirərək, Azərbaycan dilini korlayırlar. Firidun bəyin elmi-pedaqoji və maarifçilik fəaliyyətində ana dili, təlimin ana dilində aparılması ideyası mühüm yer tutur. Özünün sələfləri olan A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, M.Şahtaxtlı və müəllimi Çernyayevski, müasirləri olan S.Vəlibəyov, R.Əfəndiyev və başqaları kimi Köçərli də bütün həyatı boyu ana dilinin qorunub saxlanılması, ana dilində məktəb ideyasının inkişafı yolunda yorulmadan çalışmış və zəngin irs qoymuşdur.

***Davamı səhifə 24-də***

# XX əsrin Azərbaycan ədəbi siması - Firidun bəy Köçərli

*Əvvəli səhifə 23-də*

Bu məsələdə K.D.Uşinskinin fikirlərinə müraciət edirdi: "Bir millətin malını, dövlətini, hətta vətənin də əlindən alsan yenə də ölüb itməz. Amma dilini alsan fot olar və ondan bir nişan qalmaz". Həmin vaxt mollanəsrəddinçilər, xüsusilə də, Mirzə Cəlil, Əli Nəzmi ana dilimizi korlayanlara qarşı mətbuata amansız mübarizə aparırdılar. Yəni bu ideya yolunda onlar da Firidun bəylə birləşirdilər. "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Ana dili" məqaləsindən bir il sonra Yusif Vəzir Çəmənzəminliyə göndərdiyi məktubda Köçərli təkrar dil məsələsinin üzərinə qayıdaraq "əhli-qələm" olduğunu sübut etmək üçün hökmən Osmanlı dəbilə bir-iki yazı çap etdirən bəzi ədibləri qınayırdı. Görkəmli maarifçi Həsən bəy Zərdabinin dil məsələsi ilə əlaqədar apardığı mübarizəni xatırladıb yazırdı: "Mərhum Həsən bəy həmişə Əli bəy Hüseynzadə ilə dil üstündə cəng-cidalda olub, "Əkinçi"sini ona dəlil gətirirdi ki, ən çətin fənni və elmi məsələləri də açıq və sadə dillə yazmaq mümkündür".

Seminariyanın Azərbaycan şöbəsinin Qoridən köçürülməsi məsələsi Firidun bəy Köçərlini və seminariyada dərs deyən azərbaycanlı müəllimləri daim düşündürürdü. "1918-ci ilin yayında məzuniyyətə çıxmasından, rus çarının yıxılmasından və gürcü knyazlarının başlarının hökumət qurmağa qarışmasından istifadə edən böyük ziyalı Firidun bəy Köçərli gecə ikən həyat yoldaşı Badisəba xanımla gizlicə seminariyanın Azərbaycan şöbəsinə məxsus bütün əmlakı, kitabxana və başqa tədris ləvazimatını qatara yükləyib oradan uzaqlaşır. Qoridən millətinə maarif, irfan gətirən böyük azərbaycanlının üzü Ağdama sarı idi. Seminariyanın Ağdamda açılmasını istəyirdi... Yolda ikən duyuq düşən Gürcüstan hökuməti qatarın dalınca adam göndərir. Qatarı Böyük Kəsik dayanacağını keçib Salahlıya yaxınlaşanda dayandırırlar. Xoşbəxtlikdən danışıqlar nəticəsində poruçiklər də, qatar da Tiflisə boş qayıdır, seminariyanın ləvazimatı isə Qazax bəylərinin köməyilə Salahlıya daşınır. Firudin bəy də qərarını dəyişir və seminariya Qazaxda açılası olur. 1918-ci ildə - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Firidun bəy Köçərli Qazax seminariyasının direktoru kimi fəaliyyətə başlayır, hökumət təhsilin inkişafı üçün seminariyaya 5000 manat vəsait köçürür. Firidun bəyin təhsilə və seminariyanın fəaliyyətinə aid məqalələri dövri mətbuatın səhifələrində yer almağa başlayır. 1918-ci ildə seminariyanın Azərbaycan şöbəsinin bazasında Müstəqil Qazax Seminariyasının təntənəli açılışı olur.

...Aprel işğalı ilə millətimizin başı üzərini 70 illik qara buludlar aldı. 1920-ci ildə bu qara və qorxulu bulud sardı xalqımızın başı üstünü, qırğınlar millətinə işıq gətirən sevdalılardan başladı. Düşmən millətimizi haradan vuracağını bilmişdi...Tutulanlar arasında Qazax seminariyasının direktoru, görkəmli ziyalı Firidun bəy Köçərli də var idi. O, Gəncədə baş verən üsyan zamanı 20-ci diviziyanın hökmü əsasında həbs edilir. Daşnak Sarkis Danilyanın diktəsi ilə Firidun bəy Köçərli haqqında verilən saxta hökmdə yazılıb: "4 iyun 1920-ci il. Gəncə: "Mən 20 diviziyanın xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firidun bəy Köçərlinskinin əksinqilablçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərmişdir. Köçərlinsiki Qazaxda millətçilik ehtiraslarını qızışdırmışdır, nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç də inandırıcı deyildir Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini rədd etmək lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər". Beləliklə, zülmətdə doğulub ətrafa nur saçan, millətinin maariflənməsi yolunda can qoyan, xalqlar arasında ayrı-seçkiliyə heç zaman yol verməyən humanist bir ürəyə malik olan milli duyğularla, bəşəri arzularla yaşayan, dövrünün ən böyük ziyalısı erməni fitnə-fəsadının qasırğasına düşür. Türk düşməni Sarkis Danilyanın hökmünə əsasən Firidun bəy Köçərliyə güllələnmə cəzası təyin edilir. Ən acısı da odur ki, bu hökmü təsdiq edən imzanın altında: "Fövqəladə komissar H.Sultanov" yazılıb.

Beləcə, millətimizə düşən işığı amansızlıqla söndürürdülər. Tarixə dönüb baxsaq, Qori müəllimlər seminariyasını bitirən ziyalılarımızın əksəriyyətinin 1920-ci illərdən qırmağa, məhv etməyə, onlara qarşı soyqırımının başlandığını görərik. Bu soyqırımı Firidun bəy Köçərli ilə başaldı, 37-ci illərin sonlarında başa çatdı. Lakin onlar işıq zərrələrinin toxumlarını səpmişdilər, gedən cisimləri idi, ruhları aid olduğu xalqda idi. Firidun bəyin həbs edilməsi haqqında xəbər o zaman Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova çatdırılır. Seminariyada Köçərlinin tələbəsi olmuş professor Əhməd Seyidov yazırdı: "1920-ci ildə müəllimimizi Gəncədə həbs etmişdilər. Həmin ilin may ayında Azərbaycan İnqilab Komitəsinin sədri kimi Bakıya gələn N.Nərimanov öz müəlliminin həbs edildiyi xəbərini alır və dərhal Gəncə şəhərinə teleqram göndərir: " Firidun bəy Köçərli dərhal azad edilsin" bu iş ilə məşğul olan erməni müstəntiq Liberman teleqramı gizlədir və gecə ikən Firidun bəyi Gəncə çayının sahilinə gətirərək orada qətlə yetirir". Buna baxmayaraq, Qoridən başlanan yolun işığı onillər boyu Azərbaycan təhsilinə, elm və mədəniyyətinə, milli oyanışına böyük töhfələr vermişdir.

Böyük alimimiz Bəkir Nəbiyevin dediyi kimi, XX əsr Azərbaycan ədəbi siması deyərkən Firidun bəy Köçərlini düşünürük.

Məqalənin hazırlanmasında mənə yaxından kömək edən F.Köçərli adına Dövlət Kitabxanasının direktoru Şəhla Sultanovaya, Almaz Əşrəfovaya və bütün kollektivə minnətdarlığımı bildirirəm.

## *Sözsüz*



**Saysız-hesabsız ziyalılar yetirən Qazax müəllimlər seminariyasının binasının hazırda dağılmaması üçün təmirə ehtiyacı var**


**Təsisçi:** Sona VƏLİYEVA

**Baş redaktor:** Natiq MƏMMƏDLİ

**Ünvan:** Bakı ş. Mətbuat prospekti, 529-cu məhəllə, Beynəlxalq Mətbuat Evi
Telefon: 510-61-92, 432-88-45,
Faks: 510-61-93
E-mail: kaspi@azdata.net

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Lisenziya №022264, Qeydiyyat №V 64

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib. Bazar və bazar ertəsindən başqa hər gün çıxır.

**Tiraj: 5000**

*Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər*